*Gündəlik ictimai-siyasi qəzet*

# XALQ QƏZETİ

*№ 149 (29121) 12 iyul 2019-cu il, cümə*

Qəzet 1919-cu ildən nəşr edilir
www.xalqqazeti.com

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

## “İslam sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumunun iştirakçılarına

**Hörmətli Simpozium iştirakçıları!**

Sizi ölkəmizin paytaxtı Bakı şəhərində salamlamaqdan məmnun olduğumu bildirir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Etnik-mədəni müxtəlifliyi və təbii-coğrafi zənginlikləri ilə dünyanın unikal guşələrindən olan Qafqazın son 1400 illik tarixi İslam dini ilə bağlıdır. Azərbaycanda, o cümlədən Qafqazın müxtəlif bölgələrində bu dinə məxsus çoxsaylı maddi və qeyri-maddi mədəniyyət nümunələri İslam sivilizasiyasının regiondakı dərin köklərindən xəbər verir. Bu gün Qafqazda yaşayan xalqların bir çoxunun mədəniyyətinin əsasını İslam dəyərləri təşkil edir.

İslam VII əsrin ortalarından etibarən Azərbaycanda yayılmağa başlamış və ölkəmiz İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən birinə çevrilmişdir. Xalqımız yüz illər boyu belə bir mədəni-mənəvi müstəvidə bəşəri fikir tarixinə böyük şəxsiyyətlər bəxş etmiş, dünya şöhrətli azərbaycanlı alim və mütəfəkkirlər, söz və sənət dühaları İslam mədəniyyətinin inkişafında müstəsna xidmətlər göstərmişlər.

Tarixən olduğu kimi, bu gün də Azərbaycanda islami dəyərlərin qorunmasına xüsusi əhəmiyyət verilir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 9–11 dekabr 1998-ci ildə “İslam sivilizasiyası Qafqazda” Beynəlxalq Simpoziumunun Bakıda keçirilməsi xalqımızın öz tarixi keçmişinə və milli-mənəvi dəyərlərinə bağlılığın bariz nümunəsi idi.

2017-ci ilin Azərbaycan Respublikasında “İslam Həmrəyliyi ili” elan edilməsi və IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi müasir narahat dünyamıza əmin-amanlıq və həmrəylik çağırışları kimi qiymətləndirilməlidir. Bir sıra ölkələrdə islamofobiyanın vüsət aldığı hazırkı dövrdə biz insanları birliyə, bərabərliyə, sülhə və tolerantlığa dəvət edən ümumbəşəri İslam dəyərlərinin təbliği istiqamətində ardıcıl səylərimizi, eyni zamanda, mədəniyyətlərarası dialoq və əməkdaşlıq təşəbbüslərimizi bundan sonra da davam etdirəcəyik.

“İslam sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumunun maraqlı və konstruktiv müzakirələr şəraitində keçəcəyinə, Azərbaycanın, ümumilikdə Qafqazın İslam sivilizasiyasının inkişafındakı tarixi yerinin və rolunun araşdırılmasına yeni töhfələr verəcəyinə əminliyimi bildirir, toplantınızın işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 iyul 2019-cu il**

## Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı Səfirliyinin tabeliyində Mədəniyyət Mərkəzinin yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, mədəniyyəti, tarixi, sosial-iqtisadi inkişafı, elmi-texniki və turizm potensialı barədə təbliğat işini genişləndirmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı Səfirliyinin tabeliyində Mədəniyyət Mərkəzi yaradılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1-ci hissəsi ilə yaradılan Mədəniyyət Mərkəzinin fəaliyyətinin təmin edilməsi ilə bağlı zəruri tədbirləri həyata keçirsin.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 iyul 2019-cu il**

## Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi qanunçuluğun müdafiəsində mühüm rol oynayır

**Bu günlərdə ali konstitusiya ədalət mühakiməsi orqanı olan Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətə başlamasının növbəti ildönümü tamam olur. Bu növbəti ildönümü Azərbaycanın müasir tarixində xalqımız üçün taleyüklü hadisə olan – ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbəri seçilməsinin 50 illik əlamətdar yubileyinə təsadüf edir. 1969-cu il iyulun 14-də qəbul edilmiş qərar Azərbaycan dövlətçiliyinin inkişafının yeni və dönməz vektoru olmaqla, müstəqillik həsrətinə qalmış millət üçün yeni tarix hesablamasına çevrilmişdir. Bu iki tarix arasında əlaqə çox rəmzi xarakter daşıyır, çünki ölkəmizdə konstitusionalizm ideyalarının təsis edilməsi, o cümlədən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin simasında konstitusiya nəzarəti orqanının yaradılması xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır.**

Müasir Azərbaycan dövlətinin memarı, ulu öndər Heydər Əliyevin ölkənin siyasi rəhbərliyinə qayıdışından sonra bütün sahələrdə sabitliyin təmin olunması ölkədə çoxşaxəli islahatların aparılmasına şərait yaratdı. Vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğunu əsas inkişaf istiqaməti olaraq seçən Azərbaycanda qısa müddətdə irimiqyaslı qanunvericilik islahatları reallaşdırılaraq əhəmiyyətli nailiyyətlər əldə edildi. Başlanılmış köklü hüquqi islahatlar çərçivəsində ən mühüm hadisələrdən biri, şübhəsiz ki, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi oldu. Bununla da ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış bu tarixi sənəd dövlətçiliyimizin inkişafında dönüş yaradaraq keyfiyyətcə tamamilə yeni səhifə açdı.

Konstitusiyada müasir sivil vətəndaş cəmiyyətinin inkişaf istiqamətlərini müəyyənləşdirən, hüquqi dövlət quruculuğuna imkan verən mütərəqqi ideya və dəyərlər geniş şəkildə öz əksini tapmışdır.

Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini təşkil etdi. Konstitusiyada xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil olunması kimi təməl prinsiplər təsbit olunmuş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi isə dövlət siyasətinin əsas istiqaməti, bütün dövlət orqanlarının fəaliyyətinin əsas məqsədi kimi müəyyən edilmişdir.

*(ardı 3-cü səhifədə)*



## Planetin mühüm məsələləri Bakıda müzakirə olunur

❐ ***Təkcə Sovet İttifaqı deyil, bir neçə başqa ölkə də var idi ki, onlara “qapalı ölkə” deyirdilər və həmin qapalılığın, əslində, elə bir sirri, müəmması da yox idi. Sadəcə çalışırdılar ki, ölkə daxilində baş verən proseslər dünya ictimaiyyətindən gizli saxlanılsın. Dünya ictimaiyyəti isə həmin proseslərdən müxtəlif yollarla xəbər tutur və həmin “qapalı ölkələr” daim qınaq altında olurdu.***

Şükürlər olsun ki, gənc müstəqil Azərbaycan dövlətinin kimdənsə gizlin saxlanılmalı heç bir problemi yoxdur. Ona görə də ölkəmiz dünya ictimaiyyətinin üzünə tam açıqdır və üstəlik, biz beynəlxalq təşkilatların və dünya turistlərinin ölkəmizə gəlməsini təşviq edirik. Bu, bizim özümüzə, yeritdiyimiz daxili xarici siyasətə olan inamın göstəricisidir. Daha müsbət və fəxr edilməli cəhət isə odur ki, beynəlxalq ictimaiyyət, xüsusən də dünya siyasətində və iqtisadiyyatında söz sahibi olan dairələr də ölkəmizin həmin prinsiplərini bəyənərək, müxtəlif tədbirləri Azərbaycan paytaxtında keçirmək təşəbbüsü ilə çıxış edirlər. Bu da dünya ictimaiyyətinin bizə olan inam və etimadının göstəricisi kimi qiymətləndirilməlidir.

Rusiya Federasiyası, Amerika Birləşmiş Ştatları və NATO-nun ali vəzifəli zabitlərinin müxtəlif məsələləri müzakirə etmək üçün Azərbaycan paytaxtını seçməsi, sözün həqiqi mənasında, beynəlxalq aləmdə bizə göstərilən etimadın, dövlətimizin balanslı siyasətinin, ölkəmizdəki daxili sabitliyin layiqincə qiymətləndirilməsinin göstəricisidir.

Bu gün Kremldə də çox yaxşı bilirlər ki, bizim Ağ evlə dostluq və tərəfdaşlığımız hansısa üçüncü ölkəyə qarşı yönəlməyib. Eləcə də, Ağ evdəki tərəfdaşlarımıza da gün kimi aydındır ki, bizim Kremllə münasibətlərimizin gündən-günə yaxşılaşması bilavasitə Moskva və Bakıya aid olan məsələləri əhatə edir. Yəni bizim siyasətimiz o qədər açıqdır ki, heç kəs heç bir addımımızdan nəinki narazı qalmır, hətta şübhələnməyə də əsas görmürlər. Son üç ildə, Rusiya Federasiyasının yüksək rütbəli hərbçilərinin ABŞ və ya NATO generalları ilə görüşmək üçün Bakını seçməsinin əsas səbəbi də məhz bu amillərdir. Burada xüsusilə və dərhal vurğulanmalı daha bir məqam da vardır. Belə ki, həmin müzakirələrin aparılması üçün görüş məkanını təkcə Rusiya və ya ayrılıqda ABŞ hərbçiləri seçmirlər. Bu qərar qarşılıqlı razılaşma yolu ilə qəbul edilir və adıçəkilən tərəflərin hər üçü məhz Bakının seçilməsini məqsədəuyğun sayır.

Bu qəbildən olan qərarları eşidəndə ulu öndər Heydər Əliyevin vaxtilə bəyan etdiyi “Biz, hüquqi, dünyəvi, demokratik dövlət quruculuğu yolunu tuturuq və bəyan edirik ki, respublikamız bütün dünya üçün açıq olacaqdır”-- deyimi yada düşür. İstənilən azərbaycanlı fəxr və qədirbilənliklə xatırlayır ki, Azərbaycana bu inam və etimadı Heydər Əliyev siyasi kursu qazandırmışdır.

***Biz beynəlxalq təhlükəsizliyin təmin edilməsi, terrorizmə qarşı mübarizə məsələlərində çoxtərəfli qaydada fəaliyyətimizi bundan sonra da qətiyyətlə davam etdirmək əzmindəyik.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Kütləvi informasiya vasitələrindən məlum olduğu kimi, iyulun 10-da Bakıda Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Valeri Gerasimov və NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Volters arasında görüş keçirilib. Bildirilir ki, tərəflər Rusiya ilə NATO məkanının təmas xətti boyu xoşagəlməz hadisələrin qarşısını almaq və ekspertlər səviyyəsində dialoq perspektivlərini müzakirə ediblər. Eləcə də, generalların görüşündə Avropada və dünyada təhlükəsizlik məsələlərinə, terrorçuluq və dəniz quldurluğu ilə mübarizəyə, Əfqanıstanda, Suriyada vəziyyətə dair fikir mübadiləsi aparıldığı bildirilir.

Bu xəbəri digər ölkələrdəki həmkarlarımız ali hərbçilərin növbəti görüşü kimi, sadə xəbər şəklində paylaşa bilərdilər. Bizim üçün isə bu xəbər adi və ya sadə informasiya deyil. Rusiyanın Müdafiə Nazirliyinin və NATO-ya üzv olan dövlətlərin müvafiq qurumlarının da yaydığı həmin xəbərdə “Bakıda Avropada və dünyada təhlükəsizlik məsələlərinə, terrorçuluq və dəniz quldurluğu ilə mübarizəyə, Əfqanıstanda, Suriyada vəziyyətə dair fikir mübadiləsi aparılıb” məlumatı yer alırsa, bu, bizim üçün fəxr edilməli xəbərdir.

Bundan başqa, xüsusilə qeyd edilməli başqa bir məsələ də vardır. Belə ki, məcburən sürükləndiyi müharibə şəraitində yaşayan, ərazisinin 20 faizi Ermənistan dövləti tərəfindən işğal edilmiş Azərbaycan dövlətinin Prezidenti bir gündə dünyanın ən mötəbər dairələrindən ikisinin generalı ilə görüşmüş, tərəfdaşlıq münasibətlərinin perspektivi müzakirə olunmuşdur. Bu xəbərin Ermənistanda, İrəvan rəhbərliyində hansı hissləri yaratdığının fərqindəyik.

Mətbuat xəbər verdi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı ilə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi -- Rusiya müdafiə nazirinin birinci müavini arasında keçirilən görüşdə iştirak etmək üçün Bakıya gələn NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Voltersin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Bildirildi ki, görüşdə Azərbaycan ilə NATO arasında əməkdaşlıq, ölkəmizin Əfqanıstanda “Qətiyyətli dəstək” missiyasına töhfəsi məsələləri müzakirə edilib. Bəs bu xəbər işğalçı ölkədə hansı rezonansı doğurdu? O, başqa söhbətin mövzusudur.

Həmin gün yayılan digər xəbərdə isə oxuduq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Bakıda səfərdə olan Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi və Rusiya müdafiə nazirinin birinci müavini Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Heç bir mənbəyə, elektron resursa baxmadan da, çəkinmədən deyə bilərik ki, həmin xəbərin yayılmasından sonra onsuz da antirusiya əhval-ruhiyyəsi baş alıb gedən İrəvanda rus hərbçilərinin əleyhinə səsləndirilən çağırışlar ikiqat artıb.

Həmin görüşdə beynəlxalq səviyyədə mühüm danışıqların mütəmadi olaraq Bakıda aparılmasının əhəmiyyəti qeyd edilib və Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olunub. İrəvan rəhbərliyi bu məlumatın xəbər yükünü əsəbiləşmədən, həyəcanlanmadan necə çəkə bilər ki?

Hələ bu, azmış kimi, Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini – Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov da ölkəmizdə işgüzar səfərdə olan Rusiya Federasiyası Silahlı Qüvvələrin Baş Qərargah rəisi – müdafiə nazirinin birinci müavini, ordu generalı Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə və NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı general Tod Voltersin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Azərbaycan generalı bölgədəki hərbi-siyasi vəziyyətə və təhlükəsizlik məsələsinə toxunaraq Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regional sabitliyə əsas təhlükə yaratdığını, onun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə nail olunmasının vacibliyini vurğulayıb. Bu arqument də İrəvana bir dərd olmamış deyil.

Bu görüşlər haqqında işlədilən “mütəmadi” ifadəsi də təsadüfi deyil. Çünki hörmətli oxucuların da yadında olduğu kimi, 2017-ci ilin fevralında Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov və ABŞ Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin sədri Cozef Danfordun görüşü də Bakıda keçirilmişdi. Həmin ilin sentyabrında isə Valeri Gerasimov Bakıda NATO Hərbi Komitəsinin rəhbəri Petr Pavellə görüşmüşdü. Təbii ki, bütün görüşlərdə dünyanın iki böyük gücü arasında, demək olar ki, taleyüklü hərbi problemlər müzakirə edilib. 2018-ci il dekabrın 12-də də Bakıda NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı Körtis Skaparrotti ilə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov arasında görüş keçirilib.

Sonda bir daha xatırladaq ki, NATO-nun da, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının da üzvü olmayan Azərbaycana göstərilən bu etimadın təməlində ölkəmizin ABŞ, Avropa və Rusiya ilə çox yaxşı münasibətləri dayanır. Fakt ondan ibarətdir ki, dünyanın güc mərkəzləri sülh və dialoq məkanı kimi növbəti dəfə Bakını seçdilər.

***İttifaq MİRZƏBƏYLİ, “Xalq qəzeti”***




**Azərbaycan–Fransa əməkdaşlığı yüksələn xətt üzrə inkişaf edir**

**2**



**Son əlli ildəki bütün uğurlarımızın təməlinin qoyulduğu gün**

**4**




**Qriqorian kilsəsinin zəngləri və “ziyalı” çızma-qaraları**

**7**



**ABŞ Şimali Koreyaya qarşı sanksiyaları yumşalda bilər**

**8**

**Beynəlxalq təşkilatlarla əlaqələr hər bir ölkə, o cümlədən Azərbaycan üçün çox əhəmiyyətlidir. Müasir dövrdə dövlətlərarası əlaqələr o dərəcədə inkişaf edib ki, ölkələrin öz fəaliyyətlərini beynəlxalq hüquq normaları çərçivəsində həyata keçirmələri xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, mədəniyyət, elm və təhsil sahələrində əməkdaşlıq ayrıca əhəmiyyət daşıyır. Müstəqil dövlətlərin BMT-nin ixtisaslaşmış qurumlarından biri olan UNESKO ilə əlaqələrə xüsusi önəm vermələri də bundan irəli gəlir.**



# AZƏRBAYCAN dünyada ən mötəbər tədbirlərin təşəbbüskarı olur

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Azərbaycan – UNESKO əlaqələri tamamilə yeni dinamika aldı. Tərəflər arasında əməkdaşlıq UNESKO-nun himayə etdiyi bütün istiqamətlər üzrə sürətlə inkişaf etdi. Bu siyasət hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Həmin nüfuzlu qurumla əməkdaşlığın yeni mərhələyə qədəm qoymasında Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müstəsna rolu var.

Ümumiyyətlə, ölkəmiz BMT-nin Elm, Təhsil və Mədəniyyət üzrə Təşkilatı olan UNESKO ilə əlaqələrə xüsusi önəm verir. Bu təşkilat üzv ölkələrə bir sıra sahələr üzrə yardımlardan bəhrələnmək imkanı verir. Bununla yanaşı, bu təşkilat elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsində, maddi-mədəni irsin qorunmasında əhəmiyyətli rol oynayır.

Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri milli-mənəvi dəyərlərin, tarixi-mədəni irsin qorunması və təbliği ilə yanaşı, beynəlxalq səviyyədə dünya irsinin müdafiəsi və mühafizəsinə dəstək verməkdir. Bu məqsədlə ölkəmiz müstəqilliyini bərpa etdiyi vaxtdan UNESKO ilə sıx əməkdaşlıq münasibətləri qurub və təşkilatın fəaliyyətinə öz töhfəsini verib. 2013-cü ildə UNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasına uğurla evsahibliyi edən Azərbaycanda eyni müvəffəqiyyətlə hər iki ildən bir UNESKO-nun rəsmi tərəfdaşlığı ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasında qəbul edilmiş qərara əsasən Azərbaycan bu mötəbər qurumun növbəti sessiyasına evsahibliyi etmək hüququ qazanıb.

UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının açılış mərasimində respublikamızın Birinci vitse-prezidenti, UNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva çıxışında ölkəmizlə bu təşkilat arasında ötən 27 ildə uğurlu əlaqələrin qurulduğunu bildirdi, o cümlədən ümumdünya və milli irsin qorunmasının Azərbaycanda dövlət siyasətinin prioritetini təşkil etdiyini qeyd etdi. Mehriban xanım diqqətə çatdırdı ki, son 5 ildə ölkəmizdə 40 tarixi abidə bərpa edilib və yenidən qurulub. İçərişəhər, Şirvanşahlar sarayı, Qız qalası, Qobustan qaya rəsmləri UNESKO-nun Dünya İrs Siyahısına daxil edilib. Musiqi xəzinəmizin inciləri olan muğam və aşıq sənətimiz də bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil olunub. Həmçinin Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin işğal edildiyini, 1 milyon soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyini, yüzlərlə tarixi və memarlıq abidəsinin dağıdıldığını tədbir iştirakçılarının diqqətinə çatdırıb.

UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının ölkəmizdə keçirilməsi mühüm hadisədir. Tədbirin yüksək səviyyədə təşkili bir daha təsdiqlədi ki, artıq Azərbaycan dünyanın istənilən regionunda təşkil edilə biləcək tədbirlərin təşəbbüskarı ola bilir.

***Jalə ƏLİYEVA,***
***Milli Məclisin mədəniyyət komitəsi sədrinin müavini***

# Alternativsiz daxili və xarici siyasət

## *Azərbaycanın müstəqilliyi ildən-ilə möhkəmlənir*

**Beynəlxalq aləmdə siyasi gündəm qazan kimi qaynayır. İstər ölkə içində, istərsə də xaricdə Azərbaycanın uğurları və ağrıları ilə bağlı müzakirələr aparılır, müxtəlif səviyyələrdə ölkəmizin çağdaş durumuna münasibət bildirilir. Bundan başqa, xarici dövlətlərin yüksək rütbəli təmsilçiləri də davamlı olaraq Azərbaycana gəlirlər, ölkəmizlə münasibətlərin perspektivlərini müzakirə edirlər. Bu isə ondan xəbər verir ki, Azərbaycana maraq ildən-ilə artıb, dünyanın hər tərəfindən gözlər bizə dikilib, hər kəs bizimlə yaxın olmaq, masa arxasına oturmaq istəyir.**



Bu, yaxşı göstəricidir: Azərbaycan artıq bir zamanların ehtiyac içində olan ölkəsindən ehtiyac duyulan ölkəyə çevrilib. Bizim hər birimiz müstəqilliyin ilk illərində, özəlliklə də iç qarışıqlıq dönəmində ələbaxan, hər yerdən yardıma ehtiyac duyan bir toplum olduğumuzu xatırlayırıq. İndi isə bunun tam əksidir. Azərbaycana nəinki qonşu dövlətlər, uzaq Avropa, ABŞ və bəzən, hətta Şərqi Asiya, Afrika ölkələri belə ehtiyac duyur, bizimlə bərabərhüquqlu münasibətlərə can atır. Belə bir duruma gəlməyimiz nədən qaynaqlanır və ümumiyyətlə, bu əlverişli durum Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində bizə nə verə bilər?

Azərbaycanın ehtiyacı olan ölkədən ehtiyac ödəyən ölkəyə çevrilməsi, heç şübhəsiz ki, təməlləri ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş, sonrakı mərhələdə Prezident İlham Əliyev tərəfindən uğurla gerçəkləşdirilməkdə olan uzaqgörən strategiyaya söykənir. Bu strategiya elə dəqiqliklə işlənib hazırlanmışdır ki, gərək duyulduğunda onun zamana uyğunlaşdırılması--yenilənməsi və sürətlə həyata keçirilməsi istənilən ölkənin uğurunun açarı ola bilər. İlham Əliyevin mahir liderliyi, uzaqgörən siyasəti vaxtında və dərindən mənimsəməsi, eyni zamanda, başçılıq etdiyi ölkənin ləyaqətini və yalnız öz xalqının iradəsini hər şeydən uca tutması bugünkü əlverişli duruma gəlməyimizin əsas şərtlərinin önündə gedir.

Müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin qətiyyət və uzaqgörənliyi hesabına bugün sayılıb-seçilən, iradəsilə hesablaşılan dövlətə çevrilib. Bizim dövlətimiz dünyanın ən böyük gücləri ilə belə bərabərhüquqlu tərəf kimi masa arxasında oturanda sıxıntı hiss etmir, özünü ikinci kateqoriyalı ölkə kimi görmür. İstər ABŞ, istərsə də Rusiya kimi qlobal güclərin təmsilçiləri Prezident İlham Əliyevlə masa arxasında, mötəbər məclislərdə, hətta ayaqüstü görüşlərində mütləq yüksək saygı göstərirlər, onunla qısamüddətli də olsa, dialoqa can atırlar.

Avropa Birliyinin, Avropa Şurasının, ATƏT-in rəsmiləri, eləcə də Avropanın ən aparıcı dövlətləri olan Almaniya, Fransa, Böyük Britaniya təmsilçiləri Azərbaycanla, onun lideri ilə işbirliyinə hər zaman önəm verirlər, ölkəmizi özlərinin əvəzolunmaz tərəfdaşı kimi görürlər. Bütün bunlarsa, yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycanın, hər şeydən öncə, özünə və sözünə hörmət edən dövlət olmasından, həmçinin ölkə başçısı İlham Əliyevin şəxsi xarizmasından qaynaqlanır.

Dövlətimiz, onun lideri dünyanın bu qarışıq vaxtında belə qarşıduran, münaqişədə olan tərəflərin hər biri ilə münasibətlərinin yüksək səviyyəsini qoruyub saxlamağı bacarır. ABŞ və Avropa Birliyinin davamlı üstünə gəldiyi, sanksiyalar tətbiq etdiyi qonşu Rusiya ilə münasibətlərimiz bütün bu proseslərdə zərrə qədər də zədə görməyib. Yaxud da Qərbin uzun illərdir ki, küncə sıxdığı Güney qonşumuz İranla münasibətlər də ən yaxşı səviyyədədir. Eləcə də qardaş Türkiyə ilə münasibətlərimizə heç bir qüvvə sərinlik gətirə bilmir və ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" formulu uzaqgörənliyi və gerçəkliyi ilə misilsiz bir həmrəyliyi əks etdirir.

Azərbaycan Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dönəmində uzunmüddətli demokratiya və müstəqillik təcrübəsi olan bir çox dövlətlərin başçılarının bəzən bacarmadığı balanslı siyasəti ilə artıq dünyada bir modelə çevrilib. Dünyanın hər tərəfində siyasi texnoloqlar, ayrı-ayrı fikir mərkəzləri dövlətimizin bu yöndə əldə etdiyi uğurları diqqətlə öyrənir, təhlil edir. Doğrudan da, ABŞ və Avropa Birliyinin timsalında Qərblə uzunmüddətli qarşıdurma şəraitində olan Rusiya, İran və qardaş Türkiyə ilə münasibətlərin yüksək səviyyəsini qoruyaraq birincilərlə də eyni səviyyədə işbirliyini davam etdirməyi bacarmaq çox fərqli dövlətçilik və liderlik təcrübəsi tələb edir.

Bu gün Azərbaycan ABŞ-la Avropa Birliyinin Rusiya, İran və Türkiyə ilə gərgin münasibətlərində tərəf tutmur, sonuncularla münasibətlərini birincilərin münasibətilə şərtləndirmədən öz müstəqil siyasətini yürütməyi bacarır. Düzdür, ABŞ və Avropa Birliyi istərdi ki, Azərbaycan qonşu Gürcüstan və Ukrayna kimi məhz onların sırasında yer alsın. Yaxud da Rusiya istərdi ki, Azərbaycan da son vaxtlara kimi onun könüllü vassallığını etmiş Ermənistan kimi sözəbaxan olsun. Lakin Prezident İlham Əliyevin düzgün strateji xətti və taktiki gedişləri bizə münasibətdə bütün tərəfləri zərərsizləşdirmiş, bəzilərini də rəqibdən dosta çevirmişdir.

Söz Ermənistandan düşmüşkən, Azərbaycanın yürütdüyü balanslı və bərabərhüquqlu siyasət, eləcə də işğalçı dövlətlə bağlı apardığı ifşaedici siyasət də öz bəhrəsini vermişdir. Prezident İlham Əliyevin illərdir ki, Ermənistanı idarə edənlərin kriminal ünsürlər olması haqqında səsləndirdiyi fikirlər həmin ölkəyə hazırda başçılıq edən siyasi qüvvə tərəfindən tez-tez dilə gətirilir, rəsmən təsdiqini tapır. Bu isə ona səbəb olur ki, Azərbaycanın haqlı mövqeyinə az-çox şübhə edənlər də bizə saygılı yanaşmağa məcbur olur. Elə o səbəbdən də Avropa Birliyi, ATƏT, AŞPA kimi beynəlxalq qurumlar qəbul etdiyi hesabat və qərarlarda Azərbaycanın ərazi bütövlüyü məsələsində birmənalı mövqe sərgiləməli olur.

Azərbaycanın düzgün taktikası Ermənistanı təkcə bu məsələdə deyil, üzvü olduğu bir sıra beynəlxalq qurumlarda da əlverişsiz duruma salır. Azərbaycan üzv olmadığı təşkilatlarda da Ermənistanı tamhüquqlu üzvü olduğu həmin qurumlarda küncə sıxa bilir.

Rusiyanın əsas söz sahibi olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında Ermənistanın başına gələnlər o örnəklərdən biridir. Yaxud da Avrasiya İqtisadi Birliyində Ermənistanın arxa plana itələnməsi daha bir örnəkdir. Azərbaycan o qurumlardan heç birinin üzvü deyil. Lakin hər iki qurumda Ermənistanın deyil, bizim sözümüz keçir. Yenə də Prezident İlham Əliyevin şəxsi münasibətləri, ciddi diplomatiyası, mahir siyasətçi və müdrik dövlət başçısı olması hesabına.

Bütün bunlar onu deməyə əsas verir ki, ölkəmiz 2019-cu ildə ən ağrılı problemi olan Ermənistanla münaqişənin həllində daha üstün mövqeyə yüksəlib. Dünyanın, özəlliklə də Azərbaycanla yeni işbirliyinə can atan beynəlxalq güclərin mövqeyi bizim xeyrimizə dəyişib. Yuxarıda da qeyd etdiyimiz kimi, ehtiyac içində olan ölkədən ehtiyac duyulan ölkəyə çevrilməyimiz bizə münasibəti və baxışları da kökündən dəyişib. Bu isə istənilən məsələnin həllində xeyrimizə olan çox ciddi faktordur. İndi Azərbaycan Rusiyanın, İranın heç cür və heç nəyin hesabına vaz keçmək istəmədiyi bir dövlət olmaqla bərabər, Avropanın, ABŞ-ın daha sıx münasibətlər qurmağa, öz yanında görməyə can atdığı ölkədir.

Belə bir statusu qazanmaq çətin olsa da, Prezident İlham Əliyev özünün uzaqgörən və məqsədyönlü siyasəti ilə bunu bacarmış, tarixə öz liderlik möhürünü vurmuşdur. Biz bura hələ onun Azərbaycanın yaxın coğrafiyadakı qanlı münaqişələrdən kənarda qalmağı bacarmasını, eyni zamanda, ölkə içində dayanıqlı sabitliyi daha da möhkəmləndirməsini də əlavə edə bilərik.

Bir sözlə, Azərbaycan lideri istər daxili, istərsə də xarici siyasətdə son 16 ildə formalaşdırdığı tarazlı yanaşma modelinin alternativsizliyini əməli nəticələrlə dönə-dönə sübuta yetirir.

**Azər HƏSRƏT,**
**Azərbaycan Mətbuat Şurası idarə heyətinin üzvü, Əməkdar jurnalist**

***Son illərdə Azərbaycan ilə Fransa arasında siyasi, iqtisadi, mədəniyyət və digər sahələrdə ikitərəfli əlaqələr daha da genişlənib. Şübhəsiz ki, sıx münasibətlərin qurulmasında müxtəlif səviyyələrdə qarşılıqlı səfərlər də böyük rol oynayıb. Bu baxımdan Fransa Sahibkarlar Təşkilatına – MEDEF-ə üzv olan şirkətlərin nümayəndə heyətinin ölkəmizə səfəri mühüm önəm daşıyır. Prezident İlham Əliyev MEDEF-ə üzv olan şirkətlərin nümayəndələri və Birinci vitse-prezident Mehriban Əliyevanın həmin təşkilatın rəhbəri Jofrua Ru de Beziö ilə görüşlərində də bu barədə ətraflı danışılıb.***

# Azərbaycan – Fransa əməkdaşlığı yüksələn xətt üzrə inkişaf edir



Dövlətimizin başçısı bu səfərin tərəfdaşlığımızın çox yaxşı nümunəsi olduğunu, fransız şirkətləri tərəfindən Azərbaycana böyük maraq göstərildiyini, müxtəlif layihələrdə iştirakın artıq reallaşdığını diqqətə çatdırıb.

Prezident İlham Əliyev, həmçinin respublikamızda cari ilin ötən aylarında əldə edilən iqtisadi göstəricilərə nəzər salaraq deyib: "Qeyri-enerji sektoru 3 faizdən çox artıb və kənd təsərrüfatında bu il rekord həcmdə, təxminən 13 faiz artım olub. Qeyri-enerji sənayesində isə artım təxminən 15 faiz təşkil edir. Bu, onu göstərir ki, şaxələndirmə yaxşı nəticələr verir".

Dövlətimizin başçısı, eyni zamanda, yerli və xarici şirkətlərin fəal iştirakı ilə Azərbaycanın öz məqsədlərinə çatacağına əmin olduğunu da bildirib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransa Sahibkarlar Təşkilatı–MEDEF Biznes Şurasının prezidenti Jofrua Ru de Beziö ilə görüşündə son illərdə respublikamızla Fransa arasında uğurlu əməkdaşlığın qurulduğunu xatırladıb, bu əməkdaşlığın bir çox sahələri əhatə etdiyini bildirib, siyasi, iqtisadi, humanitar əlaqələrin iki ölkə arasında əməkdaşlığın inkişafını sürətləndirdiyini vurğulayıb.

Yeri gəlmişkən, indiyədək Fransa şirkətləri Azərbaycan iqtisadiyyatına 2,2 milyard ABŞ dolları, Azərbaycan isə bu ölkəyə 2,6 milyard dollar investisiya yatırıb.

Respublikamızda 45 Fransa şirkəti fəaliyyət göstərir. Həmin şirkətlər ölkə büdcəsindən reallaşdırılan və dəyəri 6,2 milyard dollar olan 34 layihədə podratçı qismində iştirak edib.

Azərbaycanla Fransanın ticarət dövriyyəsi də getdikcə artır. Cari ilin ilk 5 ayında iki ölkənin ticarət dövriyyəsi 53 faiz artıb. Fransanın Cənubi Qafqaz üzrə ticarət dövriyyəsinin 62,4 faizi Azərbaycanın payına düşüb.

Qərbin aparıcı, inkişaf etmiş, Avropa İttifaqının lider dövlətlərindən biri olan Fransa Azərbaycanla enerji sahəsində fəal əməkdaşlıq edir. "Total" şirkəti "Əsrin müqaviləsi"nin əvvəlindən bu neft müqaviləsində yer alıb.

Azərbaycan meqalayihə olan Cənub Qaz Dəhlizinin reallaşmasında həlledici tərəfdaşdır, təşəbbüskar dövlətdir. Artıq bu layihənin "Şahdəniz", TANAP və Cənubi Qafqaz Boru Kəməri komponentləri gerçəkləşdirilib. TAP layihəsinin reallaşması isə bu ilin sonlarına nəzərdə tutulur.

Bütün bunlar onu göstərir ki, Azərbaycan hazırda Avropa üçün yeni alternativ enerji mənbəyinə çevrilib. Avropanın ildə təxminən 500 milyard kubmetr qaza ehtiyacı var. Onun təxminən 150 milyard kubmetrini Rusiya ödəyir. Azərbaycan yeni alternativ mənbə kimi ilkin mərhələdə 16 milyon kubmetr qaz ixrac etməyi planlaşdırır, onun da 10 milyard kubmetri məhz Avropa üçün nəzərdə tutulub. Bu baxımdan Azərbaycan Avropa üçün çox yaxın tərəfdaşdır.

Rəsmi Parisin Azərbaycanla münasibətlərində diqqətçəkən daha bir məqam kosmik sahədə mövcud əməkdaşlıqdır. Azərbaycan kosmik peyklərinin orbitə məhz Fransanın kosmodromundan çıxarılması bunun bariz ifadəsidir.

İki ölkə arasında iqtisadi münasibətlərdən danışarkən, hazırda respublikamız üçün xüsusi önəm daşıyan "Azərbaycan Mərkəzi Bankı ilə "Rotchild & Cie" bankı arasında strateji əməkdaşlıq haqqında saziş", Azərbaycan Respublikası ilə Fransa İnkişaf Agentliyi arasında "Dəmir yolu sektorunun inkişafı proqramı çərçivəsində Şimal-Cənub nəqliyyat dəhlizinin Sumqayıt-Yalama dəmir yolu xəttinin yenidən qurulmasına dair konvensiya", "Əməliyyat Nəzarəti Mərkəzinin yaradılmasına dair araşdırma müqaviləsi" və "Xocasən" deposunun siqnalizasiya və telekommunikasiya sisteminin reallaşdırılmasına dair müqavilə" və digər sənədlərin uğurla reallaşdırıldığını da xatırlada bilərik.

Bu gün ölkəmizdə ərzaq təhlükəsizliyi, əhalinin yüksək keyfiyyətli ərzaq məhsulları ilə təmin olunması vacib prioritetlərdən biridir. Aqrar sahədə innovasiyalardan istifadə, kənd təsərrüfatı işçiləri ilə yaxınlıq və yaxşı idarəçilik bu sahədə aparılan islahatların başlıca prinsipləridir.

Azərbaycanın Fransa ilə əməkdaşlığında bu məqamlar, ümumiyyətlə, aqrar məsələlər xüsusi yer tutur. Elə buna görə də son dövrlər iki ölkə arasında kənd təsərrüfatı sahəsində memorandum, həmçinin baytarlıq fəaliyyəti ilə bağlı protokol imzalanıb, aqrar sektorda müvafiq tədqiqatların aparılması, təcrübə mübadiləsi, habelə innovativ texnologiyalardan istifadə ilə bağlı tədbirlərin həyata keçirilməsi intensivləşib.

İki ölkə arasında humanitar sahədə də əməkdaşlıq yüksək səviyyədə inkişaf edir. Azərbaycanın 300-dən çox məktəbində fransız dili tədris olunur. Bundan əlavə, Azərbaycan Dillər Universitetində Fransız Dili və Ədəbiyyatı Mərkəzi, Bakı Slavyan Universitetində Fransız Dili Mərkəzi, Bakı Fransız Liseyi və Fransız-Azərbaycan Universiteti uğurla fəaliyyət göstərir. Bütün bunlar isə Azərbaycan-Fransa əməkdaşlığının yüksələn xətt üzrə inkişaf etməsindən xəbər verir.

**V.BAYRAMOV,**
**"Xalq qəzeti"**

# Avropa İttifaqı ölkəmizin HAQLI MÖVQEYİNİ DƏSTƏKLƏYİR

**Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı müstəqillik illərində başlayıb. Ancaq qısa müddət ərzində ölkəmiz özünü etibarlı tərəfdaş kimi tanıdıb, Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayıb. Hazırda Azərbaycan–Avropa İttifaqı əlaqələri konstruktiv məcrada davam edir. Əməkdaşlığımız əsasən enerji təhlükəsizliyi, nəqliyyat sektoru və bir sıra digər layihələri əhatə edir. Cənub Qaz Dəhlizi layihəsi uğurla həyata keçirilir. Şərq-Qərb və Şimal-Cənub dəhlizləri ölkəmizin ərazisindən keçir. Azərbaycan mühüm tranzit ölkəyə çevrilir. Avropa İttifaqına üzv olan bir neçə ölkə ilə strateji tərəfdaşlığa dair sənədlər imzalamışıq.**



Hesab edirik ki, Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü bu əməkdaşlığın daha yüksək səviyyəyə qalxmasına, Aİ ilə Azərbaycan arasında hazırlanan yeni sazişin tezliklə imzalanmasına kömək edəcək. Prezident İlham Əliyevin cənab Tuskla danışıqlarını çox maraqla izlədik. Dövlət başçımız Aİ ilə danışıqların uğurla davam etdiyini, bir çox məsələlərin artıq öz həllini tapdığını bildirdi. Öyrəndik ki, hazırda digər məsələlər üzərində iş aparılır. Ötən il Avropa Komissiyası ilə Azərbaycan arasında "Tərəfdaşlıq prioritetləri" adlı sənəd qəbul olunub və burada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək ifadə olunub.

Təbii ki, Azərbaycan cəmiyyəti bu məsələdə çox həssasdır. Kimsə Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi haqqında bəyanat verirsə, bu, ictimaiyyətdə razılıqla qarşılanır. Prezident Tusk da təmsil etdiyi təşkilat adından belə bir mövqe ortaya qoydu. Bu, Azərbaycana qarşı dost mövqeyidir.

Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli də müzakirə olunub. Dövlət başçımız Azərbaycanın haqlı mövqeyini çatdıraraq deyib ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır, status-kvo dəyişməlidir. Cənab Tuskun bu mövqeyi dəstəkləməsi münaqişənin ədalətli həllinə ümidləri artırır. Azərbaycanın istədiyi də problemə ədalətli yanaşmadır.

***Əfrahim TƏHMƏZOV,***
***ehtiyatda olan ədliyyə polkovniki, Əfqanıstan müharibəsinin veteranı, Rusiya və Azərbaycan Jurnalistlər birliklərinin üzvü***

# Mədəniyyətimizə beynəlxalq miqyasda verilən dəyərin daha bir nümunəsi

**UNESKO-nun Bakıda keçirilən sessiyasında Azərbaycanın "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" adlı nominasiyasının bu beynəlxalq təşkilatın UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi qürurverici hadisədir. Dünyanın müxtəlif ölkələrindən 2500-dən çox nümayəndənin qatıldığı belə mötəbər tədbirdə respublikamızın bu uğuru bir daha dövlətimizin yüksək səviyyədə gerçəkləşdirdiyi siyasətə dəstəyin məntiqi ifadəsidir.**

Dövlətimizin başçısı İlham Əliyev bu münasibətlə xalqımıza təbrikində bildirib ki, Azərbaycanın mədəni irsinin dünya səviyyəsində tanıdılması və qorunması istiqamətində son illər ərzində çoxsaylı layihələr həyata keçirilib. Bu, beynəlxalq təşkilatlarla, xüsusən dünya mədəniyyəti, təhsili və elminə məsul olan UNESKO ilə sıx əməkdaşlıq şəraitində reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, İçərişəhər, Qız qalası və Şirvanşahlar Saray Kompleksi, Qobustan Qaya Sənəti Mədəni Landşaftı UNESKO-nun Ümumdünya İrs Siyahısında, həmçinin xalqımızın qeyri-maddi mədəni irsinin 13 nümunəsi UNESKO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısında yer alıb.

Əlbəttə, bütün bunlar xalqımızın ümumbəşər mədəniyyətinə verdiyi töhfənin beynəlxalq miqyasda yüksək dəyərləndirilməsi ilə bərabər, həm də dövlətimizin milli-mənəvi dəyərlərimizin, tarixi-mədəni irsimizin qorunması və təbliğində, həmçinin beynəlxalq səviyyədə dünya irsinin müdafiəsi və mühafizəsinə dəstək olmaqda göstərdiyi diqqətin bariz təzahürüdür.

Ümummilli lider Heydər Əliyev hakimiyyəti illərində mədəniyyətimizin, milli-mənəvi sərvətimizin qorunması istiqamətində mühüm addımlar atıb, varlığımızın, milli kimliyimizin, milli-mənəvi dəyərlərimizin bütün dünyada tanıdılmasını diqqət mərkəzində saxlayıb. Bu siyasət son dövrdə Prezident İlham Əliyev, eləcə də Birinci vitse-prezident, UNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva tərəfindən də uğurla davam etdirilib. Mehriban xanımın uğurlu fəaliyyəti nəticəsində İçərişəhər, Qız qalası, Şirvanşahlar Saray Kompleksi, Qobustan Qaya Sənəti Mədəni Landşaftı, milli-mənəvi dəyərlərimizdən olan muğam sənəti, Novruz ənənələrimiz, aşıq, misgərlik, kəlağayı və xalça sənəti UNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib. Tədbirlərin bir çoxu UNESKO çərçivəsində qeyd edilib.

Bütün bunlar isə milli mədəniyyətimizin, tarixi irsimizin nadir incilərinin qorunub saxlanması, dünyada tanıdılması və təbliği istiqamətində ardıcıl və sistemli siyasət aparıldığını göstərir. Böyük İpək yolu üzərində yerləşən Şəki şəhərinin tarixi hissəsinin və Şəki Xan Sarayının UNESKO-nun Ümumdünya İrs Siyahısına salınması da həmin siyasətin parlaq ifadəsi, bu diyarın sakinlərinin bacarıqlarına verilmiş ən ali qiymətdir.

**Zaur MİRZƏZADƏ,**
**"Dünya Azərbaycanlıları" İctimai Mərkəzinin sədri**



*Konstitusiya Məhkəməsinin simasında milli dövlətçiliyimizi, Konstitusiyaya əsaslanan hüquq qaydasını, ən əsası isə insan və vətəndaş hüquq və azadlıqlarını həqiqətən müdafiə edən mötəbər təsisata malikik.*

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

# Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi qanunçuluğun müdafiəsində mühüm rol oynayır

*(əvvəli 1-ci səhifədə)*

1995-ci ildə Əsas Qanunun qəbulu ölkədə genişmiqyaslı qanunvericilik islahatlarının həyata keçirilməsinə təkan verərək digər bir çox sahələrdə olduğu kimi, məhkəmə–hüquq islahatlarının da əsasını qoydu.

Hüquqi dövlətin təməlini qanunların aliliyinin təmin olunması, o cümlədən insan hüquqlarının və azadlıqlarının müdafiəsi təşkil edir. Bu baxımdan bu və ya digər ölkənin demokratik inkişafı üçün Konstitusiyanın qəbul edilməsi ilə yanaşı, onun aliliyinin təmin olunması, dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin konstitusiya prinsipləri çərçivəsindən kənara çıxmaması üçün konstitusiya nəzarəti institutunun yaradılması da olduqca vacib idi.

Fəaliyyətə başladığı gündən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ölkə Konstitusiyasının aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etmək kimi ali məqsədə xidmət etmiş və üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışmışdır. Bu illər ərzində Konstitusiya Məhkəməsi Azərbaycanda hüquqi, dünyəvi dövlət quruculuğu prosesində fəal iştirak edərək ölkəmizdə konstitusionalizm ideyalarının həyata keçirilməsinə, hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişafına, hər kəsin Konstitusiyaya və qanunlara hörmət və ehtiramının, ədalət, azadlıq və humanizm kimi prinsiplərin möhkəmləndirilməsinə töhfələr vermişdir.

Qeyd edilməlidir ki, müasir dövrdə konstitusiya ədalət mühakiməsi hüququn aliliyinin təmin olunmasının mühüm və səmərəli mexanizmlərindən biri, eyni zamanda, demokratik dəyərlərin hakim olduğu hüquqi dövlətin ayrılmaz atributlarından biri kimi qəbul olunur.

Bu gün məhkəmə sistemi vətəndaş cəmiyyətinin və beləliklə də, hüquqi dövlətin inkişafında özünəməxsus və əvəzedilməz rol oynayır. Şübhəsiz ki, Konstitusiya ilə məhkəmələrin üzərinə düşən vəzifələrin qanunvericiliklə müəyyən edilmiş qaydada effektiv şəkildə həyata keçirilməsi son nəticədə cəmiyyətin dövlətimizin adından qəbul edilən məhkəmə aktlarına etimadının gücləndirilməsi üçün xüsusi zəmin yaradır.

Ümumilikdə, müasir dövrdə məhkəmə hakimiyyətini cəmiyyətdə cərəyan edən proseslərdən təcrid edilmiş şəkildə təsəvvür etmək qeyri-mümkündür. Şübhəsiz ki, bu proseslər mütərəqqi xarakterli olduqda onların digər sahələrə, o cümlədən məhkəmə sisteminə şamil edilməsi yalnız müsbət nəticələr verə bilər.

Biz hamımız onun şahidiyik ki, ölkəmizdə bütün sahələrdə ən qabaqcıl yanaşmalar tətbiq olunur və bu gün Azərbaycan dünya birliyinin inkişaf etmiş tamhüquqlu üzvü kimi qəbul edilir. Dövlət başçısı cənab İlham Əliyev tərəfindən ölkəmizdə ayrı-ayrı sahələrdə müasir ideyaların tətbiqinə hər zaman dəstək verilir, bir çox sahələrdə olduğu kimi, məhkəmə sisteminin də müasirləşdirilməsi prosesi cəmiyyətin inkişafına adekvat olaraq uğurla həyata keçirilir.

Məhkəmə–hüquq sisteminin müasir və mütərəqqi prinsiplər əsasında təkmilləşdirilməsindən bəhs edərkən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan “Məhkəmə–hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 2019-cu il 3 aprel tarixli Fərman ədalət mühakiməsinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması üçün olduqca mühüm addım olduğu vurğulanmalıdır. Bu fərman dövlətimizin başçısının məhkəmə hakimiyyətinə verdiyi müstəsna əhəmiyyətin növbəti təzahürü olaraq həyata keçirilən məhkəmə–hüquq islahatlarının mühüm tərkib hissəsi olmaqla, bu sahədə islahatların dərinləşdirilməsini, yeni inkişaf mərhələsində müasir çağırışlara uyğun davam etdirilməsini şərtləndirir.

Fərman məhkəmə sistemində islahatların aparılması və müasir texnologiyaların tətbiqinin vacibliyini bəyan etməklə, məhkəmələr üçün ədalətlilik, qərəzsizlik, süründürməçiliyə yol verilməməsi, aşkarlıq, şəffaflıq kimi mühüm prinsiplərin daim aktual olduğunu bir daha vurğulayıb.

Vətəndaşların hüquq və azadlıqlarının məhkəmə müdafiəsinin daha etibarlı təmin olunmasına, məhkəmə hakimiyyətinin nüfuzunun artırılmasına, ədalət mühakiməsinə ictimai etimadın yüksəldilməsinə xidmət edən fərmanda məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, işlərə baxılmasının keyfiyyətinin artırılması, əhaliyə daha çevik, asan və alternativ xidmətlərin göstərilməsi qarşıya vəzifə kimi qoyulmuşdur.

Əminliklə demək olar ki, dövlətimizin başçısının imzaladığı bu fərman ədalət mühakiməsi prosesində keyfiyyətcə yeni və cəmiyyət üçün çox vacib yanaşmaların tətbiqinə mühüm təkan verəcəkdir.

Konstitusiya Məhkəməsinin fəaliyyətindən bəhs edərkən qeyd edilməlidir ki, məhkəmənin əsas səlahiyyətləri Konstitusiyanın 130-cu maddəsində əksini tapmışdır.

Qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarının, bələdiyyə və məhkəmə aktlarının Konstitusiyaya və hüquqi qüvvəsinə görə daha üstün olan aktlara uyğunluğunun yoxlanılması Konstitusiya Məhkəməsinin əsas səlahiyyətlərindən biridir. Bu səlahiyyəti vasitəsilə Konstitusiya Məhkəməsi Konstitusiyanın və qanunların aliliyini təmin etmiş olur. Burada mühüm məqam ondan ibarətdir ki, yoxlanılan norma məhz Əsas Qanunun hərfinə və ruhuna, onun təməl prinsiplərinə uyğunluq baxımından qiymətləndirilir və Konstitusiya ilə uyğunsuzluq təşkil etdiyi halda qüvvədən salınmış normalar qanunvericilik sistemindən kənarlaşdırılmış olur.

Konstitusiya Məhkəməsinin mühüm səlahiyyətlərindən biri Konstitusiya və qanunların şərh edilməsidir. Burada əsas məqsəd bu və ya digər normanın məzmununu aydınlaşdırmaqla, onun vahid tətbiqi qaydasını müəyyən etməkdir. İnsan hüquq və azadlıqlarının həyata keçirilməsi ilə bağlı qanunvericilik müddəalarının bəzən birmənalı dərk edilməməsi mübahisəli hüquq məsələlərinin məhkəmələr tərəfindən həlli zamanı müxtəlif kolliziyaların ortaya çıxmasına səbəb olur. Bu isə son nəticədə vətəndaşların hüquqlarının və azadlıqlarının, qanuni mənafelərinin müdafiəsinin dövlət təminatını zəiflədən hüquqtətbiqetmə təcrübəsinin yaranmasına gətirib çıxarır.

Qeyd edilməlidir ki, Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən qəbul edilmiş qərarlar sırasında məhkəmələrin müraciətləri əsasında Konstitusiya və qanunların şərhinə dair çıxarılmış qərarlar xüsusi çəkiyə malikdir. Ümumiyyətlə, Konstitusiya Məhkəməsi hər zaman digər məhkəmələrlə qarşılıqlı əməkdaşlıq çərçivəsində fəaliyyət göstərir. Son dövrlərdə Konstitusiya Məhkəməsinə məhkəmələr tərəfindən edilən müraciətlər məhkəmələrin daha ədalətli və əsaslandırılmış qərarlar qəbul etməsi zərurətindən irəli gəlir. Belə ki, məhkəmələrin müraciətləri əsasında qəbul edilmiş qərarlar qanunvericilikdə mövcud olan qeyri-müəyyənliklərin aradan qaldırılmasına şərait yaratmaqla, hüquqi müəyyənlik prinsipinin təmin edilməsi baxımından ümumi məhkəmə təcrübəsinin formalaşmasına mühüm töhfə verir.

Konstitusiya Məhkəməsi Plenumunun qərarlarının, xüsusilə də bu qərarlarda ifadə olunan hüquqi mövqelərin məhkəmələr tərəfindən birmənalı tətbiqi məhkəmə təcrübəsinin stabilliyinə, eyni zamanda, Konstitusiya Məhkəməsi Plenumunun qərarlarının məcburiliyi barədə qanunvericiliyin tələblərinin yerinə yetirilməsinə xidmət edir və nəticə etibarilə hüquqtətbiqetmə təcrübəsinin təkmilləşdirilməsi baxımından vacib əhəmiyyətə malikdir.

Konstitusiya Məhkəməsinin səlahiyyətlərindən bəhs edərkən fərdi şikayətləri xüsusilə qeyd etmək lazımdır. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə 2002-ci ildə keçirilmiş konstitusiya islahatlarından və 2004-cü ildə “Konstitusiya Məhkəməsi haqqında” yeni Qanunun qüvvəyə minməsindən sonra Konstitusiya Məhkəməsində fərdi şikayətlər institutu fəaliyyətə başladı. Bu gün təcrübə onu göstərir ki, fərdi şikayət institutu Konstitusiyanın aliliyinin təmin edilməsinin səmərəli vasitələrindən biri kimi insan hüquq və azadlıqlarının müdafiəsi baxımından kifayət qədər faydalı və effektiv imkanlar yaradır.

Konstitusiya Məhkəməsinə hər hansı bir formada, o cümlədən məhkəmənin rəsmi internet səhifəsi vasitəsilə elektron şəkildə göndərilən şikayət, ərizə və məktublara diqqətlə baxılır, araşdırılaraq müvafiq qaydada cavablandırılır.

Xüsusilə qeyd olunmalıdır ki, bu günlərdə Konstitusiya Məhkəməsinin Plenumu özünün 400-cü qərarını qəbul edib.

Keçən fəaliyyət ili ərzində plenum tərəfindən sorğu, müraciət və konstitusiya şikayətləri əsasında bir sıra mühüm qərarlar qəbul edilmişdir. Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında qəbul edilmiş “Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinin Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi baxımından şərh edilməsinə dair” 2019-cu il 18 mart tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu əvvəlki qərarlarında ifadə edilmiş hüquqi mövqelərə istinad edərək qeyd etmişdir ki, hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir. Məhkəmə işin gedişində təqdim olunmuş ancaq o sübutları qəbul edir və nəzərə alır ki, onlar işdə tərəflərin tələblərini müəyyən edən faktlarla və hallarla əlaqədardır. Qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

Həmin qərarında plenum belə nəticəyə gəlmişdir ki, mülki məhkəmə icraatında Konstitusiyanın 125-ci maddəsinin VII hissəsinin “Məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir” müddəası Konstitusiyanın 127-ci maddəsinin II, IV və VII hissələrində, 129-cu maddəsinin III hissəsində təsbit olunmuş ədalət mühakiməsinin çəkişmə, tərəflərin bərabərliyi, faktlar əsasında və qanuna müvafiq keçirilməsi, məhkəmə qərarının qanuna və sübutlara əsaslanmasına dair ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri ilə əlaqəli şəkildə tətbiq olunmalıdır.

Mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatı zamanı məhkəmələr ədalət mühakiməsini çəkişmə və tərəflərin bərabərliyi prinsipinə riayət etməklə, tərəflərin təqdim etdiyi sübutlar və faktlar əsasında həyata keçirməli, öz qərarlarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, təqdim etdikləri və Mülki Prosessual Məcəllənin tələblərinə müvafiq olaraq əldə edilmiş sübutlarla əsaslandırmalı, həmin sübutların araşdırılmasından irəli gələn həqiqəti müəyyən etməlidir.

Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında qəbul edilmiş “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.10.1-ci, 92.10.3-cü və 244.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair” 2019-cu il 28 mart tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu hüquqi yardım almaq hüququ ilə bağlı qeyd etmişdir ki, hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun ictimai əhəmiyyəti ondan ibarətdir ki, bu hüquq öz mahiyyətinə görə insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsinin vacib təminatıdır. Bu hüququn funksiyalarından biri olan preventiv funksiya nəinki şəxsin öz hüquq və azadlıqlarını qanuna uyğun həyata keçirməsinə kömək edir, həmçinin dövlət hakimiyyəti orqanlarının və onların vəzifəli şəxslərinin insan və vətəndaş hüquq və azadlıqlarının qeyri-qanuni məhdudlaşdırılmasına yönəlmiş hərəkətlərinin qarşısının alınmasına zəmanət verir.

Bu qərarda vurğulanmışdır ki, şübhəli və ya təqsirləndirilən şəxsin qanuni mənafeyinin qorunması üçün müdafiəçi müdafiə etdiyi şəxsin iştirakı ilə aparılan prosessual hərəkətlərdə iştirak etməklə öz prosessual vəzifələrini yerinə yetirir. Cinayət prosesində müdafiəçinin qanunvericiliklə nəzərdə tutulmuş prosessual hüquqlarının və vəzifələrinin həyata keçirilməsinin təmin edilməsi son nəticədə ədalət mühakiməsinin həyata keçirilməsinə mühüm töhfə kimi çıxış edir.

Konstitusiya Məhkəməsinin Plenumu, həmçinin qeyd etmişdir ki, istintaq və ya digər prosessual hərəkətlərdə müdafiəçinin mütləq iştirak etməli olduğu hallar mövcud olmadıqda, eləcə də şübhəli və ya təqsirləndirən şəxs bunu tələb etmədikdə cinayət prosesini həyata keçirən orqan tərəfindən müdafiəçinin belə hərəkətlərin aparılmasında iştirakının tələb edilməsi yolverilməzdir.

Həmin qərarında Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlmişdir ki, Cinayət-Prosessual Məcəlləsinin 92.10.3-cü maddəsinin tələbləri baxımından, həmin Məcəllənin 244-cü maddəsində nəzərdə tutulmuş axtarış və ya götürmə istintaq hərəkətləri şübhəli və ya təqsirləndirilən şəxsin iştirakı olmadan aparıldıqda, müdafiəçi müdafiə etdiyi şəxsin razılığı olmadan həmin prosessual hərəkətlərdə iştirakdan imtina edə bilməz.

Bakı Apellyasiya Məhkəməsinin digər bir müraciəti əsasında qəbul edilmiş “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 2.5-ci maddəsinin şərh edilməsinə dair” 2019-cu il 24 aprel tarixli Qərarında qeyd edilmişdir ki, Mülki Məcəllənin 2.5-ci maddəsi, qanunvericilikdə ayrı qaydanın nəzərdə tutulduğu hallar istisna olmaqla, digər bütün hallarda mülki qanunvericilik müddəalarının bir tərəfin digər tərəfə inzibati və ya digər hakimiyyət tabeliyinə əsaslanan əmlak münasibətlərinə, o cümlədən vergi, maliyyə və inzibati münasibətlərə tətbiq edilməsini prinsipial şəkildə qadağan edir. Bu cür qadağa, mülki hüquq başda olmaqla, bütün xüsusi hüquq sahələrinə xas olan hüquqi tənzimləmə metodlarının publik hüquq sahələrinə, o cümlədən inzibati, sosial təminat, vergi hüququna xas tənzimləmə metodlarından əhəmiyyətli dərəcədə fərqli olmasından irəli gəlir.

Həmin qərarında Konstitusiya Məhkəməsinin Plenumu vurğulamışdır ki, qanunverici “əgər qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa” müddəasını Mülki Məcəllənin 2.5-ci maddəsində ifadə edərkən, ümumi (publik) hüquq münasibətlərində mülki qanunvericiliyin tətbiqini tam istisna etməmişdir. Bu, yalnız qanunvericinin birbaşa göstərişinin olduğu halda mümkündür. Məsələn, Vergi Məcəlləsinin 78.2-ci maddəsinə müvafiq olaraq, vergi öhdəliklərinin yerinə yetirilməsi Mülki Məcəllədə nəzərdə tutulmuş ardıcıllıqla həyata keçirilir.

Sumqayıt Apellyasiya Məhkəməsinin müraciəti əsasında qəbul edilmiş “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 128-ci maddəsi baxımından həmin Məcəllənin 109-cu maddəsinin şərh edilməsinə dair” 2019-cu il 3 may tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu qeyd etmişdir ki, İnzibati Xətalar Məcəlləsinin qərardadlardan bəhs edən nə ümumi, nə də xüsusi normalarında məhkəmə qərardadlarından şikayət verilməsinin nəzərdə tutulmaması onunla izah olunur ki, qərardad məsələni mahiyyəti üzrə həll etmir, şəxsin hüquq və azadlıqlarını məhdudlaşdırmır, mübahisənin gələcəkdə davam etdirilməsini istisna etmir, o, yalnız işin ədalətli həll olunmasına xidmət edir. Eyni zamanda, qanunverici, “prosessual qənaət” prinsipini rəhbər tutaraq məhkəmə prosesinin lüzumsuz olaraq uzanmasının qarşısını almaq məqsədi ilə hər bir qərardad üzrə şikayətin verilməsini mümkünsüz hesab etmişdir.

Adıçəkilən qərarda plenum belə nəticəyə gəlmişdir ki, İnzibati Xətalar Məcəlləsinin 128-ci maddəsinin tələbləri baxımından həmin məcəllənin 109-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işin baxılmasına hazırlanması zamanı qəbul edilən qərardadlardan apellyasiya şikayəti vermək hüququ istisna edilir.

Həmçinin vurğulanmışdır ki, inzibati protokolu tərtib etmək səlahiyyəti olan orqan (vəzifəli şəxs) həmin protokolu tərtib edərkən İnzibati Xətalar Məcəlləsinin tələblərinə ciddi riayət etməlidir. Məhkəmələr protokol və ya digər sənədlərin düzgün tərtib olunmadığını və ya təqdim edilmiş materialların natamam olduğunu müəyyən etdikdə “prosessual qənaət” və “işlərə ağlabatan müddətdə baxılması” prinsiplərini rəhbər tutaraq sənədləri onu tərtib etmiş orqana, vəzifəli şəxsə qərardadla qaytarmazdan əvvəl, həmin qüsur və natamamlıqların aradan qaldırılması üçün bütün imkan və vasitələrdən istifadə etməlidir.

Qeyd olunduğu kimi, cənab Prezident tərəfindən imzalanan “Məhkəmə–hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 2019-cu il 3 aprel tarixli Fərmanda cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, eyni zamanda, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması üçün görülən tədbirlərin gücləndirilməli olması vurğulanmışdır.

Məhz fərmanın tələblərini nəzərə alaraq, Konstitusiya Məhkəməsi Plenumunun qəbul etdiyi son qərarlardan biri olan Davud Zöhrab oğlu Bağırovun şikayəti üzrə 2019-cu il 3 iyun tarixli Qərarında xüsusilə vurğulanmışdır ki, plenumun qərarında göstərilən hüquqi mövqelər nəzərə alınmadan, yenidən eyni ziddiyyətli yanaşmalara yol verməklə yanlış qərarın qəbul edilməsi Konstitusiyanın 60-cı maddəsinin II hissəsinin tələblərinə zidd olmaqla işə baxılma müddətinin əsassız uzanmasına və süründürməçiliyə səbəb olur.

Həmçinin qeyd edilməlidir ki, Konstitusiya Məhkəməsi Plenumunun bir sıra digər qərarlarında da işlərə ağlabatan müddətdə baxılmasının, eyni zamanda, süründürməçiliyə yol verilməməsinin vacibliyi ilə bağlı mühüm hüquqi mövqelər formalaşdırılmışdır. Belə ki, N.Rzazadə və R.Rzazadənin şikayəti üzrə 2018-ci il 11 dekabr tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu oxşar hüquqi mövqedən çıxış etmişdir. Həmin qərarda ədalətli məhkəmə araşdırması hüququ ilə bağlı qeyd edilmişdir ki, bu hüququn mühüm elementlərindən biri də hər hansı bir işə məhkəmələr tərəfindən ağlabatan müddətdə baxılmasıdır. Məhkəmə icraatının ağlabatan müddətdə aparılması vaxtında qanuni və əsaslı məhkəmə aktı qəbul edilməsi ilə proses iştirakçılarının hüquq və azadlıqlarının, qanuni mənafelərinin müdafiə edilməsi məqsədi daşıyır.

Həmçinin Konstitusiya Məhkəməsinin Plenumu xüsusi olaraq vurğulamışdır ki, eyni işə dəfələrlə məhkəmələr tərəfindən baxılması üçpilləli məhkəmə sisteminin təyinatına, məhkəmə hüquq islahatlarının məqsədlərinə, ədalət mühakiməsini həyata keçirən məhkəmələrin qanunla nəzərdə tutulmuş vəzifələrinə uyğun gəlməyərək məhkəmənin nüfuzuna mənfi təsir göstərir.

Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən qəbul edilən qərarlardan bəhs edərkən qeyd edilməlidir ki, bu qərarlarda Konstitusiyanın aliliyi və birbaşa hüquqi qüvvəsi, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəaları, habelə insan hüquqlarının və azadlıqlarının prioriteti prinsipi nəzərə alınmaqla mühüm hüquqi mövqelər formalaşdırılır. Sözsüz ki, Konstitusiya Məhkəməsinin qərarının yüksək hüquqi qüvvəsi onun bütün hissələrinə, o cümlədən hüquqi mövqelərinə də şamil edilir. Digər mühüm bir məqam isə ondan ibarətdir ki, Konstitusiya Məhkəməsinin hüquqi mövqelərinin hüquqi qüvvəsi ümumi xarakter daşıdığından, yalnız konstitusiya işinin predmetini təşkil edən hala deyil, hüquq tətbiqetmə təcrübəsində rast gəlinən analoji hallara da şamil edilir. Bu mənada həmin qərarlar yalnız məhkəmələr deyil, həmçinin bütün hüquq tətbiqedici orqanlar üçün əhəmiyyətli mənbə qismində çıxış edir.

Həmçinin qeyd edilməsi vacibdir ki, Konstitusiya Məhkəməsinin təcrübəsinin tətbiqi prosesində hər hansı bir hüquqi mövqeyə istinad edilməsi zamanı onun düzgün və müvafiq şəkildə istifadə edilməsi, ümumi kontekstdən, mahiyyətindən və mənasından kənar işlədilməməsi xüsusi əhəmiyyət kəsb edir.

İstənilən konstitusiya nəzarəti orqanı kimi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi konstitusiya ədalət mühakiməsinin qabaqcıl inkişaf tendensiyalarının öyrənilməsinə hər zaman önəm verir.

Qeyd edilməlidir ki, Konstitusiya Məhkəməsinin Plenumu hər zaman beynəlxalq təcrübəyə xüsusi diqqət yetirməklə, qəbul edilən qərarlarında beynəlxalq hüquqi aktların, o cümlədən “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Avropa Konvensiyasının müddəalarına, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququna, həmçinin respublikamızın tərəfdar çıxdığı beynəlxalq sazişlərə, xarici ölkələrin konstitusiya nəzarəti orqanlarının mütərəqqi məhkəmə təcrübəsinə istinadlar edir.

Digər tərəfdən, Konstitusiya Məhkəməsi fəaliyyətə başladığı ilk illərdən beynəlxalq əlaqələrinin genişləndirilməsinə xüsusi önəm vermiş, xarici ölkələrin konstitusiya nəzarəti orqanları ilə, bir sıra mötəbər beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq münasibətləri qurmağa nail ola bilmişdir. Bu gün məhkəmə Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransının, Avropa Konstitusiya Məhkəmələri Konfransının, Asiya Konstitusiya Məhkəmələri və Ekvivalent İnstitutlar Assosiasiyasının, habelə Avrasiya Konstitusiya Nəzarəti Orqanları Assosiasiyasının tamhüquqlu üzvüdür.

Fəaliyyət göstərdiyi bu illər ərzində Konstitusiya Məhkəməsi Əsas Qanunun fundamental prinsiplərinin təmin edilməsi, insan hüquqlarının və azadlıqlarının müdafiəsi sahəsində səmərəli fəaliyyəti ilə ali dövlət orqanları sırasında özünəməxsus yerini tutmağa nail olmuşdur. Əlbəttə ki, məhkəmənin bu fəaliyyəti xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş və bu gün də Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən hüquqi dövlət quruculuğu sayəsində mümkün olmuşdur.

Konstitusiya Məhkəməsi hər zaman ulu öndər Heydər Əliyevin dəstəyini hiss etmiş, bu gün isə məhkəmənin fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən dəstəklənir. Cənab Prezident tərəfindən məhkəməyə göstərilən bu etimad çox qürurverici olmaqla, eyni zamanda, bizim hər birimiz üçün böyük məsuliyyəti nəzərdə tutur. Konstitusiya Məhkəməsi bundan sonra da bu etimadı doğrultmaq üçün qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışacaqdır.

Konstitusiya Məhkəməsinin 20 illik yubileyi münasibətilə dövlətimizin başçısı cənab İlham Əliyevin Konstitusiya Məhkəməsinin kollektivinə ünvanladığı təbrik məktubunda məhkəmənin fəaliyyətinin fərqləndirilməsi, həmçinin qarşımızda duran prioritet istiqamətləri və vəzifələri müəyyən etmişdir.

Bu gün Azərbaycan sürətlə yeniləşir və müasirləşir. Sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən ölkə olaraq Azərbaycan dövlətinin öz siyasi dəstxəti, dövlətçilik siması, inkişaf yolu vardır. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf konsepsiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu günün çağırışları nəzərə alınaraq daha da təkmilləşdirilmiş, məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsi, dövrün tələblərinə uyğun sistemli islahatların aparılması, ictimai-siyasi və sosial-iqtisadi sahələrdə mütərəqqi dəyişikliklərin edilməsi nəticəsində ölkəmizdə yüksək inkişaf dinamikasına nail olunmuşdur.

Həmçinin səmərəli dövlət idarəçiliyinin, təhlükəsizliyin və sabitliyin gücləndirilməsi ilə bağlı görülən tədbirlər müstəqilliyimizin daha da möhkəmləndirilməsini, dövlətimizin nüfuzunun artmasını, eyni zamanda, xalqımızın rifah halının yüksəlməsini təmin etmişdir.

Ölkəmiz hər il mötəbər humanitar və iqtisadi tədbirlərə, idman yarışlarına, musiqi və incəsənət festivallarına, konfrans və sərgilərə layiqincə evsahibliyi edir. Həqiqətdir ki, bu gün ölkəmiz bir sıra beynəlxalq layihələrin, ikitərəfli və çoxtərəfli görüşlərin nəinki iştirakçısı, həmçinin təşəbbüskarı qismində çıxış edir. Bakı son illərdə beynəlxalq əhəmiyyətli tədbirlərin keçirildiyi mərkəzə çevrilmişdir. Bu cür dünyamiqyaslı görüşlərin mütəmadi olaraq Bakıda keçirilməsi bir daha sübut edir ki, ölkəmiz etibarlı tərəfdaş olmaqla, əməkdaşlığa hər zaman açıqdır.

Müşahidə edilən bu cür davamlı inkişaf və tərəqqi şübhəsiz ki, dövlətimizin başçısının siyasi iradəsi, uğurlu daxili və xarici siyasəti nəticəsində mümkün olmuşdur.

Əminik ki, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu fəaliyyətinə dəstək olaraq Əsas Qanunun aliliyinin təmin edilməsi, insan hüquqlarının və azadlıqlarının səmərəli müdafiəsi işinə bundan sonra da öz töhfəsini verməkdə davam edəcəkdir.

***Fərhad ABDULLAYEV,***
***Azərbaycan Respublikası***
***Konstitusiya Məhkəməsinin sədri***



*Təkcə onu demək kifayətdir ki, sovet dövründə – 1970-ci illərdə, 1980-ci illərin əvvəllərində Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə ən geridə qalmış respublikalardan birindən ən qabaqcıl respublikalardan birinə çevrilmişdir. Məhz o illərdə çox möhkəm sənaye potensialı yaradılmışdır, infrastruktur layihələri icra edilmişdir. O layihələr ki, bu gün də müstəqil Azərbaycana xidmət göstərir.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# Son əlli ildəki bütün uğurlarımızın təməlinin qoyulduğu gün

**1969-cu ilin 14 iyulu ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi respublikanın inkişafında, onun uzun müddət yığılıb qalmış problemlərinin həllində və ən əsası, dövlətimizin dünya səviyyəsinə çıxmasında başlanğıc günü olub. Onun ölkəmizə rəhbərlik etdiyi dövrdə Azərbaycan iqtisadiyyatında keyfiyyət dəyişiklikləri baş verib. Mövcud müəssisələrin yenidən qurulması, yenilərinin açılması, kənd təsərrüfatına dövlət qayğısının artırılması, müxtəlif sahələr üzrə infrastrukturun yenilənməsi qısa müddət ərzində böyük nailiyyətlərin əldə olunmasına yol açıb. 1969-1982-ci illərdə ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərlikdə olduğu müddətdə ölkə faktiki surətdə uzaqgörənliklə gələcək milli müstəqilliyə hazırlanıb. Bunun üçün lazımi kadr potensialı formalaşdırılıb, milli ruhlu ziyalılar müxtəlif vasitələrlə təqiblərdən və təzyiqlərdən qorunub.**

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 14 iyul 1969-cu il tarixli plenumundan cəmi 20 gün sonra keçirilən 5 avqust 1969-cu il tarixli plenum respublikada yeni inkişaf mərhələsinin başlanğıcı – dönüş kimi yaddaşlarda qalıb. 1969-cu ilin iyuluna qədər respublikanın iqtisadi vəziyyəti ürəkaçan deyildi. Xüsusən kənd təsərrüfatında vəziyyət daha acınacaqlı idi.

Bu həqiqətləri həmin illərin statistikasını əks etdirən tarixi sənədlər daha yaxşı ifadə edir. Məsələn, 1971-ci ildə pambıq istehsalı 381,6 min ton idisə, 1981-ci ildə 1 milyon tona, üzüm istehsalı 381,9 min tondan 1 milyon 616 min tona, taxıl istehsalı 211,9 min tondan 1 milyon 150 min tona çatdırılmışdı. Bu iqtisadi irəliləyişlə paralel olaraq 70-80-ci illərdə respublikada 500 mindən artıq yeni iş yeri açılmışdı.

Başqa bir mənbədən oxuyuruq ki, XX əsrin 70-ci illərindən etibarən quruculuq missiyasını cəsarətlə öz üzərinə götürən böyük tarixi şəxsiyyət Heydər Əliyev uzaqgörən və müdrik siyasəti sayəsində güclü kadr potensialını yaratmaqla milli təhsil quruculuğu istiqamətində sonrakı uğurların bünövrəsini qoyub. O, bütün həyatı boyu şəxsi nümunəsi ilə sübut edib ki, maarif və mədəniyyətimizin, elm və təhsilimizin yorulmaz fədaisi, təəssübkeş himayəçisidir. Digər sahələrdə olduğu kimi, Azərbaycanın təhsil sisteminin son 50 illik inkişafı tarixində əldə ediyi nailiyyətlər, qazandığı uğurlar, müxtəlif mərhələlərdə, xüsusən 70-80-ci illərdə və müstəqillik dövründə aparılan təhsil islahatlarının hazırlanması və həyata keçirilməsi görkəmli dövlət xadimi Heydər Əliyevin böyük və əvəzsiz xidmətlərinin bəhrəsidir.

Ölkəmizin və xalqımızın son 50 ildəki tərəqqisi barədə danışarkən bir məsələni xüsusilə vurğulamaq zərurəti var. Belə ki, həmin dövrdə – ötən əsrin 70-80-ci illərində müstəqillikdən danışmaq olduqca çətin məsələ idi. Bir çox hallarda isə hətta təhlükəli idi. Həminin yadındadır ki, o illərdə müstəqil Azərbaycan haqqında ancaq düşünmək olardı. Ancaq Heydər Əliyev həmin illərdə müstəqilliyin mənəvi, mədəni, iqtisadi əsaslarını yaradırdı. Bu, sadəcə bir siyasətçi uzaqgörənliyi deyil, lider müdrikliyi idi. O, Azərbaycanın inkişafı üçün sovet dövrünün və dövlətin verdiyi bütün imkanlardan istifadə etməyi bacardı. Qısa müddətdə – 13-14 ildə Azərbaycan kiçik xammal respublikasından böyük aqrar-sənaye mərkəzinə çevrildi. Milli-mənəvi dəyərlər inkişaf etdi, Azərbaycan özünün milli ənənələrini yaşatmağa başladı.

Ötən əsrin 60-cı illərinə qədər sənaye malları asılılığı ilə üzləşən Azərbaycan artıq 70-ci illərdə dünyanın 65-dən çox ölkəsinə 350 adda müxtəlif növ məhsul ixrac edən ölkəyə çevrilmişdi. Azərbaycan həmin illərdə neft -- qaz avadanlığı istehsalına görə dünyada ABŞ-dan sonra ikinci ən güclü ölkə idi.

Heydər Əliyevin həmin illərdə SSRİ-nin və digər dövlətlərin ən nüfuzlu ali məktəblərində oxumaq üçün göndərdiyi gənclər sonradan gənc müstəqil Azərbaycan dövlətinin kadr potensialını yaratmışdı. Həmin gənclərin təhsili başa vurduqdan sonra ölkəmizə qayıtmayanları isə postsovet məkanında bugünkü Azərbaycan diasporunun ən nüfuzlu təmsilçiləri kimi fəaliyyət göstərirlər. Onun Azərbaycan paytaxtında hərbi məktəbin bugünkü əhəmiyyəti barədə isə ulu öndərin öz dilindən eşitdiyimiz fikirləri yada salmaq daha məqsədəuyğun olardı.

Ümummilli liderimiz 2003-cü il aprelin 21-də Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 30 illik yubileyinə həsr edilmiş təntənəli mərasimdəki nitqində demişdi: "Hamıya məlumdur ki, o illərdə mən hər il bu məktəbə gedirdim. Bunun da səbəbləri vardı. Məktəbdə siniflərdə olarkən və xüsusən, kursantlar meydanda hərbi qaydada sərrast addımlarla gedəndə mən hər dəfə düşünürdüm ki, bu uşaqların 14-15 yaşı var, 16 yaşı var, onların qarşısında böyük həyat var, özü də çətin həyat var. Bu yolu onlar keçə biləcəklər, yoxsa yox? Təbiidir ki, mənim arzum-istəyim o idi ki, onların hər biri Naxçıvanski adına məktəbi, indiki liseyi bitirib, sonra ali hərbi məktəblərə daxil olsunlar və nəhayət, yüksək səviyyəli zabit olsunlar. O vaxt mən bunu istəyirdim, buna inanırdım, amma, eyni zamanda. bilirdim ki, həyatda nə qədər çətinliklər var. İndi isə, Allaha şükür olsun ki, o kursantların tam əksəriyyəti bu çətin yolu uğurla keçiblər, indi bizim ordunun zabitləri, generallarıdır və ordunu gücləndirən kadrlarımızdır".

Məhz onun təşəbbüsü ilə 1969-1982-ci illərdə 10 mindən çox azərbaycanlı gənc Rusiya, Ukrayna və digər ölkələrin tanınmış ali məktəblərində təhsil alaraq respublikaya qayıtmış, Azərbaycanın inkişafına xidmət göstərmişdi və bu gün də göstərirlər. Təkcə həmin dövrdəki yeniyetmə kursantların bu gün hərbçi general səviyyəsinə yüksəlməsi deyil, ümumiyyətlə, Heydər Əliyevin Azərbaycan naminə reallaşdırdığı bütün layihələrin nəticələri elə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunları kimi xalqın üzünü ağardıb, liderin arzu-istəklərini reallığa çevirib.

Hamının yadındadır. İctimai-siyasi fəaliyyətinin bütün dövrlərində xalqın arasında, ölkə vətəndaşının yanında olan Heydər Əliyev məhrumiyyətlər və məşəqqətlərlə dolu olan 1993-cü ildə də xalqın çağırışına cavab verərək Azərbaycanın idarəçilik sükanı arxasına keçmiş, qısa müddətdə milli dövlətçilik doktrinasını irəli sürmüş və onun sürətli icrasına başlamışdı. Təbii ki, bütün bu işlərin reallığa çevrilməsi məhz onun hakimiyyətinin birinci dövründə yaradılan baza əsasında mümkün olmuşdur. Azərbaycan tarixinin, onun dövlətçiliyinin böyük təəssübkeşi olan Heydər Əliyev XX yüzilliyin sonunda öz müstəqilliyini bərpa edən Azərbaycanın xilaskarı oldu, beləcə ölkəmiz parçalanmaq, məhv olmaq təhlükəsindən qurtuluş tapdı.

Ancaq həmin qurtuluşun əbədi olması üçün hələ çox işlər görülməli idi. Hansı işlər? Bu sualın ən doğru cavabını hamıdan yaxşı bilən Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda və dünyada neft strategiyasının və siyasətinin formalaşdırılmasında xüsusi əhəmiyyət kəsb edən "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu. Səkkiz ölkəni əhatə edən bu müqavilə növbəti illərdə 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 30-dan çox sazişin imzalanmasına yol açmışdır. Bağlanmış müqavilələr hesabına ölkənin neft sektoru sürətlə inkişaf etdirilmiş, ölkəyə daxil olan vəsaitlər hesabına qeyri-neft sektorunun inkişafına və əhalinin sosial problemlərinin həllinə nail olunmuşdur.

Ölkənin istənilən vətəndaşı etiraf edir ki, bu gün xalqımız Heydər Əliyev siyasətinin uğurlarını gündəlik həyatında hiss edir, onunla yaşayır və onun irsindən faydalanır. Bu siyasətin icraçısı ulu öndərimizin alternativsiz siyasi varisi olan Prezident İlham Əliyevdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını qat-qat artırmış, Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratmışdır.

Dövlət başçımız ulu öndərin siyasi kursunu keyfiyyətcə yeni müstəvidə davam etdirməklə, xalqımızın və dövlətçiliyimizin bu kursun mahiyyətindən doğan milli maraqlarını beynəlxalq miqyasda təmin edir. Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsi müstəqilliyimizi möhkəmləndirir, dövlətçiliyimizi qüdrətləndirir və nəticədə beynəlxalq aləmdə Azərbaycan Respublikasının rol və nüfuzunu artırır.

Prezident İlham Əliyev xalqın problemlərinin həll edilməsi məsələsini daim diqqət mərkəzində saxlayır. Bu isə regionda ən mükəmməl "xalq-iqtidar" birliyinin məhz Azərbaycanda formalaşması ilə nəticələnib. Təsadüfi deyil ki, xalqımız 11 aprel 2018-ci ildə keçirilən prezident seçkilərində ona olan inam və etimadın səviyyəsini növbəti dəfə ortaya qoydu. İnsanlar qətiyyətlə ona inanır və görür ki, ölkəmizin sürətli, hərtərəfli və dinamik inkişafı Heydər Əliyev siyasi kursu və bu kursu inamla irəli aparan Prezident İlham Əliyevin düşünülmüş və yaradıcı fəaliyyəti ilə bağlıdır.

Biz fəxr edirik ki, Heydər Əliyev siyasəti geridə qalan yarım əsrdə ölkəmizi Avrasiya məkanında seçilən, inanılan, etibar edilən bir dövlətə çevirmişdir. Gənc müstəqil Azərbaycan dövlətinin BMT Təhlükəsizlik Şurası kimi mötəbər beynəlxalq təşkilatın iclaslarına sədrlik etməsi də, ölkəmizin "kosmik ailə"yə üzv olması da, ABŞ, Rusiya Federasiyası və NATO-nun ən ali səviyyəli nümayəndələrinin çətin həll olunan problemlərin müzakirəsinə evsahibliyi üçün Bakını seçməsi də, ümumiyyətlə, Azərbaycan paytaxtının bütün beynəlxalq təşkilatların tədbirlərinin keçirildiyi məkana çevrilməsi də. Eləcə də, bütün uğurlarımız məhz Heydər Əliyev siyasətinə sədaqətimizin nəticəsidir.

**İttifaq MİRZƏBƏYLİ,**
**"Xalq qəzeti"**

---

# Ümummilli lider Heydər Əliyevin 1969-cu il iyulun 14-də ölkəmizdə siyasi hakimiyyətə gəlməsi mühüm tarixi hadisədir



***İyulun 11-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətində ümummilli lider Heydər Əliyevin ölkəmizdə siyasi fəaliyyətə başlamasının 50 illiyinə həsr olunmuş "Azərbaycan tarixində Heydər Əliyev epoxası: tarix və müasirlik" mövzusunda elmi konfrans keçirilib.***

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik Akif Əlizadə ümummilli lider Heydər Əliyevin 1969-cu il iyulun 14-də ölkəmizdə siyasi hakimiyyətə gəlməsini mühüm tarixi hadisə kimi dəyərləndirib: "O vaxtdan yarım əsr keçir. Ancaq zaman keçdikcə dünya şöhrətli siyasətçi Heydər Əliyevin dahiliyi daha qabarıq şəkildə özünü göstərir", - deyə AMEA-nın prezidenti bildirib. Akif Əlizadə bu tarixi hadisə ilə bağlı respublikamızın müxtəlif qurumlarında, ölkə hüdudlarından kənarda silsilə tədbirlərin keçirildiyini, eləcə də AMEA-da ulu öndərin həyat və fəaliyyətindən bəhs edən nəşrlərin işıq üzü gördüyünü söyləyib. Bildirib ki, ömrünü dövlətinin, xalqının inkişafına, çiçəklənməsinə və rifahına həsr edən ulu öndərin adı Azərbaycanın tarixinə qızıl hərflərlə yazılıb.

Akademik Akif Əlizadə diqqətə çatdırıb ki, ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkəmizdə elmin, o cümlədən AMEA-nın inkişafına böyük diqqət və qayğı ilə yanaşıb. Ulu öndərin ikinci dəfə hakimiyyətə gəlişindən sonra Azərbaycan elminin yeni inkişaf mərhələsi başlanıb.

Daha sonra AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli "Azərbaycanın müstəqillik dərsləri: Heydər Əliyevdən İlham Əliyevə" mövzusunda məruzə ilə çıxış edib. Alim xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevi dünya miqyaslı böyük siyasətçi, mənsub olduğu xalqın xilaskarı və qüdrətli rəhbəri, müstəqil Azərbaycanın banisi kimi xarakterizə edib. Akademik bildirib ki, ümummilli lider Heydər Əliyevin 1969-cu il iyulun 14-də ölkəmizdə siyasi hakimiyyətə gəlməsi böyük tarixi dönüşün möhtəşəm başlanğıcı kimi tarixə yazılıb. 1969-cu ildə keçirilən məşhur avqust plenumuna toxunan akademik İsa Həbibbəyli deyib: "14 iyul Azərbaycanda böyük dönüşün möhtəşəm başlanğıcıdırsa, avqust plenumu Heydər Əliyevin dövlətçilik modeli və dövlətçilik təliminin uzunmüddətli strategiyasıdır. Heydər Əliyevin avqust plenumunda qaldırdığı məsələlər sovet Azərbaycanının proqramına çevrildi. Bu məsələlər müstəqil Azərbaycanda da dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişaf etdirilməsinə işıq salan qərarlardır".

İsa Həbibbəyli qeyd edib ki, Heydər Əliyev epoxasından İlham Əliyev erası doğmuşdur. Son 16 il ərzində Azərbaycan dünya tərəfindən qəbul edilib. Bu, Heydər Əliyev epoxasının və İlham Əliyev erasının böyük təntənəsidir. Akademik, həmçinin ulu öndərin elm, təhsil və mədəniyyət xadimlərinə yüksək diqqət və qayğısından da bəhs edib.

Milli Məclisin deputatı, Xalq yazıçısı Elmira Axundova "1969-cu il 6 avqust plenumu: Böyük dönüşün möhtəşəm başlanğıcı" mövzusunda məruzəsində ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən danışıb, şahidlərin bu dönəmlə bağlı söylədikləri xatirələri bölüşüb. O, ümummilli liderin avqust plenumundakı çıxışı zamanı korrupsiya, rüşvətxorluq və s. kimi problemlər barədə səsləndirdiyi fikirlərdən də söz açıb.

Tədbirdə AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudovun "Heydər Əliyev – dünya şöhrətli, görkəmli dövlət xadimi" mövzusunda məruzəsi dinlənilib. Akademik Yaqub Mahmudov avqust plenumunda ulu öndərin sovetlər sistemində heç kəsin cəsarət etmədiyi fikirləri gündəmə gətirməsi ilə onun siyasi xəttinin müəyyənləşdiyini, ağır sovet rejimindəki fəaliyyəti ilə gələcək Azərbaycan modelinin hazırlandığını bildirib. Vurğulayıb ki, Heydər Əliyevin hər zaman axına qarşı gedərək tarixin gedişini dəyişən şəxsiyyətlər sırasında yer alıb və bütün çətinliklərə rəğmən hazırkı Azərbaycanı yaradıb.

AMEA-nın Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutunun direktoru, akademik Vaqif Fərzəliyev isə "Azərbaycan elmi Heydər Əliyev epoxasında" mövzusunda məruzə ilə çıxış edib. Akademik çıxışında Heydər Əliyevin 1969-cu ildə siyasi fəaliyyətə başlaması və 1993-cü ildə yenidən hakimiyyətə qayıdışından sonra respublikada elmi sahələrin inkişafı istiqamətində görülən işlərdən danışıb. Akademiyanın ikinci - 1970-1980-ci illərdəki çiçəklənmə dövrünün ulu öndərin adı ilə bağlı olduğunu deyən Vaqif Fərzəliyev həmin dövrdə alimlərin əməyinin qiymətləndirilməsində də Heydər Əliyevin böyük rolu olduğunu söyləyib.

**AZƏRTAC**

---




# "Ədəbiyyatda Heydər Əliyev obrazı tarixi gerçəklikdən ideala" monoqrafiyası çapdan çıxıb

**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən ikicildlik "Ədəbiyyatda Heydər Əliyev obrazı tarixi gerçəklikdən ideala" monoqrafiyası nəşr edilib. İnstitutdan AZƏRTAC-a bildirilib ki, kitabın hər iki cildi akademik İsa Həbibbəylinin ideya müəllifliyi və ümumi redaktəsi ilə işıq üzü görüb.**

Monoqrafiyanın 2018-ci ildə çap olunmuş birinci cildi akademik İsa Həbibbəylinin "Ədəbiyyatın yüksək amalı və böyük borcu", "Böyük ədəbiyyat siyasəti və möhtəşəm bədii obraz" sərlövhəli yazıları ilə açılır.

Birinci kitabda filologiya üzrə elmlər doktoru Elnarə Akimovanın "Poeziyada Heydər Əliyev idealı", AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun "Folklorda və bədii nəsrdə Heydər Əliyev obrazı", filologiya üzrə fəlsəfə doktoru Lalə Həsənovanın "Dahiyə layiq bədii-sənədli epopeya", filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlının "Uşaq ədəbiyyatında Heydər Əliyev mövzusu" və filologiya üzrə elmlər doktoru Əlizadə Əsgərlinin "Heydər Əliyevin ədəbi-filoloji portreti" məqalələri yer alıb.

İnstitutun elmi şurasının qərarı ilə çap olunan monoqrafiyanın birinci hissəsinin rəyçiləri professorlar Məmməd Əliyev və Məhərrəm Qasımlı, məsul redaktoru isə Tehran Əlişanoğludur.

2019-cu ildə çap olunan "Ədəbiyyatda Heydər Əliyev obrazı tarixi gerçəklikdən ideala" kitabının ikinci cildi ümummilli liderin ölkəmizdə siyasi hakimiyyətə başlamasının 50 illiyinə ithaf olunub.

Monoqrafiyada akademik İsa Həbibbəyli "Heydər Əliyev epoxası: dahilik, zaman və müasirlik", "İlham Əliyev erası", "Azərbaycan Heydər Əliyevşünaslığı: nailiyyətlər və vəzifələr" başlıqlı üç sanballı tədqiqatla ümummilli liderin tarixi və bədii obrazını yaradıb.

İkinci kitabda, həmçinin Elnarə Akimovanın "Ulu öndər yolunun davamı və sabahı – İlham Əliyev", Tehran Əlişanoğlunun "Heydər Əliyevin tarixi obrazı və ədəbiyyat", Lalə Həsənovanın "Beynəlmiləl məfkurədən milli ideyaya doğru (xarici ölkələrin publisistikasında Heydər Əliyev obrazı)", Aygün Bağırlının "Heydər Əliyevin bədii obrazı dramaturgiya və teatrda", Əlizadə Əsgərlinin "Elmi-ədəbi fikirdə Heydər Əliyev dühası" kimi əhatəli yazıları da yer alıb.

İkinci kitabın rəyçisi AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə, məsul redaktoru Tehran Əlişanoğludur.

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 291** **Bakı şəhəri, 9 iyul 2019-cu il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164; 2018, № 3, maddə 586, № 9, maddə 1904, № 10, maddə 2169, № 11, maddə 2427; 2019, № 1, maddə 148, № 2, maddə 332; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 aprel tarixli 150 nömrəli, 9 aprel tarixli 151 nömrəli, 12 aprel tarixli 165 nömrəli və 2 may tarixli 202 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 0106 49 000 0, 0306 34 000 0, 0407 29 100 0, 2009 79 980 0, 2204 22 100 0, 4403 94 000 0, 4407 19 910 0, 4411 14 900 0, 4412 39 000 0, 7013 49 910 0, 7013 49 990 0, 8405 10 000 0, 8502 39 200 0, 8714 10 500 0 və 9608 60 000 0 alt yarımmövqelərinə aid sətirlərin ikinci sütunundakı sözlərin sonundan iki nöqtə işarəsi çıxarılsın;

1.2. 0207 11 100 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "yarı çıxarılmış" sözləri "bağırsaqsız" sözü ilə əvəz edilsin;

1.3. 0207 41 300 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "ciyəri" sözü "ürəyi, qaraciyəri" sözləri ilə əvəz edilsin;

1.4. 0207 42 300 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "bağırsaqsız" sözü "içalatı çıxarılmış" sözləri ilə, "ciyəri" sözü "ürəyi, qaraciyəri" sözləri ilə əvəz edilsin;

1.5. 0207 51 900 0 və 0207 52 900 0 alt yarımmövqelərinə aid sətirlərin ikinci sütununda "bağırsaqsız" sözü "içalatı çıxarılmış" sözləri ilə əvəz edilsin;

1.6. 0207 60 910 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütunundan "yağlı istisna olmaqla" sözləri çıxarılsın;

1.7. 0210 11 yarımmövqeyinə və 0210 11 310 0 alt yarımmövqeyinə aid sətirlərin ikinci sütununda "onlardan kəsiklər" sözləri "onların parçaları" sözləri ilə əvəz edilsin;

1.8. 0303 39 100 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "kambala" sözü "çay kambalası" sözləri ilə əvəz edilsin;

1.9. 0303 59 100 0 alt yarımmövqeyindən sonrakı sətrin üçüncü sütunundan bir "–" işarəsi çıxarılsın;

1.10 0303 69 700 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütunundakı "makruronusun" sözü "makruronusu" sözü ilə əvəz edilsin;

1.11. 0303 89 210 0 alt yarımmövqeyindən əvvəlki sətrin ikinci sütununda "0302 43" rəqəmləri "0303 43" rəqəmləri ilə əvəz edilsin;

1.12. 0304 42 100 0 və 0307 11 100 0 alt yarımmövqelərinə aid sətirlərin ikinci sütununda "qrdan" sözü "q-dan" sözü ilə əvəz edilsin;

1.13. 0305 51 yarımmövqeyinə aid sətrin ikinci sütununda "quru" sözü "qurudulmuş" sözü ilə əvəz edilsin;

1.14. 0306 17 920 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "Penaeuscinsli" sözü "Penaeus" sözü ilə əvəz edilsin;

1.15. 0307 42 yarımmövqeyinin altındakı sətrin üçüncü sütunundan "–" işarəsi və dördüncü sütunundan "5" rəqəmi çıxarılsın;

1.16. 0306 11 100 0, 0306 11 900 0, 0306 12 100 0 və 0306 12 900 0 alt yarımmövqelərinə aid sətirlərin ikinci sütununa bir "–" işarəsi əlavə edilsin;

1.17. 0307 42 110 0, 0307 42 190 0 və 0307 49 710 0 alt yarımmövqelərinə aid sətirlərin üçüncü sütununa bir "–" işarəsi və dördüncü sütununa "5" rəqəmi əlavə edilsin;

1.18. 0402 99 910 0 alt yarımmövqeyindən əvvəlki sətrin ikinci sütununda "tərkibi" sözü "tərkibində" sözü ilə əvəz edilsin;

1.19. 0405 mal mövqeyinə aid sətrin ikinci sütununa "digər" sözündən sonra "piylər və" sözləri əlavə edilsin;

1.20. 0406 90 180 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütunundan "pendiri" sözü çıxarılsın və həmin sətrin sonuna "pendirləri" sözü əlavə edilsin;

1.21. 0406 90 760 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "Avarti" sözü "Havarti" sözü ilə və "Samsoe" sözü "Samsö" sözü ilə əvəz edilsin;

1.22. 0406 90 790 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "San-Nektar" sözü "San-Nekter" sözü ilə əvəz edilsin;

1.23. 0602 mal mövqeyinə aid sətrin ikinci sütununda "şitillər" sözü "zoğlar" sözü ilə əvəz edilsin;

1.24. 0712 20 000 0 alt yarımmövqeyindən sonrakı sətrin ikinci sütununa "qulağabənzər" sözündən əvvəl "göbələklər" sözü əlavə edilsin;

1.25. 0713 33 100 alt yarımmövqeyinə aid sətrin ikinci sütunundan "fevral, mart, aprel və may ayları üzrə" sözləri çıxarılsın;

1.26. 0904 mal mövqeyinə aid sətrin ikinci sütununda "Qurudulmuş və ya döyülmüş, və ya üyüdülmüş Piper cinsli istiot; Capsicum və ya Pimenta cinsli barlar:" sözləri "Piper cinsli istiot; qurudulmuş və ya döyülmüş və ya üyüdülmüş Capsicum və ya Pimenta cinsli barlar:" sözləri ilə əvəz edilsin;

1.27. 0904 12 000 0, 0904 22 000 0, 0905 20 000 0, 0906 20 000 0, 0907 20 000 0, 0908 12 000 0, 0908 22 000 0, 0908 32 000 0, 0909 22 000 0, 0909 32 000 0, 0909 62 000 0, 0910 12 000 0, 0910 20 900 0, 0910 91 900 0, 0910 99 390 0 və 0910 99 990 0, 2846 90 100 0, 2846 90 200 0 və 8431 43 000 0 alt yarımmövqelərinə və 1502 mal mövqeyinə aid sətirlərin ikinci sütununda "və" sözü "və ya" sözləri ilə əvəz edilsin;

1.28. 1006 10 250 0, 1006 10 960 0, 1006 20 150 0, 1006 20 960 0, 1006 30 250 0, 1006 30 460 0, 1006 30 650 0, 1006 30 960 0 və 6902 20 910 0 alt yarımmövqelərinə aid sətirlərin ikinci sütununda "çox olmayan" sözləri "az olan" sözləri ilə əvəz edilsin;

1.29. 1006 30 yarımmövqeyinə aid sətrin ikinci sütununa "minalanmamış" sözündən sonra vergül işarəsi əlavə edilsin;

1.30. 1104 22 400 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütunundan "; toxum dəriciyi təmizlənmiş" sözləri çıxarılsın;

1.31.1212 99 950 0, 2922 15 000 0, 2922 16 000 0, 2922 17 000 0, 2922 18 000 0, 8432 39 900 0, 8703 90 001 0 və 8703 90 009 0 alt yarımmövqelərinə və 2922 19 yarımmövqeyinə aid sətirlərin ikinci sütunundan bir "–" işarəsi çıxarılsın;

1.32. 1503 00 300 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununa "üçün" sözündən sonra "heyvan yağı" sözləri əlavə edilsin;

1.33. 1513 19 910 0, 1513 21 300 0, 1513 29 110 0 və 2825 90 110 0 alt yarımmövqelərinə aid sətirlərin ikinci sütununda "az" sözü "çox" sözü ilə əvəz edilsin;

1.34. 1513 29 500 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "1 kq-dan az olmayan" sözləri "1 kq və ya daha az olan" sözləri ilə əvəz edilsin;

1.35. 1602 90 310 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "quşundan" sözü "heyvanlarından" sözü ilə əvəz edilsin;

1.36. 1604 mal mövqeyinin altındakı sətrin ikinci sütununda "qiymələnməmiş" sözü "içi doldurulmamış" sözləri ilə əvəz edilsin;

1.37. 1605 56 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "– – Arcidae, Arcticidae, Cardiidae, Donacidae, Hiatellidae, Mactridae, mesodesmatidae, Myidae, Semelidae, Solecurtidae, Solenidae, Tridacnidae və Veneridae fəsiləsinə aid molyusklar" sözləri "klemalar, ürəyəbənzərlər və arkalar" sözləri ilə əvəz edilsin;

1.38. 1806 10 yarımmövqeyinə aid sətrin ikinci sütununda "edilməmiş" sözü "edilmiş" sözü ilə əvəz edilsin;

1.39. 2002 90 190 0 alt yarımmövqeyindən sonrakı sətrin ikinci sütununda "az olan" sözləri "az olmayan" sözləri ilə əvəz edilsin;

1.40. 2008 19 yarımmövqeyindən sonrakı sətrin ikinci sütunundakı sözlərin sonuna iki nöqtə işarəsi əlavə edilsin;

1.41. 2008 97 510 0 alt yarımmövqeyindən əvvəlki sətrin və 4104 19 510 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütunlarında "çox olmayan" sözləri "çox olan" sözləri ilə əvəz edilsin;

1.42. 2009 71 yarımmövqeyinə aid sətrin ikinci sütununda "çox olan" sözləri "çox olmayan" sözləri ilə əvəz edilsin;

1.43. 2009 79 980 0 alt yarımmövqeyindən sonrakı sətrin ikinci sütununa "digər" sözündən sonra "bir" sözü əlavə edilsin;

1.44. 2208 40 yarımmövqeyindən sonrakı sətrin ikinci sütununda "tutumlarda" sözündən sonra bir iki nöqtə işarəsi çıxarılsın;

1.45. 2202 90 910 0 rəqəmləri 2202 99 910 0 rəqəmləri ilə, 2202 90 950 0 rəqəmləri 2202 99 990 0 rəqəmləri ilə və 2202 90 950 0 rəqəmləri 2202 99 990 0 rəqəmləri ilə əvəz edilsin;

1.46. 2716 00 000 0 alt yarımmövqeyinə aid sətrin üçüncü sütununda "1000 kVt/saat" sözləri "1000 kVt x saat" sözləri ilə əvəz edilsin;

1.47. 2805 30 100 0 alt yarımmövqeyindən sonrakı sətrin ikinci sütununda "digərləri" sözünün sonuna iki nöqtə işarəsi əlavə edilsin və dördüncü sütunundan "0" rəqəmi çıxarılsın;

1.48. 2809, 2830, 2835 və 2842 mal mövqelərinə, habelə 2842 10 000 0 alt yarımmövqeyinə aid sətirlərin ikinci sütununda "məlum və ya naməlum" sözləri "müəyyən və ya qeyri-müəyyən" sözləri ilə əvəz edilsin;

1.49. 2812 11 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "karbonilixlorid" sözü "karbonildixlorid" sözü ilə əvəz edilsin;

1.50. 2812 19 000 alt yarımmövqeyinə aid sətrin üçüncü sütunundan bir "–" işarəsi və dördüncü sütunundan "0" rəqəmi çıxarılsın;

1.51. 2815 mal mövqeyinə aid sətrin ikinci sütununda "Natrium-hidroksid (kaustik soda)," sözləri "Natrium hidroksid (kaustik soda);" sözləri ilə əvəz edilsin;

1.52. 2818 30 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "alüminium-hidroksid" sözləri "alüminium hidroksid" sözləri ilə əvəz edilsin;

1.53. 2826 mal mövqeyinə aid sətrin ikinci sütunundakı "Flüoridlər" sözündən sonra vergül işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

1.54. 2836 mal mövqeyinə aid sətrin ikinci sütununda "ammonium karbonat" sözləri "ammonium karbamat" sözləri ilə əvəz edilsin;

1.55. 2844 20 350 0 alt yarımmövqeyindən sonrakı sətrin ikinci sütununda "onun" sözü "bu məhsulların" sözləri ilə əvəz edilsin;

1.56. 2845 90 100 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "maddələr" sözü "məhsullar" sözü ilə əvəz edilsin;

1.57. 2853 mal mövqeyinə aid sətrin ikinci sütununda "başqa" sözündən sonra vergül işarəsi çıxarılsın;

1.58. 2903 22 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "trixloetilen" sözü "trixloretilen" sözü ilə əvəz edilsin;

1.59. 2903 39 270 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "qeksaflüorpropanlar" sözü "heksaflüorpropanlar" sözü ilə və "qeptaflüorpropanlar" sözü "heptaflüorpropanlar" sözü ilə əvəz edilsin;

1.60. 2903 77 600 0 və 2933 33 000 0 alt yarımmövqelərinə aid sətirlərin ikinci sütununda "dixlortetraflüoretanlar" sözündən sonra vergül işarəsi "və" sözü ilə əvəz edilsin;

1.61. 2903 82 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "qeptaxlor" sözü "heptaxlor" sözü ilə əvəz edilsin;

1.62. 2903 94 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "qeksabrombifenillər" sözü "heksabrombifenillər" sözü ilə əvəz edilsin;

1.63. 2911 00 000 0 alt yarımmövqeyinə və 2914 mal mövqeyinə aid sətirlərin ikinci sütununda "qruplar" sözü "qrup" sözü ilə əvəz edilsin;

1.64. 2912 41 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "vanilin (4-hidroksi-3-metroksibenzaldehid)" sözləri "vanilin (4-hidroksi-3-metoksibenzaldehid)" sözləri ilə əvəz edilsin;

1.65. 2914 40 yarımmövqeyinə aid sətrin ikinci sütununda "ketonospirtlər və ketonoaldehidlər" sözləri "ketonspirtlər və ketonaldehidlər" sözləri ilə əvəz edilsin;

1.66. 2914 50 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "ketonofenollar" sözü "ketonfenollar" sözü ilə əvəz edilsin;

1.67. 2917 39 200 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "tereftaloilxlorid" sözü "tereftaloildixlorid" sözü ilə, "natrium 3,5-bis (metoksikarbonil) benzosulfonat" sözləri "natrium 3,5-bis (metoksikarbonil) benzolsulfonat" sözləri ilə əvəz edilsin;

1.68. 2921 14 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "2-(N,N-diizipropilamin) etilxlorid hidroxlorid" sözləri "2-(N,N-diizopropilamin) etilxlorid hidroxlorid" sözləri ilə əvəz edilsin;

1.69. 2922 16 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "perflüorsulfonat" sözü "perflüoroktansulfonat" sözü ilə əvəz edilsin;

1.70. 2931 33 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "dietilfosfonat" sözü "dietiletilfosfonat" sözü ilə əvəz edilsin;

1.71. 2931 34 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "3-(trihidroksilil) propilmetilfosfonat" sözləri "natrium 3-(trihidroksisilil) propilmetilfosfonat" sözləri ilə əvəz edilsin;

1.72. 2931 36 000 0 və 2931 37 000 0 alt yarımmövqelərinə aid sətirlərin ikinci sütununda "oksi" sözü "oksid" sözü ilə əvəz edilsin;

1.73. 2931 39 000 3 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "diigər" sözü "digər" sözü ilə əvəz edilsin;

1.74. 2931 39 000 7 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "(CAS 675-83-5)" sözləri "(CAS 676-83-5)" sözləri ilə əvəz edilsin;

1.75. 2931 90 500 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununa "turşusu" sözündən sonra "və onun duzları" sözləri əlavə edilsin;

1.76. 2931 90 600 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "[bis {2- [bis (fosfonometil) amino]etil}amino) metil]fosfon turşusu, {qeksan-1,6-diilbis[nitrilobis (metilen)]} tetrakis (fosfon turşusu), {[(2-hidroksietil) imino]bis(metilen)bis (fosfon turşusu) və [(bis{6-[bis(fosfonometil)amino] qeksil} amino)metil] fosfon turşusu; və onların duzları" sözləri "[(bis{2 - [bis (fosfonometil) amino] etil}amino) metil]fosfon turşusu, {qeksan-1,6-diilbis[nitrilobis(metilen)]} tetrakis (fosfon turşusu), {[(2-hidroksietil)imino]bis(metilen)] bis (fosfon turşusu) və [(bis {6- [bis(fosfonometil)amino]heksil} amino)metil] fosfon turşusu; onların duzları" sözləri ilə əvəz edilsin;

1.77. 3003 10 000 0 və 3004 10 000 0 alt yarımmövqelərinə aid sətirlərin ikinci sütununda "tərkibində penisillan turşusu strukturlu penisilinlər və ya onların törəmələri olan" sözləri "tərkibində penisilinlər və ya onların penisillan turşusu strukturlu törəmələri olan" sözləri ilə əvəz edilsin;

1.78. 3103 11 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "35 kütlə %-dən çox" sözləri "35 kütlə % və ya daha çox" sözləri ilə əvəz edilsin;

1.79. 3202 mal mövqeyinə aid sətrin ikinci sütununda "preparatlar" sözündən sonra vergül işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

1.80. 3206 mal mövqeyinə aid sətrin ikinci sütununda "Bu qrupa dair 3-cü qeydində göstərilən preparatlar, 3203, 3204 və ya 3205 mal mövqeyinin preparatlarından fərqli olan digər boyayıcı maddələr; müəyyən və ya qeyri-müəyyən kimyəvi tərkibli lüminoforlar kimi istifadə edilən qeyri-üzvi məhsullar:" sözləri "Digər boyayıcı maddələr; 3203, 3204 və 3205 mal mövqelərinin preparatlarından fərqli olan, bu qrupa dair 3-cü qeyddə göstərilən preparatlar; müəyyən və ya qeyri-müəyyən kimyəvi tərkibli lüminoforlar kimi istifadə edilən qeyri-üzvi məhsullar:" sözləri ilə əvəz edilsin;

1.81. 3208 90 110 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "4,4'-metilendisikloqeksildiizosionat" sözləri "4,4'-metilendisikloheksildiizosionat" sözləri ilə əvəz edilsin;

1.82. 3214 mal mövqeyinə və 3214 10 yarımmövqeyinə aid sətirlərin ikinci sütununda "şpaklovka" sözü "şpaklovkalar" sözü ilə əvəz edilsin;

1.83. 3306 mal mövqeyinə aid sətrin ikinci sütununda "təsbitedici" sözü "fiksasiyaedici" sözü ilə əvəz edilsin;

1.84. 3402 11 100 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "alkil[oksidi (benzolsulfonat)] dinatriumun" sözləri "dinatrium alkil[oksidi(benzolsulfonat)]ın" sözləri ilə əvəz edilsin;

1.85. 3407 00 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "kalsium-sulfat" sözləri "kalsium sulfat" sözləri ilə əvəz edilsin;

1.86. 3503 00 yarımmövqeyinə aid sətrin ikinci sütunundan "düzbucaqlı" sözündən sonrakı vergül işarəsi çıxarılsın;

1.87. 3505 mal mövqeyinə aid sətrin ikinci sütununda "ilkin" sözü "əvvəlcədən" sözü ilə əvəz edilsin;

1.88. 3707 10 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "həssas emulsiyalar" sözləri "sensibilizasiya olunmuş" sözləri ilə əvəz edilsin;

1.89. 3805 mal mövqeyinə aid sətrin ikinci sütununda "para-simol" sözü "parasimol" sözü ilə əvəz edilsin;

1.90. 3808 93 yarımmövqeyinə aid sətrin ikinci sütununda "bitkilərin boy artımının qarşısını alan vasitələr" sözləri "bitkilərin cücərməsinə qarşı vasitələr" sözləri ilə əvəz edilsin;

1.91. 3824 86 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "qeksaxlorbenzol" sözü "heksaxlorbenzol" sözü ilə əvəz edilsin;

1.92. 3811 mal mövqeyinə aid sətrin ikinci sütununda "neft məhsullarının istifadə edildiyi məqsədlərlə" sözləri "neft məhsulları ilə eyni məqsədlərlə istifadə olunan" sözləri ilə əvəz edilsin;

1.93. 3815 19 100 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "tərkibində oksidlər qarışığı olan, maqnezium silikat daşıyıcı əsasında olan" sözləri "tərkibində maqnezium silikat daşıyıcı əsasında oksidlər qarışığı olan" sözləri ilə əvəz edilsin;

1.94. 3815 90 100 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "katalizatoru" sözü "katalizator" sözü ilə əvəz edilsin;

1.95. 3817 00 500 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "alkilbenzol" sözü "alkilbenzollar" sözü ilə əvəz edilsin;

1.96. 3824 84 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "qeptaxlor" sözü "heptaxlor" sözü ilə əvəz edilsin;

1.97. 3824 85 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "1,2,3,4,5,6-qeksaxlorsikloqeksan" sözləri "1,2,3,4,5,6-heksaxlorsikloheksan" sözləri ilə əvəz edilsin;

1.98. 3824 86 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "qeksaxlorbenzol" sözü "heksaxlorbenzol" sözü ilə əvəz edilsin;

1.99. 3824 88 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "qeksa-" sözü "qepta-" sözü ilə və "heksa-" sözü "hepta-" sözü ilə əvəz edilsin;

1.100. 3824 91 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "(5-etil-2-metil-oksi-1,3,2-dioksafosfinan-5-il)metil metil metilfosfonatdan" sözləri "(5-etil-2-metil-2-oksi-1,3,2-dioksafosfinan-5-il)metil metil metilfosfonatdan" sözləri ilə əvəz edilsin;

1.101. 3824 99 300 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "suda həll olunmayan naften turşuları, onların duzları və mürəkkəb efirləri" sözləri "naften turşuları, onların suda həll olunmayan duzları və onların mürəkkəb efirləri" sözləri ilə əvəz edilsin;

1.102. 3824 99 850 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "toluolda məhlul halında 3-(1-etil-1-metilpropil)izoksazol-5-ilaminin" sözləri "3-(1-etil-1-metilpropil) izoksazol-5-ilaminin toluolda məhlulu" sözləri ilə əvəz edilsin;

1.103. 3902 90 100 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununa "sopolimerinin" sözündən əvvəl "və polistirolun" sözləri əlavə edilsin;

1.104. 3904 50 100 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "sopolimerləri" sözü "sopolimeri" sözü ilə əvəz edilsin;

1.105. 3905 12 000 0 və 3905 21 000 0 alt yarımmövqelərinə aid sətirlərin ikinci sütununda "suda dispersləşdirilmiş" sözləri "sulu dispersiya şəklində" sözləri ilə əvəz edilsin;

1.106. 3906 90 300 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "2– etilqeksilakrilatın" sözü "2– etilheksilakrilatın" sözü ilə əvəz edilsin;

1.107. 3906 90 600 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "tərkibində əvəzedici qrup kimi axırıncı olmayan karboksil qrupu olan metakrilatın, etilenin və monomerin üçlü sopolimeri" sözləri "metakrilatın, etilenin və tərkibində əvəzedici qrup kimi axırıncı olmayan karboksil qrupu olan monomerin üçlü sopolimeri" sözləri ilə əvəz edilsin;

1.108. 3907 mal mövqeyinə aid sətrin ikinci sütununa "polikarbonatlar" sözünün əvvəlinə "ilkin formalarda" sözləri əlavə edilsin;

1.109. 3907 20 910 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "sopolimerləri" sözü "sopolimeri" sözü ilə əvəz edilsin;

1.110. 3907 99 100 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "polietilennaftalin-2,6-dikarbroksilat" sözləri "polietilen-naftalin-2,6-dikarboksilat" sözləri ilə əvəz edilsin;

1.111. 3909 50 100 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "2,2'-(tret-butilimino)dietanolun və 4,4'-metilendisikol-qeksildiizosianatın" sözləri "2,2'-(tret-butilimin)dietanolun və 4,4'-metilendisikolheksildiizosianatın" sözləri ilə əvəz edilsin;

1.112. 3913 90 000 0 alt yarımmövqeyindən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 3914 00 000 0 | 3901-3913 mal mövqelərində göstərilən polimerlər əsasında alınmış ilkin formalarda ion-mübadilə qatranları | - | 0 |

1.113. 3916 90 və 3923 29 yarımmövqeyinə, 3917 29 000, 3918 90 000 0, 3921 19 000 0 alt yarımmövqelərinə aid sətirlərin ikinci sütununda və 3920 79 900 0 alt yarımmövqeyinin altındakı sətrin ikinci sütununda "plastmasdan" sözü "plastmaslardan" sözü ilə əvəz edilsin;

1.114. 3917 31 000 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "27,6 MPa-la qədər" sözləri "27,6 MPa-dan az olmayan" sözləri ilə əvəz edilsin;

1.115. 3920 99 520 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "bioksial" sözü "biaksial" sözü ilə əvəz edilsin;

1.116. 3923 mal mövqeyinə aid sətrin ikinci sütununa "tıxaclar" sözündən əvvəl "plastmas" sözü əlavə edilsin;

1.117. 3923 40 100 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "makaralar, çarxlar" sözləri "çarxlar, bobinalar" sözləri ilə əvəz edilsin;

1.118. 4101 20 yarımmövqeyinə aid sətrin ikinci sütununda "ayrı" sözü "başqa üsulla" sözləri ilə əvəz edilsin;

1.119. 4418 91 100 0 və 4418 91 800 0 alt yarımmövqelərinə aid sətirlərin ikinci sütununun əvvəlinə bir "–" işarəsi əlavə edilsin;

1.120. 4415 mal mövqeyinə aid sətrin ikinci sütununa "kabel" sözündən əvvəl "ağacdan" sözü əlavə edilsin;

1.121. 4703 11 000 0 və 4704 11 000 0 alt yarımmövqelərinə aid sətirlərin ikinci sütununa "iynəyarpaqlı" sözündən sonra "növ" sözü əlavə edilsin;

1.122. 4703 19 000 0 və 4704 19 000 0 alt yarımmövqelərinə aid sətirlərin ikinci sütununa "yarpaqlı" sözündən sonra "növ" sözü əlavə edilsin;

1.123. 4705 00 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "Əlaqəli mexaniki və kimyəvi bişirilmə üsulları ilə" sözləri "Mexaniki və kimyəvi bişirilmə üsulları ilə birlikdə" sözləri ilə əvəz edilsin;

1.124. 4707 mal mövqeyinə aid sətrin ikinci sütununda "kağızdan və ya kartondan" sözləri "kağız və ya karton" sözləri ilə əvəz edilsin;

1.125. 4819 10 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütunundan "kiçik qutular" sözləri çıxarılsın;

1.126. 5105 10 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununa "qalmış" sözündən sonra "yun" sözü əlavə edilsin;

1.127. 5109 10 100 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "kütləsi" sözü "çəkisi" sözü ilə əvəz edilsin;

1.128. 5205 12 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "çox" sözü "yuxarı" sözü ilə əvəz edilsin;

1.129. 5208 22 190 0 alt yarımmövqeyinin altındakı sətrin ikinci sütununda "kətandan toxunma" sözləri "kətan toxunuşlu" sözləri ilə əvəz edilsin;

1.130. 5212 12 900 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "qarışıqlar" sözü "qarışdırılmış" sözü ilə əvəz edilsin;

1.131. 5302 mal mövqeyinə aid sətrin ikinci sütununda "əyrilmiş" sözü "əyrilməmiş" sözü ilə əvəz edilsin;

1.132. 5402 mal mövqeyinə aid sətrin ikinci sütunundan sual işarəsi çıxarılsın;

1.133. 5407 30 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "cəkilən" sözü "çəkilən" sözü ilə əvəz edilsin;

1.134. 5407 74 000 0 və 5408 10 000 0 alt yarımmövqelərinin altındakı sətirlərin ikinci sütununda "saplardan" sözü "sapları" sözü ilə əvəz edilsin;

1.135. 5504, 5506, 8445 mal mövqelərinə və 5507 00 000 0 alt yarımmövqeyinə aid sətirlərin ikinci sütununda, 5515 13 190 0 və 5515 22 190 0 alt yarımmövqelərinin altındakı sətirlərin ikinci sütununda "əyirmə" sözü "əyrilmə" sözü ilə əvəz edilsin;

1.136. 5506 40 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "polioropilen" sözü "polipropilen" sözü ilə əvəz edilsin;

1.137. 5509 32 000 0 alt yarımmövqeyinin altındakı sətrin ikinci sütununda "ipliklər" sözü "iplik" sözü ilə əvəz edilsin;

1.138. 5509 42 000 0 alt yarımmövqeyinin altındakı sətrin ikinci sütununda "liflərdən" sözü "lifdən" sözü ilə əvəz edilsin;

1.139. 5513 və 5514 mal mövqelərinə, 5515 11 və 5515 91 yarımmövqelərinə aid sətirlərin, 5516 14 000 0 alt yarımmövqeyinin altındakı sətrin ikinci sütunlarında "yalnız" sözü "tamamilə" sözü ilə əvəz edilsin;

1.140. 5513 11 200 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "eni 165 sm-dən çox olmayan" sözləri "eni 165 sm və ya daha az olan" sözləri ilə əvəz edilsin;

1.141. 5601 mal mövqeyinin altındakı sətrin ikinci sütununda "pambıq; pambıqdan digər məmulatlar:" sözləri "tekstil materiallardan pambıq və ondan məmulatlar:" sözləri ilə əvəz edilsin;

1.142. 5602 10 yarımmövqeyinə aid sətrin ikinci sütununda "və ya toxunmuş" sözləri "və toxunmuş" sözləri ilə əvəz edilsin;

1.143. 5603 14 yarımmövqeyinə aid sətrin ikinci sütununda "olmayan" sözü "olan" sözü ilə əvəz edilsin;

1.144. 5604 mal mövqeyinə aid sətrin ikinci sütununda "rezinlə və ya plastmasla hopdurulmuş və ya örtülmüş yastı tekstil saplar və 5404 və ya 5405 mal mövqeyindəki analoji saplar:" sözləri "rezinlə və ya plastmasla hopdurulmuş və ya örtülmüş tekstil saplar və ya 5404 və ya 5405 mal mövqeyindəki yastı və analoji saplar:" sözləri ilə əvəz edilsin;

1.145. 5605 00 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "Tekstil və ya yastı və ya 5404 və ya 5405 mal mövqeyindəki analoji sapla sap, zolaq və ya lent və ya toz şəklində metalla kombinasiya edilmiş və ya metalla örtülmüş, baftalı və ya baftasız, metallaşdırılmış sap" sözləri "Sap, zolaq və ya lent və ya toz şəklində olan metalla kombinasiya edilmiş və ya metalla örtülmüş tekstil sap və ya 5404 və ya 5405 mal mövqeyindəki yastı və analoji sap şəklində olan, baftalı və ya baftasız, metallaşdırılmış sap" sözləri ilə əvəz edilsin;

1.146. 5606 00 mal mövqeyinə aid sətrin ikinci sütununda "Baftalı və yastı sap və 5404 və 5405 mal mövqeyindəki analoji baftalı saplar (5605 mal mövqeyinə daxil olan və at tükündən baftalı sapdan başqa); sinel ipliyi (flokirlənmiş sinel də daxil olmaqla); fasonlu ilməli iplik:" sözləri "Baftalı sap və ya 5404 və ya 5405 mal mövqeyindəki yastı və analoji baftalı sap (5605 mal mövqeyinə daxil olan və at tükündən baftalı sapdan başqa); sinel ipliyi (flokirlənmiş sinel də daxil olmaqla); fasonlu ilməli iplik:" sözləri ilə əvəz edilsin;

1.147. 5607 mal mövqeyinin altındakı sətrin ikinci sütununda "Adave" sözü "Agave" sözü ilə əvəz edilsin;

1.148. 5607 50 110 0 alt yarımmövqeyindən əvvəlki sətrin ikinci sütununda "sıxlıqlı" sözü "sıxlığı" sözü ilə əvəz edilsin;

1.149. 5702 31 100 0, 5702 32 100 0, 5702 41 100 0 və 5702 42 100 0 alt yarımmövqelərinə aid sətirlərin ikinci sütununda "aksiminter" sözü "aksiminster" sözü ilə əvəz edilsin;

1.150. 5704 mal mövqeyinə aid sətrin ikinci sütununa "flokirlənməmiş" sözündən sonra vergül işarəsi əlavə edilsin;

1.151. 5804 mal mövqeyinə aid sətrin ikinci sütununda "Maşınla və ya əllə toxunmuş trikotaj parçalar istisna olmaqla," sözləri "Maşınla və ya əllə toxunmuş parçalar, trikotaj parçalar istisna olmaqla," sözləri ilə əvəz edilsin;

1.152. 5805 00 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "Hazır və ya tamamlanmamış belçika, obyüsson, bove tipli əllə toxunmuş qobelenlər və analoji qobelenlər və iynə ilə naxış tikməli qobelenlər (məsələn, sıx naxışlı, xaçşəkilli)" sözləri "Hazır və ya tamamlanmamış, belçika, obyüsson, bove və analoji tipli əllə toxunmuş qobelenlər və iynə ilə naxış tikməli qobelenlər (məsələn, sıx naxışlı, xaçşəkilli)" sözləri ilə əvəz edilsin;

1.153. 6110 20 100 0 və 6110 30 100 0 alt yarımmövqeyinə aid sətirlərin ikinci sütununda "toxunmuşlu" sözü "toxunuşlu" sözü ilə əvəz edilsin;

1.154. 6212 20 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "kəmər-tumanlar" sözləri "korset tumanlar" sözləri ilə əvəz edilsin;

1.155. 6302 22 100 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütunundan "digər" sözü çıxarılsın;

1.156. 6306 mal mövqeyinin altındakı sətrin ikinci sütununda "brezentlət" sözü "brezentlər" sözü ilə əvəz edilsin;

1.157. 6505 00 yarımmövqeyinə aid sətrin ikinci sütununda "şlapalar" sözü "slyapalar" sözü ilə əvəz edilsin;

1.158. 6505 00 100 0 və 6506 99 100 0 alt yarımmövqelərinə aid sətirlərin ikinci sütununda "yun fetrdən və xəzdən" sözləri "xəzli yun fetrdən" sözləri ilə əvəz edilsin;

1.159. 6808 00 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "miçarağzıdan" sözü "mişarağzıdan" sözü ilə əvəz edilsin;

1.160. 6904 mal mövqeyinə aid sətrin ikinci sütununda "daşıyıcı" sözü "dayaq" sözü ilə əvəz edilsin;

1.161. 6907 22 yarımmövqeyinə aid sətrin ikinci sütununda "0,5 kütlə %-dən çox olmayan" sözləri "0,5 kütlə %-dən çox olan" sözləri ilə əvəz edilsin;

1.162. 6907 23 yarımmövqeyinə aid sətrin ikinci sütununda "0,5 kütlə %-dən çox olmayan" sözləri "10 kütlə %-dən çox olan" sözləri ilə əvəz edilsin;

1.163. 7003 12 yarımmövqeyinə aid sətrin ikinci sütunundan "və ya olmayan" sözləri çıxarılsın;

1.164. 7007 11, 7007 21 yarımmövqelərinə və 7007 21 200 0 alt yarımmövqeyinə aid sətirlərin ikinci sütununda "imkanı" sözü "imkan" sözü ilə əvəz edilsin;

1.165. 7010 mal mövqeyinə aid sətrin ikinci sütunundan "qoruyucu" sözü çıxarılsın;

1.166. 7104 mal mövqeyinə aid sətrin ikinci sütununda "qiymətli" və "salınmamış" sözlərindən sonra "və" sözü "və ya" sözləri ilə əvəz edilsin;

1.167. 7106 mal mövqeyinə aid sətrin ikinci sütununda "şəkində" sözü "şəkildə" sözü ilə əvəz edilsin;

1.168. 7116 20 110 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "qolbağılar" sözü "qolbaqlar" sözü ilə əvəz edilsin;

1.169. 7202 30 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütunundakı "ferrosilikomanqan" sözü "ferrosilisiummanqan" sözü ilə əvəz edilsin;

1.170. 7210 50 000 0 və 7210 70 100 0 alt yarımmövqelərinə aid sətirlərin ikinci sütununda "xrom oksidi" sözləri "xrom oksidləri" sözləri ilə əvəz edilsin;

1.171. 7210 70 100 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "ağ tənəkə və ya" sözləri "ağ tənəkə və" sözləri ilə əvəz edilsin;

1.172. 7212 50 300 0, 7212 50 400 0, 7212 50 610 0 alt yarımmövqelərinə aid sətirlərin və 7212 50 400 0 alt yarımmövqeyinin altındakı sətrin ikinci sütununda "çür" sözü "cür" sözü ilə əvəz edilsin;

1.173. 7222 20 190 0 alt yarımmövqeyinin altındakı sətrin ikinci sütununda "az olmayan" sözləri "az olan" sözləri ilə əvəz edilsin;

1.174. 7314 mal mövqeyinə aid sətrin ikinci sütununda "tor" sözü "torlar" sözü ilə əvəz edilsin;

1.175. 7418 mal mövqeyinə aid sətrin ikinci sütununda "Süfrə, mətbəx məmulatları və ya digər məişət ehtiyacları üçün məmulatlar və onların misdən olan hissələri; mətbəx qablarının təmizlənməsi üçün liflər, pardaqlama və ya təmizləmə üçün yastıqcıqlar, əlcəklər və misdən olan analoji məmulatlar; sanitar-texniki avadanlıq və onun misdən olan hissələri:" sözləri "Misdən süfrə, mətbəx məmulatları və ya digər məişət ehtiyacları üçün məmulatlar və onların hissələri; misdən mətbəx qablarının təmizlənməsi üçün liflər, pardaqlama və ya təmizləmə üçün yastıqcıqlar, əlcəklər və analoji məmulatlar; misdən sanitar-texniki avadanlıq və onun hissələri:" sözləri ilə əvəz edilsin;

1.176. 7602 00 110 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "yonqarları" sözü "yonqarı" sözü ilə əvəz edilsin;

1.177. 7806 00 100 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "saxlanması" sözü "saxlanılması" sözü ilə əvəz edilsin;

1.178. 8007 00 100 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "çox olmayan" sözləri "çox olan" sözləri ilə əvəz edilsin;

1.179. 8205 mal mövqeyinə aid sətrin ikinci sütununda "Başqa yerdə adları çəkilməyən və ya daxil olunmayan əl alətləri (almaz şüşəkəsənlər daxil olmaqla); dəzgah detallarından və ləvazimatlarından başqa, lehimləmə lampaları; məngənələr, sıxaclar və analoji məmulatlar; dəmirçi zindanları, daşınan kürələr (dəmirçi ocaqları); əl və ya ayaq ötürücüsü ilə dayaq konstruksiyalı cilalayıcı dairələr:" sözləri "Başqa yerdə adları çəkilməyən və ya daxil olunmayan əl alətləri (almaz şüşəkəsənlər də daxil olmaqla); lehimləmə lampaları; dəzgahların və ya su şırnaqlı kəsici maşınların ləvazimatlarından və hissələrindən başqa, məngənələr, sıxaclar və analoji məmulatlar; dəmirçi zindanları; daşınan kürələr (dəmirçi ocaqları); əl və ya ayaq ötürücüsü ilə dayaq konstruksiyalı cilalayıcı dairələr:" sözləri ilə əvəz edilsin;

1.180. 8209 00 mal mövqeyinə aid sətrin ikinci sütununda "Lövhələr, kiçik tirlər, ucluqlar və alətlər üçün analoji məmulatlar, üzərində quraşdırılmamış, metal-keramikadan:" sözləri "Alətlərin üzərinə quraşdırılmamış, metal-keramikadan lövhələr, kiçik tirlər, ucluqlar və alətlər üçün analoji məmulatlar:" sözləri ilə əvəz edilsin;

1.181. 8211 mal mövqeyinə aid sətrin ikinci sütununda "8208 mal mövqeyinin bıçaqlarından və onlar üçün tiyələrdən başqa, kəsici tiyələri olan bıçaqlar, mişarabənzər və ya yox (ağacların kəsilməsi üçün bıçaqlar daxil olmaqla):" sözləri "8208 mal mövqeyinin bıçaqlarından başqa, kəsici tiyələri mişarabənzər olan və ya olmayan bıçaqlar (ağacların kəsilməsi üçün bıçaqlar da daxil olmaqla) və onlar üçün tiyələr:" sözləri ilə əvəz edilsin;

1.182. 8301 mal mövqeyinə aid sətrin ikinci sütununda "(açarla, kod kombinasiyası və ya elektriklə işləyən)" sözlərindən sonra vergül işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

1.183. 8303 00 yarımmövqeyinə aid sətrin ikinci sütununda "Zirehli və ya gücləndirilmiş odadavamlı dolablar, seyflər və qapılar və bank xəzinələrində qiymətli əşyaların təhlükəsiz saxlanması üçün kilidlənən yeşiklər, xüsusi olaraq pulların və sənədlərin saxlanması üçün yeşiklər və qiymətsiz metallardan hazırlanmış analoji məmulatlar:" sözləri "Qiymətsiz metallardan hazırlanmış zirehli və ya gücləndirilmiş odadavamlı dolablar, seyflər və qapılar və bank xəzinələrində qiymətli əşyaların təhlükəsiz saxlanması üçün kilidlənən yeşiklər, xüsusi olaraq pulların və sənədlərin saxlanması üçün yeşiklər və analoji məmulatlar:" sözləri ilə əvəz edilsin;

1.184. 8304 00 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "9403 mal mövqeyinin kontor mebelindən başqa, dosyelər üçün dolablar, kartoteka dolabları, kağız qutuları, kağız üçün altlıqlar, qələm qutuları, möhür altlıqları və ya qiymətsiz metallardan analoji kontor və ya dəftərxana avadanlığı" sözləri "9403 mal mövqeyinin kontor mebelindən başqa, qiymətsiz metallardan hazırlanmış dosyelər üçün dolablar, kartoteka dolabları, kağız qutuları, kağız üçün altlıqlar, qələm qutuları, möhür altlıqları və ya qiymətsiz metallardan analoji kontor və ya dəftərxana avadanlığı" sözləri ilə əvəz edilsin;

1.185. 8308 mal mövqeyinə aid sətrin ikinci sütununda "zərgərlik məmulatları" sözləri "zərgərlik məmulatları" sözləri ilə və "əl saatları" sözləri "qol saatları" sözləri ilə əvəz edilsin və həmin sütundan "çantalar," sözü çıxarılsın;

1.186. 8309 mal mövqeyinə və 8310 00 000 0 alt yarımmövqeyinə aid sətirlərin ikinci sütununda "Qiymətsiz metallardan" sözləri cümlənin əvvəlinə keçirilsin;

1.187. 8414 mal mövqeyinə aid sətrin ikinci sütununa "filtrsiz" sözündən sonra vergül işarəsi əlavə edilsin;

1.188. 8422 30 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "tubiklərin" sözü "tübiklərin" sözü ilə əvəz edilsin;

1.189. 8423 10 yarımmövqeyinə aid sətrin ikinci sütununda "adam" sözü "insan" sözü ilə əvəz edilsin;

1.190. 8431 10 000 0 və 8431 20 000 0 alt yarımmövqelərinə aid sətirlərin ikinci sütununda "mexanizmlərin" sözü "mexanizmlərinin" sözü ilə əvəz edilsin;

1.191. 8432 10 000 0 alt yarımmövqeyinin altındakı sətrin ikinci sütununda "alaqaparanlar, kərkilər:" sözləri "alaqaparanlar və kərkilər:" sözləri ilə əvəz edilsin;

1.192. 8432 31 yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| | – – – toxumsəpənlər: | | |

1.193. 8432 31 110 0, 8432 31 190 0 və 8432 31 900 0 alt yarımmövqelərinə aid sətirlərin ikinci sütunlarına bir "–" işarəsi əlavə edilsin;

1.194. 8436 mal mövqeyinə aid sətrin ikinci sütunundan "digər" sözü çıxarılsın və "üçün" sözündən sonra "digər" sözü əlavə edilsin;

1.195. 8442 mal mövqeyinə aid sətrin ikinci sütununda "və digər" sözləri "və ya digər" sözləri ilə əvəz edilsin;

1.196. 8443 mal mövqeyinə aid sətrin ikinci sütununa "birləşdirilməmiş" sözündən sonra vergül işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

1.197. 8443 11 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütunundan "rulonlu" sözü çıxarılsın və həmin sətrə "üçün" sözündən sonra "rulonlu" sözü əlavə edilsin;

1.198. 8443 13 yarımmövqeyinə aid sətrin ikinci sütunundan "digər" sözü çıxarılsın və həmin sətrə "üçün" sözündən sonra "digər" sözü əlavə edilsin;

1.199. 8443 91 100 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "mal mövqeyinin" sözləri "alt yarımmövqeyinin" sözləri ilə əvəz edilsin;

1.200. 8447 20 yarımmövqeyinə aid sətrin dördüncü sütunundan "0" rəqəmi çıxarılsın;

1.201. 8451 mal mövqeyinə aid sətrin ikinci sütununda "8450 mövqeyinin" sözləri "8450 mal mövqeyinin" sözləri ilə əvəz edilsin;

1.202. 8460 22, 8460 23 və 8464 20 yarımmövqelərinə, 8461 mal mövqeyinə və 8465 93 000 0 alt yarımmövqeyinə aid sətirlərin ikinci sütununda "cilalalama" sözü "cilalama" sözü ilə əvəz edilsin;

1.203. 8466 mal mövqeyinə aid sətrin ikinci sütununda "Avadanlıq üçün digər xüsusi qurğular daxil olmaqla yalnız və əsasən 8456-8465 mal mövqelərinin avadanlığı üçün hissələr və ləvazimatlar, alətin və ya detalların bərkidilməsi üçün qurğular, özüaçılan yivaçan başlıqlar, bölücü başlıqlar; bütün növ əl alətləri üçün iş alətlərinin bərkidilməsi üçün qurğular:" sözləri "Alətin və ya detalların bərkidilməsi üçün qurğular, özüaçılan yivaçan başlıqlar, bölücü başlıqlar və avadanlıq üçün digər xüsusi qurğular da daxil olmaqla, yalnız və ya əsasən 8456-8465 mal mövqelərinin avadanlığı üçün hissələr və ləvazimatlar; bütün növ əl alətləri üçün iş alətlərinin bərkidilməsi üçün qurğular:" sözləri ilə əvəz edilsin;

1.204. 8473 mal mövqeyinə və 8473 50 yarımmövqeyinə aid sətirlərin ikinci sütununda "8469" rəqəmi "8470" rəqəmi ilə əvəz edilsin;

1.205. 8480 mal mövqeyinə aid sətrin ikinci sütunundan "(külçələrin tökülməsi üçün qəliblərdən başqa)" sözləri çıxarılsın və həmin sütuna "metalların" sözündən sonra "(külçələrin tökülməsi üçün qəliblərdən başqa)" sözləri əlavə edilsin;

1.206. 8481 10 050 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "filtirlərlə" sözü "filtrlərlə" sözü ilə əvəz edilsin;

1.207. 8483 40 yarımmövqeyinə aid sətrin ikinci sütunundan "ayrıca təqdim olunmuş" sözləri çıxarılsın və həmin sütuna "ötürmə" sözündən əvvəl "ayrıca təqdim olunmuş" sözləri əlavə edilsin;

1.208. 8486 mal mövqeyinə aid sətrin ikinci sütununda "hissələri və ləvazimatları" sözləri "hissələr və ləvazimatlar" sözləri ilə əvəz edilsin;

1.209. 8487 mal mövqeyinə aid sətrin ikinci sütununa "makaraları" sözündən sonra "və digər elektrik detalları" sözləri əlavə edilsin;

1.210. 8517 62 000 alt yarımmövqeyinə aid sətrin dördüncü sütunundan "5" rəqəmi çıxarılsın;

1.211. 8517 62 000 1 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "səsin, təsvirin və ya başqa məmulatların qəbul edilməsi, çevrilməsi və ötürülməsi və ya bərpası üçün maşınlar, kommutasiya qurğuları və marşrutizatorlar" sözləri "telefon və teleqraf əlaqəsi üçün kommutasiya qurğuları və aparıcı tezliklə naqilli rabitə aparaturaları" sözləri ilə əvəz edilsin;

1.212. 8519 50 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "avtocavablandırıcı" sözü "telefon avtocavablandırıcıları" sözləri ilə əvəz edilsin;

1.213. 8528 52 100 0 alt yarımmövqeyindən əvvəlki sətrin birinci sütununda "8428 52" rəqəmi "8528 52" rəqəmi ilə əvəz edilsin;

1.214. 8535 mal mövqeyinə aid sətrin ikinci sütununda "1000 V-dan az" sözləri "1000 V-dan çox" sözləri ilə əvəz edilsin;

1.215. 8536 mal mövqeyinə aid sətrin ikinci sütununda "1000 V-dan çox" sözləri "1000 V-dan çox olmayan" sözləri ilə əvəz edilsin;

1.216. 8547 10 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "armaturalası" sözü "armaturası" sözü ilə əvəz edilsin;

1.217. 8703 40 609 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "ddigərləri" sözü "digərləri" sözü ilə əvəz edilsin;

1.218. 8714 92 yarımmövqeyinə aid sətrin ikinci sütununda "cənbərlər" sözü "çənbərlər" sözü ilə əvəz edilsin;

1.219. 8716 10 980 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "3500 kq-dan" sözləri "1600 kq-dan" sözləri ilə əvəz edilsin;

1.220. 9006 59 000 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin;

| | | | |
|---|---|---|---|
| 9006 59 000 0 | – – digərləri | ədəd | 15 |

1.221. 9018 50 yarımmövqeyinə aid sətrin ikinci sütununda "digət" sözü "digər" sözü ilə əvəz edilsin;

1.222. 9207 mal mövqeyinə aid sətrin ikinci sütununda "cıxarıldığı" sözü "çıxarıldığı" sözü ilə əvəz edilsin;

1.223. 9209 99 500 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "sandıqçalarının" sözü "sandıqçaların" sözü ilə əvəz edilsin;

1.224. 9601 mal mövqeyinə aid sətrin ikinci sütununda "bağa" sözü "tısbağa" sözü ilə əvəz edilsin;

1.225. 9608 mal mövqeyinə aid sətrin ikinci sütununda "cubuqla" sözü "çubuqla" sözü ilə, "qələmuçu" sözü hər iki halda "qələmucu" sözü ilə əvəz edilsin;

1.226. 9608 20 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "olaq" sözü "olan" sözü ilə əvəz edilsin;

1.227. 9608 91 000 0 alt yarımmövqeyindən əvvəlki sətrin ikinci sütununda "qələmucular" sözü "qələmucları" sözü ilə əvəz edilsin;

1.228. "Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturası"nın 87-ci qrupuna aid qeydlər hissəsinə aşağıdakı məzmunda "Əlavə qeydlər:" əlavə edilsin:

"Əlavə qeydlər:

a) "Zavod buraxılış tarixi" – nəqliyyat vasitəsinin istehsal olunduğu ili, ayı və günü bildirir.

b) "İstismar olunmuş" – 8701; 8702; 8703; 8704; 8705 və 8716 mal mövqeləri üzrə yürüş məsafəsindən asılı olmayaraq, zavod buraxılış tarixindən 1 (bir) il və ya daha çox ili ötmüş avtonəqliyyat vasitələrinə şamil edilir.".

**Novruz MƏMMƏDOV**
**Azərbaycan Respublikasının Baş Naziri**



# Bakıda "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu keçirilir

***İyulun 11-də Azərbaycan İlahiyyat İnstitutu, İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi və AMEA-nın akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun təşkilatçılığı ilə Bakıda "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu öz işinə başlayıb. Simpozium iştirakçıları Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.***

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, "Əbədi məşəl" abidəsi önünə əklil qoyublar.

Tədbir iştirakçıları əvvəlcə Azərbaycanın tarixi-dini abidələri haqqında fotosərgi ilə tanış olublar.

Simpoziumun açılış mərasimində Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciətini oxuyub. ***(Müraciətin mətni qəzetin bugünkü nömrəsində dərc olunur).***

Tədbirdə açılış nitqi ilə çıxış edən AİI-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov İslamın Qafqaz xalqlarının həyatında tutduğu əhəmiyyətli mövqeyə, həmçinin qafqazlı alim və mütəfəkkirlərin İslam sivilizasiyasına bəxş etdikləri töhfələrə toxunub. O, İslama dərindən bələd olan ümummilli lider Heydər Əliyevin birbaşa təşəbbüsü ilə 1998-ci il dekabrın 9-11-də Bakıda "İslam Sivilizasiyası Qafqazda" I Beynəlxalq Simpoziumunun keçirildiyini nəzərə çatdırıb.

AİI-nin rektoru daha sonra qeyd edib ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dini dəyərlərə hörmət və qayğını, həmçinin dinlərarası tolerantlıq və multikultural ənənələrin təbliğinə əsaslanan bu nəcib siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir.

Ceyhun Məmmədov Azərbaycanın dünyada tolerantlıq və multikulturalizm ideyalarını təbliğ və tətbiq edən nümunəvi bir ölkə kimi tanındığını vurğulayıb. Bildirib ki, bu ideyaların təbliğində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xidmətləri xüsusi olaraq vurğulanmalıdır.

Azərbaycanda nümunəvi dövlət-din münasibətlərinin olduğunu bildirən Ceyhun Məmmədov ölkəmizdə çox sayda məscid, kilsə və sinaqoqun dövlət vəsaiti hesabına tikilib, həmçinin təmir edildiyini diqqətə çatdırıb: "Qafqazın ən böyük məscidi olan "Heydər məscidi"nin inşa edilib inanclı insanların istifadəsinə verilməsi, din sahəsində peşəkar kadrların hazırlanması məqsədilə Azərbaycan İlahiyyat İnstitutunun yaradılması, dini-mənəvi sferaya dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədilə Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması bunun ən bariz nümunələrindəndir".

Ceyhun Məmmədov nitqində İslam sivilizasiyasının inkişafında qafqazlı, xüsusən də azərbaycanlı alimlərin özünəməxsus yerini vurğulayaraq, məşhur İslam alimləri haqqında bəhs edib.

On iki ölkədən alim və tədqiqatçıların iştirak etdiyi simpoziumun Qafqazda İslam sivilizasiyasının tədqiqinə töhfə verəcəyini vurğulayan AİI-nin rektoru tədbirə uğurlar arzulayıb.






İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin Baş direktoru Halit Eren qloballaşma dövründə ksenofobiyanın mədəniyyətlər və dinlər arasında dialoqun inkişafına ciddi təhdid olduğunu vurğulayaraq bildirib ki, bu meyil dünyada sülhün və sabitliyin pozulmasında maraqlı olan radikal, terrorçu qüvvələr tərəfindən dəstəklənir. Bu təhdidin qarşısını almaq üçün tolerantlığın, dialoqun, əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi böyük əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycanın rolu xüsusi vurğulanmalıdır. Azərbaycan İslam dünyasının bir parçası olduğundan, onun mədəniyyətində ərəb, İslam ünsürləri daha gözəçarpandır. Ona görə də İslam sivilizasiyasının Qafqazda yayılması, ilk növbədə, Azərbaycanla bağlı olduğundan, belə bir tədbirin burada reallaşması çox məqsədəuyğundur.

Halit Eren "İslam sivilizasiyası Qafqazda" mövzusunda ikinci dəfə keçirilən Beynəlxalq Simpoziumun təşkilatçısı olmaqdan xüsusi qürur duyduğunu nəzərə çatdırıb.

Milli Məclisin deputatı, AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun keçirilməsini əlamətdar hadisə adlandırıb. Qeyd edib ki, İslam dini Azərbaycanda yayıldığı vaxtdan dərin kök salıb, insanların davranışına, düşüncəsinə, mənəviyyat və mədəniyyətinə müəyyənedici təsir göstərib.

Qafqazın nadir bölgə olduğunu vurğulayan Gövhər Baxşəliyeva bildirib ki, bu region öz təbiətinə, coğrafi mövqeyinə və qədim zamanlardan məskunlaşmış, minillərboyu yaşamış insanlarının xüsusiyyətinə görə xarakterizə oluna bilər. Prezident İlham Əliyevin sərəncamı ilə 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edildiyini xatırladan akademik Gövhər Baxşəliyeva dahi şairin irsinin öyrənilməsində İslam dinini bilməyin vacib olduğunu vurğulayıb. Simpoziumun mövzusunun aktual olduğunu deyən akademik burada dinlənilən məruzələrin və aparılacaq müzakirələrin İslam sivilizasiyasının tədqiqinə töhfə verəcəyinə əmin olduğunu söyləyib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İslam sivilizasiyasının Qafqaz xalqlarına bəxş etdiyi dəyərli töhfələri xüsusi vurğulayıb. Qeyd edib ki, Qafqaz xalqlarının, demək olar, əksəriyyəti İslam dininə ibadət edir. İslam Qafqaz xalqlarına səadət, xoşbəxtlik, inkişaf, islami dəyərlər bəxş edib. İslam dini-mənəvi dəyərləri Qafqaz xalqlarının həyatında mühüm rol oynayır.

Mübariz Qurbanlı bildirib ki, ötən əsrin 90-cı illərində Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi vaxtda respublikamızda insan hüquq və azadlıqlarının təmin edilməsində, xalqımızın milli-mənəvi dəyərlərinin, dinlərarası dialoqun və dini tolerantlıq ənənələrinin qorunub inkişaf etdirilməsində mühüm addımlar atılıb, dini etiqad azadlığı tam şəkildə təmin edilib. Ulu öndərin dövlətçilik prinsiplərini uğurla davam etdirən Prezident İlham Əliyev sabitliyə və tolerantlığa əsaslanan dövlət-din münasibətlərinin möhkəmləndirilməsi üçün əvəzolunmaz xidmətlər göstərməkdədir. Bu gün Azərbaycan İslam mədəni irsinin qorunub saxlanmasında və dünyaya olduğu kimi çatdırılmasında önəmli məkanlardan biri kimi tanınır. Prezident İlham Əliyev tərəfindən 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi sülhə, dostluğa, qarşılıqlı hörmətə, birgəyaşayışa çağırış və töhfədir. Azərbaycan nümunəsində dünyaya göstərildi ki, müxtəlif dinlərin, millətlərin, etnik qrupların nümayəndələri bir ölkədə rahat şəkildə yaşaya bilər. Paytaxt Bakı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Beynəlxalq Humanitar Forum və digər bu kimi böyük beynəlxalq tədbirlərə evsahibliyi edir.

Müasir dünyada irqçilik, ksenofobiya, islamofobiya təzahürlərinin getdikcə gücləndiyini deyən Mübariz Qurbanlı Azərbaycan dövlətinin çox məsuliyyətli missiyanı öz üzərinə götürərək, müsəlman ölkələri arasında həmrəyliyin bərqərar olması və dünyada İslam dəyərlərinin təbliği üçün ardıcıl iş apardığını bildirib. Xatırladıb ki, Azərbaycan Prezidentinin 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi ili" elan edilməsi haqqında sərəncamı bütün müsəlman aləminə və dünyaya xoşməramlı mesaj oldu.

Komitə sədri İslam dininin təkcə Azərbaycanda və Qafqazda deyil, bütün dünyada sülhün və əmin-amanlığın təmin olunmasında, qardaşlıq, dostluq münasibətlərinin qurulmasında əvəzsiz rol oynayacağına əminliyini bildirib, bu dinin doğru mənbələrdən araşdırılmasının, öyrənilməsinin və olduğu kimi təbliğ olunmasının zəruriliyini qeyd edib və simpoziumun məhz buna xidmət etdiyini vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Salman Musayev vurğulayıb ki, ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədədir. Bu gün ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması və təbliği, dini radikalizmə qarşı mübarizə istiqamətində aparılan işlər, əldə olunan uğurlar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Qafqaz Müsəlmanları İdarəsinin birgə əməkdaşlığı və fəaliyyəti nəticəsində mümkün olub.

Salman Musayev dini konfessiyalara ulu öndər Heydər Əliyevin diqqət və qayğısından danışaraq bildirib ki, müstəqil Azərbaycanda tolerantlığın və dinlərarası dialoqun əsasları məhz ümummilli lider tərəfindən müəyyənləşdirilib. Hazırda bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. Bugünkü tədbir Heydər Əliyev ideyalarının davamı olaraq böyük önəm kəsb edir. Bu simpozium ölkəmizin İslam tarixində və coğrafiyasında tutduğu önəmli məqama, İslamın Qafqaza, ətraf ərazilərə yayılmasında Azərbaycanın tarixi roluna verilən dəyərdir. Bu, həm də dövlətimizin İslam dəyərlərinə diqqət və qayğısının bariz nümunəsidir.

"29 Mayıs" Universiteti Himayəçilər Şurasının sədri, professor Tayyar Altıkulaç Azərbaycanda dini etiqad azadlığının təmin olunmasından, dövlətin dinə qayğısından məmnunluğunu ifadə edib. Bildirib ki, Azərbaycan tolerantlıq mühiti ilə nəinki Qafqaz regionunda, həm də dünyada seçilir. Azərbaycanda insanların milli-mənəvi dəyərlərə bağlılığı, dövlət-din münasibətlərinin yüksək səviyyədə qurulması təqdirəlayiqdir.

"İzmir Katip Çelebi" Universitetinin rektoru, professor Saffet Köse qeyd edib ki, sovet dövründə Azərbaycanda ateizm dərsləri keçirilsə də, xalq öz dini inancını qoruyub və müstəqilliyinə qovuşduqdan sonra islami dəyərlərin təbliğini bərpa edib. Azərbaycanda din təhsili sahəsində mühüm addımlar atılıb. Azərbaycan İlahiyyat İnstitutunun yaradılması nəinki bu ölkə, bütövlükdə Qafqaz üçün çox önəmlidir. Azərbaycan tolerant ölkədir. Bu da onu Qafqazda multikultural dəyərlərin qorunduğu mərkəzə çevirir.

Rusiyanın Moskva İslam İnstitutunun rektoru, professor Damir Muxetdinov Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin və Rusiya Müftilər Şurasının sədri, Rusiya Federasiyası Prezidenti yanında Dini Birliklərlə Qarşılıqlı Fəaliyyət Şurasının üzvü müfti şeyx Ravil Qaynutdinin Simpozium iştirakçılarına ünvanlanmış məktubunu oxuyub.

Çıxış edənlər II Beynəlxalq Simpoziumun Qafqazda İslam sivilizasiyasının yayılması tarixinin elmi şəkildə öyrənilməsi və bu tarixin aktual problemlərinin obyektiv araşdırılması istiqamətində xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə çatdırıblar.

Qonaqlar, həmçinin simpoziumun keçirilməsini aktual hesab edib, təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

Tədbirdə Azərbaycan İlahiyyat İnstitutunun tanıtım çarxı nümayiş etdirilib. Beynəlxalq simpoziumun iştirakçıları xatirə şəkli çəkdiriblər.

Simpozium öz işini panellərlə davam etdirib. Panellərdə Türkiyə, Rusiya, Gürcüstan, İran, Ukrayna, Qazaxıstan, Özbəkistan, Moldova, ABŞ, Avstraliya, Misir, Səudiyyə Ərəbistanı və Qafqazda İslam sivilizasiyası mövzusu üzrə fəaliyyət göstərən alim, tədqiqatçı və ekspertlər çıxış ediblər.

İki gün davam edəcək simpozium "İslam mədəniyyətinin Qafqazda dini və ictimai-mədəni həyata təsiri", "Qafqazda İslam elmlərinin inkişafı", "Qafqazda İslam memarlığı, incəsənəti və ədəbiyyatı", "Azərbaycanda tolerantlıq və multikultural ənənələrin möhkəmləndirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolu", "Qafqazda İslamın yayılması", "Qafqazda multikulturalizm", "İslam sivilizasiyası Qafqazda" araşdırma və təlim sahəsi kimi: metodoloji məsələlər, tarixi mənbələr, sənədlər və artefaktlar, mövzu üzrə akademik əməkdaşlıq", "Qafqazda din təhsilində məscid, mədrəsə və xanəgahların rolu", "Çar Rusiyasının Qafqazda İslam siyasəti", "Qafqaz alimlərinin İslam dünyasında dəqiq, təbiət və humanitar elmlərin inkişafında rolu" adlı panelləri əhatə edir.

Konfransın materialları kitab şəklində çap olunacaq.

**AZƏRTAC**

# Avropa Şurasının insan hüquqları üzrə komissarı Baş Prokurorluqda olub

**Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov ölkəmizdə səfərdə olan Avropa Şurasının insan hüquqları üzrə komissarı xanım Dunya Miyatoviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Zakir Qaralov Avropa Şurası ilə əməkdaşlığa böyük önəm verdiyini xüsusi vurğulayaraq, müstəqilliyin bərpasından sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülmüş məqsədyönlü işlər barədə ətraflı məlumat verib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə məhkəmə-hüquq islahatlarının uğurla davam etdirildiyini bildirən Baş prokuror müasir dövrün tələblərinə cavab verən ədalət mühakiməsi sisteminin formalaşdırılması, "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin sərəncamının icrası ilə əlaqədar Cinayət Məcəlləsinə edilmiş dəyişikliklər, eləcə də "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli fərmanından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində görülmüş işlər barədə qonaqları məlumatlandırıb.

Xalqımızın ağrılı yeri olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində ölkəmizin ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olması, bir milyondan artıq qaçqın və məcburi köçkünlərimizin doğma yurdlarından didərgin düşməsini qeyd edən Baş prokuror Ermənistanın işğalına məruz qalmış ərazilərimizdə qondarma "məhkəmələrin" qurulduğunu bildirib, Dilqəm Əsgərovun və Şahbaz Quliyevin doğma torpağında casus adı ilə həbs edilərək əsirlikdə saxlanılmasının insan hüquqlarının pozuntusunun bariz nümunəsi olduğunu Dunya Miyatoviçin diqqətinə çatdırıb.

Ölkəmizlə bağlı xoş təəssüratlarını bildirən xanım Dunya Miyatoviç Avropa Şurasının insan hüquqları üzrə komissarı vəzifəsində Azərbaycana ilk səfərindən məmnunluğunu ifadə edib. O, qaçqınların və məcburi köçkünlərin üzləşdikləri çətinliklərin həlli istiqamətində səylərini əsirgəməyəcəyini vurğulayıb, Avropa İnsan Hüquqları Konvensiyasının müəyyən etdiyi standartlar, eləcə də ölkəmizdə vəkillərin fəaliyyəti ilə bağlı danışıb.

Söhbət zamanı, həmçinin dövlətimizin beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına sadiqliyinin bariz nümunəsi kimi prokurorluq orqanları tərəfindən cinayət işlərinin istintaqı, dövlət ittihamının müdafiəsinin və qanunların icrasına nəzarətin həyata keçirilməsi sahəsində fəaliyyəti zamanı insan hüquq və azadlıqlarının qorunmasının əsas prioritet olması qonağın nəzərinə çatdırılıb.

Görüşdə maraq kəsb edən sahələr üzrə səmərəli fəaliyyətin davam etdirilməsinin əhəmiyyəti vurğulanaraq digər konkret mövzular ətrafında faydalı fikir mübadiləsi aparılıb.

# Ədliyyə Nazirliyində görüş

***İyulun 11-də ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Avropa Şurasının insan hüquqları üzrə komissarı Dunya Miyatoviç ilə görüşüb.***



Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Avropa Şurası arasında səmərəli əməkdaşlığı vurğulayan nazir Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquqlarının təminatına xidmət edən məhkəmə-hüquq islahatları, məhkəmə infrastrukturunun müasirləşdirilməsi, elektron məhkəmənin tətbiqi, regional məhkəmələrin fəaliyyəti barədə məlumat verib. F.Məmmədov bu sahədə islahatların dövlətimizin başçısının 2019-cu il 3 aprel tarixli fərmanı ilə yeni mərhələdə davam etdirildiyini deyib.

İnsan hüquqları üzrə Avropa komissarı kimi ilk dəfə ölkəmizə səfərindən məmnunluğunu ifadə edən qonaq səfərin məqsədinin insan haqlarının, o cümlədən məcburi köçkünlərin hüquqlarının təmini sahəsində dəstək göstərmək olduğunu bildirib, məhkəmə-hüquq sistemindəki islahatları və yenilikləri maraqla qarşılayıb.

Səfər zamanı penitensiar müəssisələrə baş çəkmək üçün yaradılmış imkana görə minnətdarlığını bildirən xanım D.Miyatoviç Azərbaycan tərəfinin "açıq qapı" siyasətini qarşılıqlı əməkdaşlığın və etimadın yaxşı təzahürü kimi dəyərləndirib, cinayət qanunvericiliyinin dekriminallaşdırılması məsələsinə toxunub.

Komissar cəza siyasətinin humanistləşdirilməsinə dair dövlətimizin başçısının 2017-ci il 10 fevral tarixli sərəncamına əsasən, Cinayət Məcəlləsinə əsaslı dəyişikliklər olunaraq bir sıra əməllərin dekriminallaşdırıldığı, humanistləşdirmə tədbirlərinin bu gün də davam etdirildiyi barədə məlumatlandırılıb.

Görüşdə, həmçinin qanunvericiliyin təkmilləşdirilməsi, Avropa Məhkəməsinin qərarlarının icrası, bölgələrdə hüquq institutlarının inkişafı, vətəndaşlara göstərilən hüquqi yardımın keyfiyyətinin yüksəldilməsi, vəkillərin Ədliyyə Akademiyasında tədrisi və digər məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb, maraq doğuran suallara aydınlıq gətirilib.

Tədbirdə Avropa Şurasının Bakıdakı Ofisinin rəhbəri Zoltan Hernyes və Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov iştirak ediblər.

# Alman-Azərbaycan Xarici Ticarət Palatasının üzvləri Gömrük Komitəsində



**İyulun 11-də Dövlət Gömrük Komitəsində (DGK) Alman-Azərbaycan Xarici Ticarət Palatasının üzvləri ilə görüş keçirilib.**

DGK-nın Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, komitə sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin, sədr müavinləri və aidiyyəti qurumların rəhbərlərinin, Alman-Azərbaycan Xarici Ticarət Palatasının icraçı direktoru Tobias Baumann və palata üzvlərinin iştirakı ilə keçirilən görüşdə qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi, gömrük sahəsindəki yeniliklərlə bağlı məsələlər müzakirə edilib.

S.Mehdiyev Prezident İlham Əliyevin rəhbərliyi ilə gömrük sistemində həyata keçirilən islahatlar barədə məlumat verərək bildirib ki, ölkəmizdə ən müasir texnologiyalara, innovativ yeniliklərə, modern infrastruktura, çevik idarəçilik mexanizminə malik, nəzarətdən-xidmətə fəlsəfəsi əsasında fəaliyyət göstərən gömrük xidməti formalaşıb.

Vurğulayıb ki, həyata keçirilən islahatlar çərçivəsində vətəndaş-məmur təması minimuma endirilib, şəffaflığın, vətəndaş məmnuniyyətinin təmin olunması istiqamətində mühüm addımlar atılıb. Görülən işlərin nəticəsi olaraq istər fiskal, istərsə də hüquqpozmalara qarşı mübarizə sahəsində mühüm nailiyyətlər əldə olunub.

Qeyd edib ki, cari ilin fevralından etibarən tətbiq edilən "Yaşıl dəhliz" buraxılış sistemi idxal-ixrac əməliyyatlarının asanlaşdırılmasına, sərhədkeçmə proseslərinin sürətləndirilməsinə, sahibkarların vaxt və vəsait itkisinin azaldılmasına münbit şərait yaradıb.

S.Mehdiyev gömrük sistemində informasiya texnologiyalarından geniş şəkildə istifadə edildiyini, artıq blokçeyn texnologiyasının reallaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edib, eyni zamanda, yaxın vaxtlarda tətbiq ediləcək yeni layihə hesabına vətəndaşların və avtomobillərin internet vasitəsilə elektron qaydada növbə götürərək sərhəd-buraxılış məntəqələrini vaxt itirmədən, sürətli şəkildə keçməsinin təmin olunacağını diqqətə çatdırıb.

Alman-Azərbaycan Xarici Ticarət Palatasının icraçı direktoru T.Baumann mövcud əlaqələrdən məmnunluqla bəhs edib. Palata sədri gömrük sistemində aparılan islahatların beynəlxalq ticarətin inkişafına, sərhədkeçmə proseslərinin və gömrük prosedurlarının asanlaşdırılmasına şərait yaratdığını vurğulayıb və təmsil etdiyi qurumla Azərbaycan gömrük orqanları arasındakı əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyini önə çəkib.

Diskussiya şəraitində keçirilən görüşdə palata üzvlərinin təklifləri dinlənilib və onları maraqlandıran suallar ətraflı cavablandırılıb.

# "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpozium panellərlə davam edib




**❒ *İyulun 11-də Bakıda keçirilən "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu çərçivəsində panellər təşkil edilib.***

"İslam mədəniyyətinin Qafqazda dini və ictimai həyata təsiri" mövzusunda panel Türkiyənin "İzmir Katib Çelebi" Universitetinin rektoru Saffet Köse və Rusiya Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun Mərkəzi Asiya, Qafqaz və Ural-Volqa Tədqiqat Mərkəzinin elmi işçisi Şamil Kaşafın moderatorluğu ilə keçirilib.

Paneldə "Azərbaycanda İslam mədəniyyətinin təkamül yönləri", "Cənubi Qafqazda İslam mədəniyyətinin öyrənilməsində arxeoloji tədqiqatların rolu və əhəmiyyəti, "Xilafət dövründə Azərbaycanda pul dövriyyəsi və sikkə zərbi", "İslam dininin Azərbaycan şifahi xalq dastanlarının təşəkkülündə rolu", "Azərbaycanda tolerantlıq, dini və etnik rəngarənglik keçmişdən bu günə (Şirvanşahlar dövlətinin nümunəsində)", "Azərbaycanın XVIII – XX əsrin əvvəllərinə aid maddi-mədəni irsində inanc sistemi (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)", "Cənubi Azərbaycanın Xalxal bölgəsinin sosial-mədəni inkişafında dini müəssisələrin-zaviyələrin rolu (XVIII əsrin əvvəlləri)", "Müasir Azərbaycan ailə institutunun qorunmasında İslam dəyərlərinin rolu", "Azərbaycanın Sumqayıt şəhərində müasir dini durum" və digər mövzularda məruzələr dinlənilib.

"Qafqazda İslam elmlərinin inkişafı" mövzusunda ikinci paneldə Bilecik Universitetinin təsisçi rektoru, professor Azmi Özcan və İstanbul Universitetinin İlahiyyat fakültəsinin dekanı, professor Murteza Bedir moderatorluq edib.

Məruzəçilər "Axund Mir Məhəmməd Kərim Bakuvinin dini  vəhdət anlayışı və təmsiletmə təcrübəsi", "Naxçıvanın görkəmli İslam alimləri", "Qurani-Kərim"in Azərbaycan dilinə tərcümə edilməsində H.Z.Tağıyevin rolu", "Ərəb dilçiliyinin formalaşması və inkişafına İslamın təsiri", "Son dönəm Qafqaz alimlərindən Müslüm əl-Uradi", "Molla Sədra düşüncəsində fəlsəfə-din münasibəti" və digər mövzularda çıxışlar ediblər.

Günün birinci hissəsində "Qafqazda İslam memarlığı, incəsənəti və ədəbiyyatı" mövzusunda təşkil olunan sonuncu paneldə Moldova Elmlər Akademiyası Tarix, Dövlət və Hüquq İnstitutunun elmi işçisi, dosent Olqa Radova, ABŞ-ın Corciya Universitetinin Din kafedrasının müəllimi, dosent Alan Qodlas moderatorluq ediblər.

Paneldə "Azərbaycanda İslam dövrü keramikası", "Şirvani məktəbinə xas yazı mədəniyyəti", "Türkdilli Qafqaz xalqlarının incəsənəti və İslam sivilizasiyası", "İslami naxışlara elmi-məntiqi yanaşmada fəza təfəkkürünün rolu", "Nizami, Nəsimi, Füzuli və Mirzə Əbülxaliq Yusifin poetik obrazlarında emosional zəka", "Azərbaycanın işğal olunmuş ərazilərində erməni vandalizminə məruz qalmış ilk Orta əsrlər maddi mədəniyyət abidələri", "Gəncədə multikulturalizm ənənələrinin tədqiqində İslam dövrü tarixi-memarlıq abidələrinin əhəmiyyəti", "Dağıstan ərəb əlyazmalarının rəqəmsal arxivi: tədqiqat, təsvir və verilənlər bazası" və digər mövzularda məruzələr dinlənilib.

"İslam mədəniyyətinin Qafqazda dini və ictimai həyata təsiri" mövzusunda paneldə Ukraynanın "Ostroq Akademiyası" Milli Universitetinin İslamşünaslıq Mərkəzinin direktoru, tarix üzrə fəlsəfə doktoru Mixail Yakuboviç və Rusiyanın K.L.Xetaqurov adına Şimali Osetiya Dövlət Universitetinin Rusiya tarixi və Qafqazşünaslıq kafedrasının müdiri, Şimali Osetiya-Alaniya Respublikası Tarix və Arxeologiya İnstitutunun direktoru, tarix üzrə elmlər doktoru, professor Ruslan Bzarov moderatorluq edib.

Paneldə "Müasir Gürcüstanda İslam və dövlət", "Postklassik dövrdə (XIII – XVII əsrlərdə) İslam intellektual ənənəsi: əsas xüsusiyyətlər", "Sivilizasiyalararası münasibətlər kontekstində Qərbin İslama baxışı və Cənubi Qafqazda təsirləri", "İslamda insana münasibət", "Şimali Qafqazda İslam və totalitarizm" və digər mövzularda məruzələr dinlənilib və müzakirələr aparılıb.

"Azərbaycanda tolerantlıq və multikultural ənənələrin möhkəmləndirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolu" mövzusunda keçirilən paneldə isə İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin Baş direktorunun məsləhətçisi, professor Sadık Ünay, Moskva Dövlət Psixoloji-Pedaqoji Universiteti Etnopsixologiya və çoxmədəniyyətli təhsilin psixoloji problemləri kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Olqa Pavlova moderatorluq edib.

Paneldə "Müsəlman ölkələri ilə əlaqələrin inkişafında Heydər Əliyevin rolu", "İslamofobiya ilə mübarizədə Azərbaycan Respublikasının multikulturalizm və İslam həmrəyliyi siyasətinin əhəmiyyəti", "İlham Əliyev siyasətində azərbaycançılıq ideologiyası: tolerantlıq və multikulturallıq zəminində", "İrəvanın tarixi-mədəni irsinin ərəb-İslam dünyasında tanıtdırılmasında AMEA Tarix İnstitutunun rolu", "Müasir dövr mədəniyyətlərarası dialoqun Azərbaycan nümunəsi", "Müasir dövrdə Azərbaycanın multikulturalizm modeli", "Dini-tarixi abidələrin təmir və bərpasında Heydər Əliyev Fondunun rolu", "Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarında məhv edilmiş tarixi-mədəni irsimiz", "Dini tolerantlıq və humanizm: Prezident İlham Əliyevin ideal modeli" və digər mövzularda müzakirələr aparılıb.

Bildirilib ki, müxtəlif etnos və dinlərin qovuşduğu ölkəmizdə tarixən formalaşmış multikultural mühit beynəlxalq aləmdə alqışlanır və mütərəqqi model kimi qəbul edilir. Məhz bu cür yanaşma milli birlik və təhlükəsizliyin təminatı baxımından son dərəcə zəruri olan multikultural cəmiyyət modelinin formalaşmasına imkan yaradıb. Respublikamızdakı mövcud tolerant və multikultural mühit barədə beynəlxalq ictimaiyyət ətraflı məlumatlandırılmalı, bu sahələrdə əldə olunmuş nailiyyətlər qlobal miqyasda təbliğ olunmalıdır.

Günün sonuncu – "Qafqazda İslamın yayılması" mövzusundakı paneldə Rusiyanın İslam Mədəniyyəti Elm və Təhsilə Dəstək Fondunun direktor müavini Vyaçeslav Polosin və AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Ərəb ölkələri tarixi və iqtisadiyyatı şöbəsinin müdiri Fərda Əsədov moderatorluq edib.

Maraqlı müzakirələrlə davam edən paneldə məruzəçilərin "Xəzər xaqanlığında İslamın yayılması", "Azərbaycanda İslamın yayılması xüsusiyyətlərinə dair", "Azərbaycanda İslam dininin ilkin vaxtlarında sosial-iqtisadi vəziyyət haqqında", "Tiflis və ətraf ərazilərdə İslamın yayılması" və digər mövzularda çıxışlar dinlənilib.

İki gün davam edəcək "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpozium 11 paneli əhatə edir. Simpoziumda 100-dən çox məruzəçinin çıxışları dinlənilir.

Tədbirin materialları kitab halında çap olunacaq.

***AZƏRTAC***

# Baş Prokurorluq və Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin birgə məlumatı

**Ayrı-ayrı dövrlərdə silah işlətməklə quldurluq, yaşayış sahəsinə girməklə oğurluq, xuliqanlıq, fahişəliyə cəlbetmə əməllərinə görə Cinayət Məcəlləsinin 143-cü maddəsinin 2-ci hissəsi, 145-ci maddəsinin 2-ci hissəsi, 207.1-ci və 243.1-ci maddələri ilə üç dəfə məhkum olunmuş 1967-ci il təvəllüdlü Qurbanov Aydın Fərhad oğlunun 2018-ci il iyulun 3-də mütəşəkkil dəstə tərkibində birləşərək Gəncə şəhərində baş vermiş terror aktı, hakimiyyətin zorla ələ keçirilməsinə yönələn hərəkətlər və sair dövləti cinayətləri törətməsinə əsaslı şübhələr müəyyən edildiyindən o, 2018-ci il iyulun 30-da Cinayət Məcəlləsinin 228.3-cü (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilməklə Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin istintaq təcridxanasına yerləşdirilib.**

Baş Prokurorluq və Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, istintaq zamanı A.Qurbanovun bacısı oğlu Hamlet Abdullayevin ifadəsi əsasında A.Qurbanovun yaşadığı evdə məhkəmənin qərarı ilə axtarış aparılıb. Axtarış zamanı evin çardağından sonuncunun ayrı-ayrı cinayətlərdə istifadə etdiyi 1 ədəd "Kalaşnikov" konstruksiyalı avtomat silahı, 1 ədəd "Makarov" markalı, 1 ədəd "Marqolin" markalı tapançalar, 508 ədəd avtomat və tapança patronları, 9 ədəd sandıqça və sair döyüş sursatı hal şahidlərinin iştirakı ilə videoçəkiliş aparılmaqla aşkar edilərək maddi sübut kimi götürülüb.

A.Qurbanov xəstəliyi ilə əlaqədar 2019-cu il martın 15-də Penitensiar Xidmətin müalicə müəssisəsinə köçürülüb və orada intensiv müalicəsi aparılmasına baxmayaraq, iyulun 9-da vəfat edib.

A.Qurbanovun həyat yoldaşı və müdafiəçisinin müraciətləri ilə əlaqədar A.Qurbanov barəsində 2019-cu il mayın 31-də məhkəmə-tibb ekspertizası təyin olunub və onun saxlanıldığı şəraitdə həkimlərin nəzarəti altında müalicəsinin davam etdirilməsinin mümkünlüyü barədə rəy verilib.

Bəzi kütləvi informasiya vasitələrində A.Qurbanova, guya işgəncə verilməsi nəticəsində vəfat etməsi barədə yayılmış məlumatlar həqiqəti əks etdirmir. İstintaq təcridxanasında və müalicə müəssisəsində olduğu dövrdə ona işgəncələr verilməsi ilə əlaqədar özü və ya qohumları tərəfindən hər hansı müraciət daxil olmayıb, eləcə də müalicə aldığı dövrlərdə müayinə zamanı və vəfat etdikdən sonra meyitə baxış keçirilərkən bədəni üzərində hər hansı xəsarət və ya xəsarət izləri aşkarlanmayıb.

# Qriqorian kilsəsinin zəngləri və "ziyalı" cızma-qaraları

**Cinayəti törədənlə cinayət barədə məlumatı olub onu ört-basdır edən eyni məsuliyyəti bölüşür. Çünki biri cinayəti törədib, digəri isə ona əl-qol açması üçün şərait yaradıb və dəstək verib. Bu baxımdan, zaman-zaman erməni terrorizminin bu qədər qol-qanad açmasında, cəzasızlıq şəraitində fəaliyyət göstərməsində müstəsna rol oynayan faktor məhz Qriqorian kilsəsi və özünü erməni millətinin ziyalısı hesab edənlər olmuşdur.**




Məsələn, hər birimiz erməni həm də irqçi ideologiyasının əsas ideoloqlarından olan Silva Kapitukyan, Zori Balayan, David Xerdiyanın adlarını müntəzəm eşidirik. Bu şəxslər 1988-ci ildən bəri "Krunk" təşkilatının əsas ilhamverici qaynaqları olmuş və azərbaycanlılara qarşı vandalizm aktlarının əsas təşəbbüskarları qismində çıxış etmişlər. Lakin bir neçə əsr öncəyə qayıdanda, yenə eynilə müasir günümüzdə gördüyümüz reallıqların baş verdiyini öyrənmiş oluruq. Müasir erməni şovinizminin əsasının qoyulduğu dövrləri konkret müəyyən etmək isə müşküldür. Çünki tarixin hansı dönəminə baxsaq, erməni kilsəsinin ruhanilərinin və ya erməni yazıçılarının böyük Ermənistan arzuları və yaxud "məzlum erməni", "köməksiz erməni" fikirlərini oxuyuruq. Ermənilərin başqa xalqlarda olanları mənimsəmə hissi də məhz həmin özünü ziyalı adlandıran yazarlar və ruhanilərin fitvası baş vermişdir.

### *Ultramillətçi erməni paranoyyası*

Erməni millətçiliyinin və təcavüzkarlığının başlıca göstəricilərindən biri onun təbliğat maşınının son dərəcə fəal işləməsi və həmin təbliğatın hədyanlar və böhtanlar üzərində qurulmasıdır. Ermənilər onlara qarşı hər hansı bir loyallığı hiss edən kimi dərhal təbliğat maşınını işə salır, xalqlarının beyinlərini cəfəng və uydurma məlumatlarla doldurmağa çalışırlar. Bu istiqamətdə artıq ermənilərin hazır ideoloji konsepsiyaları da mövcuddur.

Dünyada yəqin ki, elə bir xalq tapmaq olmaz ki, onun tarixi erməni tarixi qədər saxtalaşdırılmış olsun. Milli müstəsnalığı, ermənilərin digər millətlərdən yüksəkdə olduğunu erməni ideoloqlarının başında gələn isimlərdən biri Xaçatur Abovyan aşağıdakı kimi təsvir edirdi: "Bu həmin olkə, bu həmin misilsiz xalq... Mənim ermənilərim, siz hansı südlə böyüdülmüsünüz, siz hansı bətndə həyat tapmısınız, hansı əl sizi qucaqlamışdır, hansı dil sizə xeyir-dua vermişdir ki, nəticədə siz belə bir ruha, belə bir ürəyə malik olmusunuz və görünməmiş bir möcüzə kimi dünyaya qədəm qoymusunuz". Əlbəttə, bir yazıçının öz xalqını bu şəkildə müstəsna təriflər yağışına tutmasını haradasa anlamaq olar, lakin fərq ondadır ki, erməni yazıçılarında bu şovinizm paranoyya səviyyəsinə çatır və nəticədə milli-ayrıseçkiliyi təbliğ edir. Bu sərsəmləmələrin bir növü olaraq ermənilərin uzun müddət özlərini "Nuh tufanından qalma millət" adlandırması dezinformasiyasıdır.

X.Abovyan yazır: "Qəhrəmanlıq, sağlam ruhun güc, ürək genişliyi, igidlik, iradə möhkəmliyi, əsl mənəvi güc bax belə olar ki, Nuhun tufanından başlamış bu günə kimi heç bir xalqda elə bir şey görünməmiş və heç vaxt da görünə bilməz". Söhbətin hansı iradədən, hansı gücdən getdiyi isə naməlumdur. Minillik dövlətlərə, imperiyalara sahib olan xalqların ümumbəşəri səviyyəyə qalxmış yazıçı və filosoflarının heç birinin yaradıcılığında bu şəkildə gülünc mübaliğələrə rast gəlinmir. Hətta o, daha da irəli gedərək erməniləri ən qədim və ən üstün xristian xalq adlandırır: "Biz özümüz yaxşı bilirik ki, xaç və Bibliya bizim sərvətimizdir, erməni xalqı on iki və yetmiş iki xristian xalqından daha yüksəkdədir, erməni ibadətçiliyi və şarakanı, erməni dünyası və inam simvolu başqa heç bir xalqda yoxdur..." Gördüyünüz kimi, ancaq öz xalqına bağlılıq və başqa xalqlara düşmənçilik və nifrət üzərində qurulan yazılar. Erməni yazarları və ruhaniləri bilməlidirlər ki, bu tipli cümlələr əks təqdirdə, millətciliyə və milli ədavətə çevrilə bilər. Tarix sağlam qürur və ibrət üçün öyrənilməlidir, başqa xalqlara nifrət tərbiyə edilməsi üçün yox.

Ümumiyyətlə, erməni terror təşkilatlarının meydana gəlməsi və formalaşması tarixində kilsə əhəmiyyətli rol oynayıb. Bu, xüsusilə, Çar Rusiyası, Fransa və İngiltərənin regionun gələcəyi ilə bağlı geostrateji planlarının olmasından doğmuşdu. Digər tərəfdən, məlum olduğu kimi, Osmanlı dövləti çərçivəsində ermənilər xristian azlığını təşkil edirdi. Erməni xristianlığı dünyanın başqa xristian qruplarından onunla fərqlənirdi ki, erməni kilsəsi Roma kilsəsinin hakimliyini tanımırdı, papa hakimiyyətinə heç bir maraq göstərmirdi, öz qriqorianlıq inamı ətrafında birləşməyə üstünlük verirdi. Bu baxımdan, kilsə həmişə siyasətdə fəal iştirak edib və ermənilərin qonşularına qarşı nifrət hissini qızışdırmaqda xüsusi rol oynayıb. Bu barədə Amerika tarixçisi Samuel Vims yazır ki, xristian ermənilərin və müsəlman Osmanlıların arasında yaranan nifrətin kökündə erməni kilsəsinin əməyi və səyləri durur. Baş keşiş Gevond Turyan 1917-ci ildə İstanbulda dərc edilmiş kitabında da erməni terror təşkilatlarının formalaşmasında kilsənin rolunu açmışdır. Turyan yazır ki, "uzun müddət dini icmalar erməni inqilabçı partiyalarının mərkəzi idi, burada ən dəhşətli proqramlar hazırlanmışdı… Dini mərkəzlər danışıqlarla və yazı ilə xalqı üsyana çağırırdı. Çıxışlarda yüksək sözlər və İncilin doktrinaları xatırlanmırdı. Sədaqət və düzgünlük yerinə üsyana, insanlıq yerinə nifrətə və qisasa, əxlaq yerinə alçaqlığa və rüsvayçılığa çağırışlar eşidilirdi"

"Böyük Ermənistan", "məzlum ermənilər", "ilk əzabkeş xristianlar" cəfəngiyyatlarının qaynaqlandığı mənbələrdən biri də "Erməni tarixinin atası" hesab edilən M.Xorenatsinin "Ermənistan tarixi" əsəridir. Bu əsər erməni tarixşünaslığı üçün ilk yazılı "mötəbər mənbə" hesab edilir. Lakin bu əsərdə tarixi saxtakarlıq, ermənilərin əzabkeş və böyük ərazilərə sahib olan etnos kimi təqdim etmək edilməsinin utopiya olduğu bütün tarixi dəlillərlə sübut edilmişdir. Lakin din xadimi adına iddialı birisinin bir milləti şovinizmə yuvarlaması heç bir səmavi kitabın prinsipinə uyğun deyildir. Bu keşiş ermənilərdə dini dəyərlərin təbliği deyil, açıq milli ədavət hissini tərbiyə edir. Ən maraqlı məqam isə budur ki, M. Xorenatsinin özünün də tarixi şəsiyyət olmaması sübut edilib. Bu barədə Azərbaycan alimləri ciddi araşdırmalar aparıb və belə qənaətə gəliblər ki, onun əsərini 1858-ci ildə rus dilinə çevirən və nəşr etdirən N.Eminin həm M.Xorenatsinin, həm də erməni əlfbasının atası sayılan Mesrop Maştosun doğum tarixlərinin düz gəlməməsində saxtakarlıq ilkin olaraq ifşa edilir.

### *Erməni xalqı terrorçuluq məngənəsində*

Erməni xalqının tarixinə və müasir vəziyyətinə diqqət yetirsək, aydın görərik ki, onların taleyi hər zaman bu iki zümrənin əlində oyuncağa çevrilib. Kilsə xadimləri və erməni ziyalılarını erməni paranoyyasının, terrorizminin ilk rüşeymi hesab etmək olar. Bu zümrə öz xalqlarını çirkin əməllərinə don geyindirmək üçün daim istifadə etmiş, hakimiyyət, qisas ambisiyalarını psevdopatriotluqla pərdələmişdir. Nəticədə isə öldürən də, öldürülən də erməni xalqının sıravi nümayəndələri olmuşdur.

Terror fəaliyyətinin müasir təcrübəsində terrorizmin geniş yayılmış etnik təmizləmə, kütləvi talanlar və çoxsaylı insan tələfatları ilə müşayiət olunan və sonsuz qəddarlığı ilə səciyyələnən növlərində məhz erməni ziyalılarının və kilsə xadimlərinin xeyir-duasını görmək mümkündür. Erməni terrorizminin və iqçiliyinin ideya atalarından biri olan Şahan Natali "erməni məsələsi"ndən bəhs edən bir sıra əsərlərində açıq-aşkar türklərə qarşı azğın addımlar atılmasını təbliğ etmiş və bununla bağlı "Türklər və biz", "Ankaradan Bakıyacan türkçülük" ," Yeni əlavə: "Necə" və "Niyə" Aleksandrapol müqaviləsi" kimi təxribatçı əsərlər yazmışdır. O, 1970-1980-ci illərdə türk diplomatlarına və diasporuna qarşı Amerika və Avropada tüğyan edən erməni terrorizmini, terror dəstələrinin fəaliyyətini yüksək qiymətləndirmiş və onlara bəraət qazandırmağa çalışmış, bunu türklərlə mübarizədə yaşamağın əsas şərti kimi təbliğ etmişdir.

Görünən odur ki, əgər erməni terrorizmi maddi və texniki təminatını bir sıra böyük dövlətlərdən alıbsa, ideoloji dayaqlarını kilsə xadimləri və milli ədavət toxumu səpən "ziyalı"larından götürmüşdür.

1885-ci ildə birinci erməni siyasi partiyası "Armenakan" yaradılanda partiyanın üzvləri Osmanlı dövlətində və Avropa ölkələri ilə yanaşı, Rusiya və İran ərazilərində də fəaliyyət göstərirdilər. Onun rəhbəri Marselə (Fransa) mühacirət etmiş erməni ideoloqu M.Portakalyan silah alınması üçün pul toplanması ilə məşğul olub. Bununla bağlı o, Erməni Vətənpərvərlik Cəmiyyətini təşkil edib. Alınmış müasir silahlar Vanda və onun ətraflarında yaşayan ermənilər üçün nəzərdə tutulurdu. Orada onlara diversiya-terror müharibəsinin aparılmasının sirləri öyrədilir və havadarlarının dəstəyi ilə üsyana hazırlayırdılar.

1886-cı ildə Cenevrədə erməni ideoloq Nazarbekyan tərəfindən yaradılmış "Qnçak" ("Zəng") partiyası da Osmanlı dövlətinə qarşı mübarizənin əsas metodunun terror olduğunu bəyan etmişdi. Bu partiyanın proqramının 4-cü bəndində göstərilirdi: " Nəzərdə tutulmuş hədəflərə nail olmaq üçün, inqilabçı hökumət aşağıdakı metodlara müraciət etməlidir: təbliğat, təşviqat, terror, təxribatçı təşkilatların yaradılması və s".

"Daşnaksütyun"un məqsədlərinə çatmaq üçün tətbiq etdiyi terror metodları xüsusi qəddarlığı və sərtliyilə fərqlənirdi. Həmçinin etnik ermənilərin şüur və düşüncələri üzərində hakimiyyət üçün mübarizədə, guya nə vaxtsa mövcud olmuş "Böyük Ermənistan", "bu xalqın əzabkeşliyi", onlara qarşı "tarixi haqsızlıq" barəsində və "milli istisnalıqları"na dair miflər yaradılırdı.

Erməni kilsəsi erməni terror təşkilatlarına daim maddi və mənəvi dəstək göstərmişdir. 1983-cü il noyabrın 21-də Kaliforniyada erməni kilsəsi katolikos E.Tabakyanın başçılığı ilə "Xampiq axşamı" keçirir. Axşam Livan ermənisi terrorçu Xampiq Sasunyana həsr edilmişdi. O, 1982-ci il yanvarın 28-də Los-Ancelesdə türk konsulu K.Arikanı öldürmüşdü və bu cinayətə görə məhkum edilmişdi. Terrorçulara erməni kilsəsi tərəfindən bu cür ehtiramın göstərilməsi həmişə davam edib. Kilsə terrorçuları "böyük əzabkeşlər" kimi xatırlayırdı. Belə hallardan biri də, erməni terrorçuları Yeganyan, Daqleyan, Krcleyan, Acemyan və Abramyanın 1983-cü il iyulun 27-də Lissabonda (Portuqaliya) türk səfirliyinin binasını tutması ilə bağlıdır. Belə ki, "Lissabon beşliyi" adını almış bu terror qrupu "Daşnaksütyun"a ən yaxın terror təşkilatı "Erməni inqilabçı ordusu" nun tərkibinə daxil idi. Polisin hücumu zamanı onlar özlərini partladırlar və bu zaman səfirin arvadı da həlak olur. 1984-cü ilin yanvar ayı ərzində erməni kilsələri "Daşnaksütyun"un köməkliyi ilə ABŞ-ın bir neçə ştatında "Lissabon beşliyi"nin xatırə günlərini keçirir.

1987-ci ildə Eçmiədzində erməni kilsəsinin katolikosu I Vazgen ABŞ-a və Kanadaya səfər edib. Nyu-York, San-Fransisko və Los-Ancelesdə, həmçinin Kanadada etnik ermənilərlə görüşləri zamanı katolikosun çıxışlarının əsas leytmotivi "Böyük Ermənistan" naminə bütün ermənilərin birləşməsinə çağırış idi. O həmçinin dünya ermənilərini bütün vasitə və metodlarla qondarma "erməni soyqırımı"nın Avropa Parlamentinin ardınca Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmasına nail olmağa çağırırdı. Onun fikrincə, bu, "xristian hərəkatının və xristian ədalətinin təntənəsinin əsası" olacaqdır. Bir ildən sonra kilsənin fəal dəstəyilə rəsmi Ermənistan hökuməti indiki Ermənistan ərazisindən 250 mindən çox azərbaycanlını deportasiya etdi və bu respublikanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə bağlı çoxdankı planının reallaşdırılması açıq mərhələyə keçdi.

Bundan başqa, 1994-cü il dekabrın 26-da Kaliforniyada Müqəddəs Qriqori erməni kilsəsi tərəfindən keçirilən kütləvi xatirə mərasimi məşhur beynəlxalq terrorçu, çoxsaylı dinc sakinlərin ölümünə səbəb olmuş, Dağlıq Qarabağda terror qrupuna rəhbərlik etmiş və Azərbaycan Silahlı Qüvvələri tərəfindən məhv edilmiş ASALA liderlərindən biri Monte Melkonyana həsr edilmişdi. Məhz erməni ziyalılarının və kilsə xadimlərinin həmin təhrikedici əməlləri sayəsində bu xalq tarixin böyük cinayətinə imza atmış oldu. Belə ki, 1992-ci ilin 26 fevralında Azərbaycanın Xocalı şəhərində 613 dinc sakinin qətlə yetirilməsinə, minlərlə insanın itkin düşməsinə səbəb oldular. Bu günə qədər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində milyondan çox azərbaycanlı qaçqına və məcburi köçkünə çevrildi, Azərbaycanın ərazi bütövlüyü pozuldu və 20 faiz tarixi torpağı işğal edildi. Məhz erməni yazıçı və tarixçilərinin, kilsə xadimlərinin gərgin əməyi nəticəsində son 200 il ərzində bu xalq terrorçuluğa mübtəla olmuş vəziyyətə gətirildi.

**Anar TURAN,**
**"Xalq qəzeti"**

**Məqalə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür.**

# Xarici xəbərlər

## ABŞ

### BMT-nin hesabatı



BMT-nin hesabatına görə son illər dünyada beş yaşadək körpələr də daxil olmaqla, bütün yaş qruplarında uşaqlar arasında artıq çəki və piylənmə halları artıb. Bildirilir ki, artıq çəki bütün yaş qruplarında artmaqdadır. 2018-ci ildə 40 milyon 5 yaşadək uşağın artıq kilodan əziyyət çəkdiyi açıqlanıb. Ən çox artıq çəki və piylənmədən əziyyət çəkən uşaqlar Şimali Afrika və Qərbi Asiyada qeydə alınıb.

**Məlumatı BBC yayıb.**

### Uçan taksi istifadəyə verilir



"Uber" şirkəti Nyu-Yorkda uçan taksi xidmətini istifadəyə verəcək. Bildirilir ki, "Uber Copter" adlı vertolyot taksi servisindən iş günləri pik saatlarda istifadə mümkün olacaq. "Uber Copter" vertolyot taksi sərnişinləri Con Kennedi adına Beynəlxalq Aeroporta bir neçə dəqiqəyə çatdıracaq.

**Məlumatı "Belta.by" verib.**

## Çin

### Kosmosa 100 peyk göndəriləcək



Çin 2025-ci ilədək kosmosa 100 süni peyk göndərəcək. Bu bəyanatla Çinin Milli Kosmik Agentliyinin Beynəlxalq Əlaqələr Departamentinin rəhbəri Yuy Tsi çıxış edib. O, son illər Çinin aerokosmik texnologiyaların inkişafında böyük nailiyyətlər əldə etdiyini vurğulayıb.

**Məlumatı "Sinxua" yayıb.**

## Rusiya

### Gəlir azalıb




Cari ilin ikinci rübündə "Gazprom" şirkətinin təbii qaz ixracı üzrə əldə etdiyi gəlirlər 38 faiz azalıb. Bəhs edilən dövrdə şirkətin təbii qaz ixracı üzrə gəlirləri 9 milyard dollar təşkil edib. İlk rübdə isə bu göstərici 14 milyard dollar olub.

Xatırladaq ki, ötən ilin ilk 2 rübündə şirkətin ixrac gəlirləri müvafiq olaraq 12,7 və 11 milyard dollar təşkil etmişdi.

**Xəbəri RBK verib.**

## İspaniya

### Malkomun transfer qiyməti açıqlanıb



"Barselona" klubu ötən mövsümün əvvəlində Fransanın "Bordo" komandasından heyətinə cəlb etdiyi Malkomun transfer qiymətini müəyyənləşdirib. Kataloniya təmsilçisi 22 yaşlı futbolçunun transfer qiymətini 40 milyon avro təyin edib. Qeyd edək ki, Malkomla İngiltərənin "Arsenal", "Everton" və "Tottenhem" klubları da yaxından maraqlanır.

**Xəbəri "Soccernews" yayıb.**

**Hazırladı: Elçin ABBASOV, "Xalq qəzeti"**

# ABŞ Şimali Koreyaya qarşı sanksiyaları yumşalda bilər



❒ ***ABŞ-ın Koreya Respublikasındakı Silahlı Qüvvələrinin komandanlığı hesab edir ki, Şimali Koreyanın "Xvanson-15" qitələrarası ballistik raketi Birləşmiş Ştatların ərazisinə zərbə endirməyə qadirdir. Bu barədə BMT qüvvələrinin, ABŞ-ın Koreya Respublikasındakı Silahlı Qüvvələrinin və Koreya-ABŞ Birləşmiş Qüvvələrinin illik "2019 Strategic Digest" jurnalında dərc edilmiş amerikalı hərbçilərin məqaləsində bildirilir.***

TASS-ın verdiyi məlumata görə, "MBR Xvanson-15" ABŞ-ın materik hissəsinin ərazisində istənilən nöqtəni vura bilər. Məqalədə deyilir ki, KXDR hazırda bundan əlavə iki başqa kompleksə də malikdir: onlardan biri – "Xvanson-13" 5,5 min kilometr, "Xvanson-14" isə 12,87 min kilometr məsafəyə uça bilir.

Cənubi Koreyadakı ABŞ komandanlığından bildirilib ki, KXDR lideri Kim Çen Inın raket və nüvə sınağı poliqonunun məhv edilməsi haqqında sərəncam verməsinə baxmayaraq, Koreya yarımadasının tam nüvəsizləşdirilməsi üçün hələ çox işlər görülməlidir.

Rəsmi Vaşinqton da nüvəsizləşmə prosesinin başlanması üçün addımlar atmağa hazırdır. ABŞ tərəfi Şimali Koreyanın Yonben nüvə mərkəzini məhv edəcəyi və bütün nüvə proqramını donduracağı təqdirdə isə ona qarşı sanksiyaları yumşaldacağını bəyan edib. Bu barədə ABŞ Prezidenti Administrasiyasındakı mənbə bildirib.

Onun sözlərinə görə, söhbət BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi kömür və tekstil ixracını məhdudlaşdıran sanksiyadan gedir. Bu tədbirlər fevral ayında iflasa uğramış Vyetnam sammitindən sonra iki ölkənin kompromis əldə etməsinə kömək edə bilər: "Ağ ev işçi qrup səviyyəsində danışıqların başlanmasından sonra KXDR-in nüvəsizləşdirilməsi üçün lazım olan şərtləri müəyyənləşdirməyə çalışır. Əgər proses yaxşı templə davam edərsə, sanksiyaların dayandırılması müddəti uzadıla bilər", – deyə mənbə bildirib.

***Paşa ƏMİRCANOV, "Xalq qəzeti"***

# Birjalarda neftin qiyməti artmaqda davam edir



❒ ***Dünya bazarında "qara qızıl"ın qiyməti artmaqda davam edir.***

Londonun "İCE" Birjasının məlumatına görə, "Brent" markalı neftin qiyməti 4 faizdən çox artaraq bir bareli 67,23 dollar olub. Nyu-York Əmtəə Birjasının məlumatına görə, Texas sortu adlandırılan ABŞ-ın "WTI" markalı neftinin qiyməti 3,8 faiz artaraq bir bareli 60,10, Azərbaycanın "AzeriLight" markalı neftinin qiyməti 4,5 faiz artaraq bir bareli 68,81 dollar olub.

Ekspertlər bildiriblər ki,dünya bazarında "qara qızıl"ın artmasına əsas səbəb ABŞ-da neft və benzin ehtiyatının azalması, eyni zamanda Yaxın Şərqdəki gərginlik və OPEC + ölkələrinin hasilatı azaltmaq barədə razılaşmaya əməl etmələridir.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***

# Permdə güclü qasırğa



❒ ***Rusiyanın Perm şəhərinə güclü qasırğa baş verib.***

Küləyin sürəti saniyədə 20 metrə çatır. Aramsız güclü yağış yağır. Güclü külək ağacları və elektrik dirəklərini aşırıb. Üç nəfər xəsarət alıb. Onlar xəstəxanaya yerləşdiriliblər.

Şəhərin əksər yerlərində elektrik enerjisinin verilişi kəsilib. Küçələr çayı xatırladır. Onlarca avtomobilə ziyan dəyib.

TASS-ın məlumatına görə, sinoptiklər və xilasedicilər əhalini xəbərdar ediblər ki, əlverişsiz hava şəraiti hələ davam edəcək. Buna görə də mümkün qədər evdən çıxmasınlar.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***


## "AZƏRBAYCAN TELEVİZİYA VƏ RADİO VERİLİŞLƏRİ" QSC

***video müşahidə kameralarının satın alınması və quraşdırılması məqsədilə kotirovka sorğusu elan edir***

Kotirovka sorğusunun iştirakçılarına təklif olunur ki, hüquqi sənədlərlə birlikdə öz təkliflərini möhürlənib imzalanmış şəkildə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün kotirovka sorğusunun iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Kotirovka sorğusunda iştirak etmək istəyənlər şərtlər toplusunu Bakı şəhəri, M.Hüseyn küçəsi 1 nömrəli (əlaqələndirici şəxs Elmar Əliyevdən, telefon- 537-02-66) ünvandan ala bilərlər. İddiaçılar kotirovka sorğusunda iştirak üçün sənədləri 24 iyul 2019-cu il saat 18.00-a qədər, Bakı şəhəri, M.Hüseyn küçəsi 1 nömrəli ünvana təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 25 iyul 2019-cu il saat 15.00-da Bakı şəhəri, M.Hüseyn küçəsi1 nömrəli ünvanda xüsusi ayrılmış otaqda açılacaqdır.

İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılışı prosedurunda iştirak edə bilərlər.

## "AZƏRBAYCAN TELEVİZİYA VƏ RADİO VERİLİŞLƏRİ" QSC

***yanğınsöndürmə balonlarının doldurulması xidmətinin satın alınması məqsədilə kotirovka sorğusu elan edir***

Kotirovka sorğusunun iştirakçılarına təklif olunur ki, hüquqi sənədlərlə birlikdə öz təkliflərini möhürlənib imzalanmış şəkildə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün kotirovka sorğusunun iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Kotirovka sorğusunda iştirak etmək istəyənlər şərtlər toplusunu Bakı şəhəri, M.Hüseyn küçəsi 1 nömrəli (əlaqələndirici şəxs Elmar Əliyevdən, telefon- 537-02-66) ünvandan ala bilərlər.

İddiaçılar kotirovka sorğusunda iştirak üçün sənədləri 22 iyul 2019-cu il saat 18.00-a qədər, Bakı şəhəri, M.Hüseyn küçəsi 1 nömrəli ünvana təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 23 iyul 2019-cu il saat 15.00-da Bakı şəhəri, M.Hüseyn küçəsi 1 nömrəli ünvanda xüsusi ayrılmış otaqda açılacaqdır.

İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılışı prosedurunda iştirak edə bilərlər.

## "AZƏRBAYCAN TELEVİZİYA VƏ RADİO VERİLİŞLƏRİ" QSC

***2019-cu il iyulun 21-27-də keçiriləcək Gənclərin Yay Olimipiya Oyunlarında çəkilişləri həyata keçirəcək texniki heyətin qidalanması məqsədilə kotirovka sorğusu elan edir***

Kotirovka sorğusunun iştirakçılarına təklif olunur ki, hüquqi sənədlərlə birlikdə öz təkliflərini möhürlənib imzalanmış şəkildə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün kotirovka sorğusunun iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Kotirovka sorğusunda iştirak etmək istəyənlər şərtlər toplusunu Bakı şəhəri, M.Hüseyn küçəsi 1 nömrəli ( əlaqələndirici şəxs Elmar Əliyevdən, telefon- 537-02-66) ünvandan ala bilərlər. İddiaçılar kotirovka sorğusunda iştirak etmək üçün sənədləri 17 iyul 2019-cu il saat 18.00-a qədər , Bakı şəhəri , M.Hüseyn küçəsi 1 nömrəli ünvana təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 18 iyul 2019-cu il saat 15.00-da Bakı şəhəri, M.Hüseyn küçəsi 1 nömrəli ünvanda xüsusi ayrılmış otaqda açılacaqdır.

İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılışı prosedurunda iştirak edə bilərlər.


# "Saudi Aramco" istehsalı artırır



❒ ***Səudiyyə Ərəbistanının "Saudi Aramco" şirkəti neft hasilatının artırılması üçün əcnəbi kompaniyalarla 18 milyard dollar dəyərində müqavilə imzalayıb. Məqsəd əcnəbi servis şirkətlərini "Mərcan" və "Berri" neft yataqlarının istehsal gücünün artırılmasına cəlb edilməsidir.***

Qeyd edək ki, bu barədə "Saudi Aramo"nun prezidenti və baş icraçı direktoru Məhəmməd Amin Həsən Al-Nasir deyib. Onun sözlərinə görə, Səudiyyə Ərəbistanın milli neft şirkəti mühəndis, tikinti və digər servis şirkətləri ilə cəmi 34 müqavilə imzalayıb.

Belə ki, "Mərcan" neft yatağında neft emalı zavodunun və 24 dəniz platformasının tikintisi nəzərdə tutulur. "Berri" layihəsi çərçivəsində isə neft-qaz emalı zavodunun inşası planlaşdırılır. Hər iki yataqların istehsal gücü ümumilikdə – neft sutkada 0,55 milyon barrel və qaz 2,5 milyard kubmetrədək artacaq.

***Mahmud QƏRİBOV, "Xalq qəzeti"***

# İtaliyada apelsin boyda dolu

❒ ***İtaliyanın Adriatik dənizi sahillərinə güclü siklon gəlib. Bura yağan dolu apelsin boyda olub.***

Peskara şəhərində onlarca insan xəsarət alıb. Xeyli avtomobilə, evlərin dam örtüklərinə ciddi ziyan dəyib. Mağazaların vitrinləri, evlərin pəncərə şüşələri sınıb.

Xeyli insan həkimə müraciət edib.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***




## "Transavto EKS" ASC səhmdarlarının nəzərinə!

15 avqust 2019-cu il saat 11.00-da "Transavto EKS" ASC -nin müşahidə şurasının 4 iyul 2019-cu il tarixli qərarına əsasən səhmdarların növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

**1.** "Transavto EKS "ASC-nin istifadəsində olan torpaq sahəsinin yeni investor tərəfindən "Transavto EKS" ASC-nin adına özəlləşdirilməsi və sonradan həmin torpaq sahəsinin investora satışı əqdinin şərtlərinin müzakirəsi və müvafiq qərarın qəbul edilməsi.

**2.** Torpağın investora satışı üçün ASC-nin müşahidə şurasının qərarının məqbul edilməsi halında bu satışdan "Transavto EKS "ASC-yə qalan mənfəətin dividend şəklində səhmdarlara paylanması məsələsinin müzakirəsi və müvafiq qərarın qəbul edilməsi.

**Ünvan-** Bakı, Binəqədi rayonu, Dərnəgül qəsəbəsi 3105-ci məhəllə.

***"Transavto EKS" ASC -nin idarə heyəti***


# Hava proqnozu

➲ **İyulun 12-də**

➲ **Bakıda və Abşeron yarımadasında** yağmursuz keçəcək. Cənub küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq, arabir güclənəcək. Gecə 21-25, gündüz 30-35, Bakıda gecə 23-25, gündüz 33-35 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 752 mm civə sütunundan 749 mm civə sütununa enəcək, nisbi rütubət 60-70 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu 24-25 dərəcəyə çatacaq.

➲ **Naxçıvan Muxtar Respublikasında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 17-22, gündüz 32-37 dərəcə isti olacaq.

➲ **Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** gün ərzində arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 12-17, gündüz 20-25 dərəcə isti olacaq.

➲ **Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında** gün ərzində arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 19-24, gündüz 30-35 dərəcə isti olacaq.

➲ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 17-22, gündüz 28-33, dağlarda gecə 10-15, gündüz 18-23 dərəcə isti olacaq.

➲ **Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** yağmursuz keçəcək. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 20-25, gündüz 32-37 dərəcə isti olacaq.

➲ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında** yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Gecə 21-24, gündüz 30-35, dağlarda gecə 14-18, gündüz 23-28 dərəcə isti olacaq.


## BİLDİRİŞ

**Dövlət Turizm Agentliyinin "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyəti** tərəfindən manqal və hava çəkən zontların hazırlanması işlərinin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusunda "KASKAD SUPPLYİNG" MMC qalib şirkət elan olunmuş və həmin MMC ilə müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

## ALLAH RƏHMƏT ELƏSİN

Asif Əsgərov Milli Məclisin deputatı Hüseynbala Mirələmova əzizi

**ATAXAN ŞİRİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Hidrotexnika və Meliorasiya Elm-İstehsalat Birliyinin rəhbərliyi və kollektivi "Azdövsutəslayihə" İnstitutunun direktoru Elbrus Paşayevə bibisi

**ROZA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Allahverdi Zeynalov, Rəhim Məmmədov, Rəhim Usubov, Lamiyə Kərimova, Çəməngül Mustafayeva və Ofeliya Əsgərzadə Azərbaycan Beynəlxalq Bankı Audit Departamentinin əməkdaşı Nərgiz İsayevaya atası

**OKTAY MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.



BAŞ REDAKTOR

HƏSƏN HƏSƏNOV

TELEFONLAR:

Məsul katib: 493-61-02
Şöbələr: 493-59-03 (8 xətli), 493-69-47, 493-34-13,
493-34-23, 493-59-47, 493-45-18, 493-33-01, 598-84-13.
Reklam və elanlar: 493-82-21, Faks: (99 412) 493-02-80, 598-28-64;
E-mail: info@xalqqazeti.com, xalqqazeti@gmail.com



"Xalq qəzeti"nin kompyuter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:

AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 7622
SİFARİŞ 2246
QİYMƏTİ 40 qəpik

Çapa imzalanmışdır 00:00